Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 54 (8077) CÜMƏ AXŞAMI, 7 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## İLHAM ƏLİYEV verdiyi tapşırıqların icrasına şəxsən nəzarət edir

### Prezident zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlərlə yerində tanış olmaq üçün növbəti dəfə bölgəyə səfər etdi





Fevralın 5-də və 6-da baş vermiş zəlzələ Şamaxı, İsmayıllı və Ağsu rayonlarında bir sıra fəsadlar törətmişdi. Dövlət başçısının sərəncam və tapşırıqlarına əsasən təbii fəlakətin törətdiyi fəsadlar aradan qaldırılır.

AZƏRTAC xəbər verir ki, sərəncamın icrası ilə əlaqədar görülən işlərlə yerində tanış olmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Ağsu rayonuna səfərə gəlib.

Qeyd edək ki, fevralın 5-də və 6-da episentri Ağsu və İsmayıllı rayonlarının ərazisində olan zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında fərdi evlər qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərinə ziyan dəymişdi. Təbii fəlakətdən dərhal sonra Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən görülən təxirəsalınmaz tədbirlər nəticəsində adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilib, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilib.

Hadisənin səhəri günü dövlət başçısı zəlzələ zonasına gələrək sakinlərlə görüşmüş, təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılacağını bildirmişdi. Prezident İlham Əliyev elə buradaca əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstərişlərini vermişdi.

Elə həmin gün dövlət başçısı baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında evlərə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan ilkin olaraq iki milyon manat ayrılması haqqında sərəncam imzalamışdı.

*Ardı 2-ci səh.*

## Millət hamisi, əsgər anası...

### Mehriban Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycanda qadın hərəkatı yeni keyfiyyət mərhələsinə qədəm qoyub



**Gözəlliyin, incəliyin təcəssümü...**
**Əzmin, iradənin, qətiyyətin simvolu...**
**Humanistliyin, insanpərvərliyin nümunəsi...**
**Bəşəri ideyaların pərvəriş qanadları...**
**Zərif çiyinlərində dünyanın yükünü daşımağa qadir Fitnə...**
**Qadın haqqındakı yanlış stereotipləri alt-üst edən mükəmməl etalon...**
**Mehriban xanım Əliyeva...**

Bu əməli uca, niyyəti saf qadın yardıma möhtac insanların ümidi, çətinliyə düşənlərin pənah ünvanı, kimsəsizlərin həmdəmi, ana hənirindən məhrum körpələrin mənəvi anasıdır...

Dünyadakı yeri və rolu ilə bənzərsiz şəxsiyyətlərdəndir...

Mərhəmət, xeyirxahlıq, humanizm simvoludur...

*Ardı 7-ci səh.*

## Dünyanın hər yerindən görünən mənəviyyat zirvəsi



**Bu gün müstəqil Azərbaycan Cənubi Qafqazın lider dövləti olmaqla bərabər, həm də regionun dini mərkəzi kimi qəbul olunur. Niyə? Çünki Qafqaz xalqları arasında sülhün qorunub saxlanılmasında ruhani rəhbər kimi Şeyxülislam fenomeni əsas amillərdən biridir. Şeyxülislamlıq titulu-vəzifəsinin əsas məramı, ilk növbədə, öz zamanəsinin mərhəmət elçisi olmaqdır!**

Bu vəzifənin yükünü qırx ilə yaxındır çiyinlərində daşıyan Hacı Allahşükür Paşazadə öz yorulmaz fəaliyyəti sayəsində onu dünyanın hər bir guşəsindən görünən bir zirvəyə qaldırmışdır. Uca Allahın Azərbaycan xalqına bəxş etdiyi, görkəmli din xadimi olmaqla yanaşı, tanınmış ictimai xadim kimi fəaliyyət göstərən Hacı Allahşükür Paşazadənin çağdaş dünyamızın ən nüfuzlu dövlət və din xadimləri tərəfindən ehtiramla qarşılanan dəyərli şəxsiyyətlərdən biri olduğunu bu gün heç kimi dana bilməz!

Uzağa getməyək, bu ilin fevralın ortalarında Moskvada baş verən həyəcanlı bir hadisə - azərbaycanlılarla çeçenlər arasında "Neolit" kafesindəki münaqişə bir anlığa bizim rahatlığımızı əlimizdən almışdı. Gərginliyi aradan qaldırmaq məqsədi ilə müxtəlif səviyyələrdə münasibət bildirildi. Rusiyanın paytaxtında yaşayan çeçen və azərbaycanlı ağsaqqalların görüşü keçirildi.

Nəhayət, Bütün Qafqazın Şeyxi Hacı Allahşükür Paşazadə də məlum hadisəyə öz müraciətilə son nöqtə qoydu və bu təxribatı Ermənistanın ölkəmizə qarşı apardığı mənfur siyasətin tərkib hissəsi adlandırdı.

*Ardı 6-cı səh.*

◆ Unudulmazlar

## El anası



*Heydər Əliyev:*
"İlham anadan olanda Şamama xanım məni aldatdı..."

- Oğlum olanda isə Şamama xanım məni aldatdı. Mən axşam həyat yoldaşımı doğum evinə gətirəndə Şamama xanım dedi ki, uşaq hələ gec olacaqdır, sən burada qalma. Mən də ona inandım və evə getdim. Təxminən üç saatdan sonra zəng vurub məni təbrik edərək dedi ki, oğlun olubdur. Mən çox sevindim. Səhərisi günü yenə bura gəldim.

Amma Şamama xanım yenə də məni yuxarı buraxmadı. Mən bunları ona görə deyirəm ki, o, çox nizam-intizam sevən adam idi. Heç kəsə güzəşt etmirdi. Siz bilirsiniz ki, Şamama xanım mənim qohumumdur. O mənim həyat yoldaşım Zərifə xanımın bibisi idi. Buna baxmayaraq, o, nə qohumluğu, nə tanışlığı, nə dostluğu, nə vəzifəni, nə də başqa bir şeyi nəzərə alan adam deyildi. Şamama xanım deyirdi: qanun hamı üçün qanundur, kimsəyə güzəşt olmayacaqdır. Nə vaxt həyat yoldaşınız buradan çıxacaqsa, onda gəlib uşağı görərsiniz.

Şamama xanım haqqında xatirələr çoxdur. O vaxtlar o, ən yüksək ada - Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü, respublika Ali Sovetinin deputatı idi. O, çox fədakar insan idi. Onun şəxsi həyatı yox idi, bütün ömrü burada keçirdi. Çox gözəl insan, xeyirxah adam idi. Həyat yoldaşım bəzən mənə danışırdı ki, Şamama xanım üç gündür evə gəlmir, ağır xəstələri var. Mən Şamama xanıma sağlığında da böyük hörmətlə yanaşmışam, onun xatirəsi də mənim üçün həmişə əzizdir. Azərbaycanın səhiyyə tarixində Şamama xanımın görkəmli yeri vardır.

*Bax: səh. 9*

## DAHA QƏZET ALMIR HACI ƏHMƏD DƏ...

### Bəs onda qəzetçi Rza neyləsin?...



"Hər kəsi çağırıram gəlməyir, göstərirəm görməyir, deyirəm qanmayır. Axırda gördüm ki... Qəzeti çıxarmaqdan savayı bir qeyri əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin... Heç olmasa ki, doğru söz yerdə qalmasın."

**Həsən bəy Zərdabi**



**Dünya kəşflərlə doludur!**
**Dünyanı kəşflər irəli aparır:**
**Təkərin kəşfi...**
**Buxar maşının kəşfi...**
**Daxili yanma mühərrikinin kəşfi...**
**Elektrik enerjisinin kəşfi...**
**Reaktiv mühərriklərin kəşfi...**

*Bunlardan heç də əskik olmayan:*

Əlifbanın kəşfi...
Kağızın kəşfi...
Basma üsulunun (mətbəənin) kəşfi...
Kitabın (texniki üsulla ərsəyə gələn) kəşfi...
Qəzetin kəşfi...

**Əvvəlcə sadaladıqlarımız bəşəriyyətin irəliyə doğru hərəkətini, inkişafını mexaniki və həm də iqtisadi cəhətdən sürətləndirmişdi.**

**Yazı-pozu sahəsindəki kəşflər isə elmin, insan təfəkkürünün, mədəniyyətin, maarifin və mənəviyyatın yüksəlişini təmin etmişdi.**

*İstehsalsız və iqtisadiyyatsız normal yaşayış, rahatlıq yoxdur!*

*Savadsız və mənəviyyatsız cəmiyyət isə ibtidai icma quruluşundakı insan sürüsündən yəqin ki, çox da fərqlənməz!*

#### Hamı dəli olanda qazının yanına gedir...

**Vaxt var idi Azərbaycanın işıqlı simaları, vətənpərvər ziyalıları milləti ucaltmağın, təhsilə, elmə, mədəniyyətə çatdırmağın yollarından birini qəzet və jurnal buraxmaqda görürdülər!**

Halbuki həmin dövrdə nə mətbəə vardı, nə hürufat, nə də qəzeti oxucuya çatdıranlar...

Heç qəzetə məqalə yazanlar, onu yığıb səhifələyən mürəttiblər - mütəxəssislər, hətta qəzet oxuyacaq kifayət qədər oxucu da yox idi!

Para tapmaq isə həmişəki kimi müşkül görünürdü!

**Amma bütün bunlara baxmayaraq, Həsən bəy Zərdabi ruhdan düşmədi, çətinliklər qarşısında geri çəkilmədi, qəzetin həm yazarı, həm buraxıcısı, həm senzoru, həm də redaktoru oldu!**

*"Əkinçi" belə bir şəraitdə, belə bir zamanda dünyaya gəldi!*

*"Əkinçi" əvvəldən-axıradək maddi və mənəvi çətinliklər məngənəsində boğuldu!*

*Amma 56 nömrəlik qəzetlə mətbuat tariximizin təməli qoyuldu!*

"Əkinçi" qəzetlərin ilki, qaranquşu oldu!

Maarifin, mədəniyyətin ilk məşəli kimi alovlandı.

Qəzetçilik ənənəsini ortaya qoydu!

Milli mətbuatın mövzu, mahiyyət və prinsiplərini, jurnalistikanın ilkin janrlarını yaratdı!

**İnsanlar üçün ümid yerinə, məsləhət və kömək ünvanına çevrildi!**

**Dərdi, köməyə ehtiyacı olanlar üzlərini o məşələ, o ünvana çevirdilər!**

*Bu gün isə qəzetin özü köməyə möhtacdır!*

*Ömrü tükənməkdə olan qəzetin!..*

#### Unudulmaqda olan təkcə qəzetlərdirmi?

"Məndə olan bütün yaxşı cəhətlərə görə kitablara borcluyam" - məşhur rus yazıçısı Maksim Qorkinin sözüdür!

*Ardı 5-ci səh.*

## Azərbaycan qadını cəmiyyətin sarsılmaz mənəvi dayağıdır

### 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi - bütün Azərbaycan qadınlarını Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Milli varlığımızın ifadəsi olan zəngin mədəni-mənəvi irsimizin, ana dilimizin və adət-ənənələrimizin əsrlərdən bəri qorunub saxlanmasında Azərbaycan qadınlarının müstəsna xidməti vardır. Tariximizin mürəkkəb sosial-siyasi dəyişikliklərlə müşayiət olunduğu dövrlərdə onlar cəmiyyətin sarsılmaz mənəvi dayağına çevrilmişlər. XX yüzilliyin ilk onilliklərində, bəzi qabaqcıl ölkələrin qadınlarından daha əvvəl seçki hüququ qazanaraq ictimai və mədəni həyatın müxtəlif sahələrində fəal iştirak etmələri onların gələcək uğurlarının da rəhni olmuşdur. Qürurverici haldır ki, müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı məhz mənəviyyatında millilikə müasirliyin əsl vəhdətini yaratmış Azərbaycan qadını atmışdır.

Azərbaycan qadınları maarifpərvər sələflərinin davamçıları olaraq son yüz ildə ölkəmizin xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin yeni əsaslar üzərində qurulması işində əzmkarlıq göstərmiş və nailiyyətlərlə dolu parlaq bir yol keçmişlər. Onlar müstəqilliyin bərpasından sonra istiqlal ideallarına sədaqətlə milli dövlətçiliyin təməlinin möhkəmləndirilməsi və ölkəmizin hazırkı simasının müəyyənləşməsində mühüm rol oynamış, bu gün də bilik və bacarıqlarını dinamik inkişaf yolunda inamla irəliləyən respublikamızın iqtisadi, mədəni və elmi potensialının artırılmasına sərf edirlər. Yüksək ictimai mövqe və nüfuzları Azərbaycan qadınlarının hüquq və azadlıqlarının tam təmin edilməsinin nəticəsi olub, müasir həyatımızın ən əlamətdar hadisələrindəndir.

Əminəm ki, siz Azərbaycan xanımları ailə dəyərlərimizin bundan sonra da layiqincə yaşadılmasına çalışacaq, gənc nəslin Vətənə, torpağa məhəbbət, müstəqil dövlətçiliyə və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək, ölkəmizin davamlı yüksəlişi naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2019-cu il*

# İLHAM ƏLİYEV verdiyi tapşırıqların icrasına şəxsən nəzarət edir

## Prezident zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlərlə yerində tanış olmaq üçün növbəti dəfə bölgəyə səfər etdi













*Əvvəli 1-ci səh.*

Bundan sonra hər 3 rayonda dərhal tikinti və təmir işlərinə başlanmışdı.

Dövlət başçısı Ağsuda zəlzələ nəticəsində zərər çəkən evlərin yerində yenidən tikilməkdə olan evlərlə tanış oldu. Prezident İlham Əliyev Xasayev küçəsinin sakini Gülarə Hökmrəvanın ailəsi üçün tikilməkdə olan yeni evə baxdı, ev sahibinin oğlu Tahir Hökmrəvanla söhbət etdi.

Burada fövqəladə hallar naziri Kəmaləddin Heydərov dövlət başçısına zəlzələ zonasında görülən işlər barədə məlumat verdi. Bildirildi ki, yaradılmış komissiyalar tərəfindən əhalinin müraciətlərinə əsasən indiyədək Şamaxıda 4893, Ağsuda 1461, İsmayıllıda 919 evə baxış keçirilib. Müəyyən olunub ki, Şamaxıda 244, Ağsuda 150, İsmayıllıda 97 ev kəskin qəzalıdır. Şamaxıda 1111, Ağsuda 265, İsmayıllıda 262 evin bərpa-gücləndirməsinə ehtiyac var. Şamaxıda 1800, Ağsuda 1022, İsmayıllıda 354 evin isə təmirə ehtiyacı var. Bütövlükdə bu rayonlarda 88 ev sökülməyə



hazırlanıb, 65 ev sökülüb və sökülməyə başlanıb, həmçinin 38 evin tikintisi aparılır.

Prezident İlham Əliyev tikinti-bərpa işlərinin sürətlə və keyfiyyətlə davam etdirilməsi ilə bağlı tapşırıqlarını verdi.

Sonra dövlət başçısı Firdovsi küçəsində Həcər Zamanovanın ailəsi üçün inşa edilən yeni evdə görülən işlərlə tanış oldu. Məlumat verildi ki, dağılmış evin yerində tikilən yeni ev 3 otaqdan ibarət olacaq. Burada normal yaşayış üçün hərtərəfli şərait yaradılacaq.

Prezident İlham Əliyev Ağsu şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi.

Daha sonra Prezident İlham Əliyev rayon sakinləri ilə görüşdü, onlarla söhbət etdi. Dövlət başçısı Ağsu sakinlərinin ərizələrini qəbul etdi. Görüşdə zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlər barədə danışıldı, dövlət başçısı sakinləri narahat edən məsələləri dinlədi. Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

# "İlk səfər" ənənəsi dəyişmədi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Türkiyə Böyük Millət Məclisinin sədri seçilməsi münasibətilə Mustafa Şentopu təbrik etdi və onun bu statusda ilk səfərini Azərbaycana etməsinin məmnunluq doğurduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan və Türkiyə arasında ilk yüksək səviyyəli səfərlərin qarşılıqlı şəkildə həyata keçirilməsi adət-ənənə xarakteri daşıyır və bu, iki ölkənin qardaşlığının və dostluğunun bariz nümunəsidir. Dövlətimizin başçısı bu baxımdan keçən il Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilən paradda Azərbaycan və Türkiyə hərbçilərinin çiyin-çiyinə birgə yürüşünü xatırlatdı. Azərbaycan ilə Türkiyə arasında tərəfdaşlığın bu gün yüksək səviyyədə olduğunu və uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev ölkələrimizin üçtərəfli və dördtərəfli regional formatlarda da əməkdaşlığını vurğuladı. Dövlətimizin başçısı Azərbaycan və Türkiyənin birgə səylərlə həyata keçirdiyi önəmli regional təşəbbüsləri, o cümlədən artıq istismara verilmiş TANAP, "STAR" neft emalı zavodu kimi irimiqyaslı layihələri qeyd etdi. Prezident İlham Əliyev, həmçinin Azərbaycan və Türkiyənin bütün məsələlərdə bir-birini dəstəklədiyini, beynəlxalq təşkilatlarda, o cümlədən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində sıx əməkdaşlıq etdiyini nəzərə çatdırdı.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop bu vəzifəyə seçilməsindən sonra ilk səfərini Azərbaycana etməsindən şərəf duyduğunu bildirdi və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın iki ölkənin olmadığını deyərək əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. O da öz növbəsində, TANAP, TAP və "STAR" neft emalı zavodu kimi irimiqyaslı layihələrin ölkələrimizi daha da yaxınlaşdırdığını vurğuladı. Mustafa Şentop Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin daim Azərbaycanın yanında olduğunu, beynəlxalq hüququ və ədaləti dəstəklədiyini dedi. O, bu il Azərbaycanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə toplantısına evsahibliyi edəcəyini bildirərək ölkələrimizin Türk Şurası, TürkPA, TÜRKSOY, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və digər təsisatlarda uğurla əməkdaşlıq etdiyini vurğuladı.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

# Azərbaycan münaqişənin tezliklə ədalətli həllində ən maraqlı tərəfdir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Toivo Klaar Avropa İttifaqının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə müsbət töhfə verməkdə çox maraqlı olduğunu ifadə etdi.

Prezident İlham Əliyev Avropa İttifaqı Komissiyasının rəhbərliyi və bir sıra komissarlarının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq əsasında həll edilməsi, mövcud status-kvonun qeyri-dayanıqlı olması, danışıqların mövcud format əsasında davam etdirilməsi və danışıqlara qeyd-şərt qoyulmasının qəbuledilməzliyi barədə ictimai açıqlamalarının məmnunluq doğurduğunu və Azərbaycanın bunu dəstəklədiyini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və danışıqların formatı dəyişdirilə bilməz. Azərbaycanın münaqişənin tezliklə ədalətli həllində ən maraqlı tərəf olduğunu deyən Prezident İlham Əliyev işğal olunmuş ərazilərin azad edilməsinin danışıqlar prosesinin həmişə vacib komponenti olduğunu vurğuladı. Dövlətimizin başçısı Ermənistan tərəfindən verilən ziddiyyətli rəsmi açıqlamaların qəbuledilməz olduğunu və danışıqlar prosesinə əngəl yaratdığını qeyd edərək beynəlxalq ictimaiyyətin bunu ciddi şəkildə nəzərə almasının və Ermənistana ünvanlı bəyanatların çatdırılmasının vacibliyini qeyd etdi.

Görüşdə, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafı və ölkəmizin Şərq Tərəfdaşlığı Proqramında iştirakına dair geniş fikir mübadiləsi aparıldı.

# F.S.Qurbanovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında elmi əlaqələrin inkişafında xidmətlərinə və səmərəli diaspor fəaliyyətinə görə Fazil Səməd oğlu Qurbanov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2019-cu il*

# Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Tovuz rayonunda Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi binasının tikintisi işlərinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 3 160 000 (üç milyon yüz altmış min) manatı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2019-cu il*

# "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 46; 2018, № 7, maddə 1492) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin strukturu"nda, "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi"ndə və "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2019-cu il*

# Azərbaycan qadınlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Ömərova Mömünət Məhəmməd qızı

**"Tərəqqi" medalı ilə**

Bağırova Tamella Sulduz qızı
Eminova Səadət Seyfulla qızı
Əhmədova Aytən Nadir qızı
Əhmədova Dilarə Qurban qızı
Əkbərova Mehrəngiz Ağabala qızı
Ələsgərova Səadət Məhəmməd qızı
Əliyeva Xuraman Eynulla qızı
İsgəndərova Xuraman Firqən qızı
Qafarova Rəqiyə Savalan qızı
Qaybalıyeva Fəridə Kamil qızı
Quliyeva Nuranə Aslan qızı
Quliyeva Raya Səlim qızı
Məmmədova Aynur Tofiq qızı
Məmmədova Fizzə Sadıx qızı
Məmmədova Humayə Muxtar qızı
Nurməmmədova Mədinə Əlişah qızı
Tağı Zadə Təranə Qadir qızı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2019-cu il*

# Azərbaycan qadınlarına fəxri adların verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında təhsil və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar müəllim"**

Namazova Sevda Nadir qızı
Rüstəmova Məlahət Oruc qızı
Salmanova Larisa Parfenevna

**"Əməkdar həkim"**

Mirzəyeva Xatirə Əbdülrəhim qızı

**"Əməkdar mədəniyyət işçisi"**

Ələkbərova Nüşabə Nazir qızı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2019-cu il*

# Yataqxanada yanğın nəticəsində yararsız hala düşən mənzillərin sakinlərinə müvəqqəti yaşayış yerləri ayrılıb

Martın 5-də Bakının Nərimanov rayonunda yerləşən məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı yataqxanada baş verən yanğınla əlaqədar hökumət rəsmiləri hadisə yerində olub, həlak olanların ailə üzvlərinə başsağlığı veriblər.

AZƏRTAC xəbər verir ki, yanğın zamanı həyatlarını itirən şəxslərin dəfni və hüzr mərasiminin keçirilməsi dövlət tərəfindən təşkil edilib. Zərərçəkənlərlə görüşən Baş nazirin müavini Əli Əhmədov bildirib ki, tamamilə yararsız hala düşən mənzillərin sakinlərinə müvəqqəti yaşayış yerləri ayrılıb. Yataqxanada məskunlaşan məcburi köçkünlərin qısa müddətdə yeni mənzillərlə təmin olunması nəzərdə tutulur.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin yaydığı məlumatda qeyd edilir ki, artıq siyahıyaalma aparılıb. Yataqxananın üçüncü mərtəbəsində Səriyyə Hacıyevaya məxsus otaqda baş vermiş yanğının zəhərli təsirindən xəsarət alan 8 nəfər dərhal xəstəxanaya aparılıb. Hadisə nəticəsində Laçın rayonundan məcburi köçkün Eliza Əliyeva və Surxay Əliyev həyatını itirib. Yanğının başvermə səbəbləri Fövqəladə Hallar Nazirliyi və prokurorluq orqanları tərəfindən araşdırılır, dəymiş ziyan müəyyənləşdirilir. Araşdırmadan sonra yekun rəy veriləcək və müvafiq hüquqi addımlar atılacaq.

# Azərbaycan ilə Türkiyə arasındakı münasibətlər dünya üçün çox gözəl nümunədir



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov martın 6-da Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Mustafa Şentopu Türkiyə Böyük Millət Məclisinin Sədri seçilməsi münasibətilə təbrik edən Baş nazir Novruz Məmmədov onun parlament Sədri kimi ilk səfərini Azərbaycana etməsinin yüksək qiymətləndirildiyini vurğulayıb. Baş nazir bu səfərin qardaş ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

"Bu gün Azərbaycan-Türkiyə münasibətləri çox yüksək səviyyədədir. Qardaş ölkələrimiz arasındakı münasibətlər dünya üçün çox gözəl nümunədir. Azərbaycan və Türkiyə arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələri inkişaf etdirilərək həm ikitərəfli, həm də çoxtərəfli formatda böyük uğurlar əldə olunub. Bu əməkdaşlıq bizim ölkələrimizin, xalqlarımızın maraqlarına xidmət etməklə yanaşı, regionun inkişafına da mühüm töhfələr verir", - deyə Novruz Məmmədov qeyd edib.

Baş nazir Azərbaycanın və Türkiyənin nəqliyyat və energetika sahələrində birgə reallaşdırdıqları layihələrin ölkələrimiz arasındakı strateji tərəfdaşlıq əlaqələrinin inkişafına təkan verdiyini bildirib.

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop iki dövlət arasında yeni vəzifəyə başlayan rəsmilərin ilk səfərlərini qardaş ölkəyə etmələrinin artıq bir ənənəyə çevrildiyini bildirərək Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan Mustafa Şentop bildirib ki, ölkələrimiz tərəfindən həyata keçirilən qlobal əhəmiyyətli layihələr, o cümlədən "STAR" neft emalı zavodunun, Transanadolu qaz kəmərinin istifadəyə verilməsi bu gün dünyada bənzəri olmayan Azərbaycan-Türkiyə münasibətlərinin göstəricisidir.

Parlament sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin həmişə Azərbaycanın yanında olduğunu, qardaş dəstəyinin daim davam etdiriləcəyini vurğulayıb.

Söhbət zamanı ölkələrimizin parlamentləri arasındakı əməkdaşlıqdan məmnunluq ifadə olunub, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Prezidentlər arasındakı qardaşlıq münasibəti Azərbaycan-Türkiyə əlaqələrini daha da möhkəmləndirir



Martın 6-da Milli Məclisin Sədri Oqtay Əsədov Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdü.

Türkiyə Böyük Millət Məclisinin Sədri seçilməsi münasibətilə Mustafa Şentopu təbrik edən Oqtay Əsədov həmkarına gələcək fəaliyyətində uğurlar arzuladı. Sədr həmçinin TBMM-in xarici əlaqələr komissiyasının Xocalı soyqırımı ilə bağlı bəyanat yaymasını yüksək qiymətləndirdi və buna görə minnətdarlığını ifadə etdi.

Oqtay Əsədov qeyd etdi ki, Türkiyə və Azərbaycan arasında yüksək strateji tərəfdaşlıq mövcuddur. Bu əlaqələrin inkişafında iki ölkənin Prezidentləri arasındakı qardaşlıq münasibəti də xüsusi rol oynayır. Bildirildi ki, indiyədək dövlətlərimiz arasında 230 sənəd imzalanıb, 30-u isə baxılmaq üzrədir.

İqtisadi əlaqələrdən söhbət açan Milli Məcisin Sədri Azərbaycanın Türkiyənin əsas investorlarından biri olduğunu vurğuladı. Qeyd olundu ki, iki ölkə arasında 2018-ci il üzrə ticarət dövriyyəsinin həcmi 3 milyard 500 min dollar olub, ancaq bu rəqəmin 10 milyarda yüksəldilməsi hədəflənir.

Görüşdə Azərbaycanın regionda həyata keçirdiyi enerji layihələri haqqında da söz açıldı.

Dövlətlərarası əlaqələrin inkişafında parlamentlərin roluna diqqət çəkən Oqtay Əsədov hər iki ölkə parlamentarilərinin beynəlxalq təşkilatlarda da həmişə eyni platformadan çıxış etdiyini söylədi.

TBMM Sədri Mustafa Şentop isə bu vəzifəyə seçilməsindən sonra ilk səfərini Azərbaycana etməsindən məmnun olduğunu bildirdi və bunun artıq siyasi ənənəyə çevrildiyini dedi.

Mustafa Şentop dövlətlərimiz arasında beynəlxalq platformada işbirliyinin daha da gücləndirilməsini arzuladı. Qeyd etdi ki, Azərbaycan Türkiyə üçün regionda ən mühüm strateji tərəfdaşdır və Türkiyə də hər zaman çalışır ki, beynəlxalq məsələlərdə Azərbaycanla birgə ortaq maraqları qorusun.

Sonda ölkələr arasındakı münasibətlərin iki xalqın rifahı naminə daha da inkişaf etdirilməsi arzulandı.

***Fərizə ƏHMƏDOVA,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

# Türkiyə Böyük Millət Məclisi Sədrinin başçılıq etdiyi nümayəndə heyəti TürkPA katibliyində olub

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyəti və Azərbaycan Milli Məclisinin Sədri Oqtay Əsədov martın 6-da Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) katibliyinin inzibati binasında olublar.



AZƏRTAC xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopa katibliyin fəaliyyəti və binada yaradılan şəraitlə bağlı ətraflı məlumat verilib. Qeyd edilib ki, fəaliyyətini ildən-ilə genişləndirən, beynəlxalq əlaqələrini gücləndirən TürkPA-nın katibliyinin inzibati binasında bütün lazımi şərait yaradılıb.

Türkiyə parlamentinin sədri TürkPA-nın fəaliyyətini əks etdirən fotosərgi ilə tanış olub, həmçinin burada yerləşən kitabxanadakı eksponatlara baxıb. Mustafa Şentop TürkPA katibliyinin inzibati binasının həyətində dostluq və qardaşlıq rəmzi olan həmişəyaşıl ağac əkib.

Sonra keçirilən görüşdə təşkilatın fəaliyyəti barədə fikir mübadiləsi aparılıb, Azərbaycanın quruma verdiyi töhfələr yüksək qiymətləndirilib. Bildirilib ki, TürkPA-nın fəaliyyəti türk xalqlarının ümumi məqsədlərinə xidmət edir.

# Türkiyə Böyük Millət Məclisinin Sədri Azərbaycana səfərə gəlib



Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyəti martın 6-da Azərbaycan Respublikasına səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Türkiyə parlamentinin sədrinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Heydər Əliyev Beynəlxalq Aeroportunda Mustafa Şentopu Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov qarşılayıb. Jurnalistlərə müsahibəsində Mustafa Şentop qeyd edib ki, Türkiyə Böyük Millət Məclisinin Sədri seçildikdən sonra ilk səfərini dost və qardaş Azərbaycana edir.

Səfər çərçivəsində bir sıra yüksək səviyyəli görüşlər keçirəcəyini qeyd edən parlament sədri deyib: "Azərbaycan və Türkiyə əlaqələri "Bir millət, iki dövlət" şüarı ilə bütün sahələrdə sürətlə genişlənir. Ölkələrimiz həm regional, həm də beynəlxalq qurumlarda sıx əməkdaşlıq edir. Bu səfərin ölkələrimiz, o cümlədən parlamentlərimiz arasındakı münasibətlərin daha da inkişafına töhfə verəcəyinə inanıram".

# Türkiyə Böyük Millət Məclisinin Sədri ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib







Azərbaycanda səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop martın 6-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaq ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Mustafa Şentopa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Türkiyə parlamentinin sədri, həmçinin Şəhidlər xiyabanında qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoyub. Şəhidlik kitabəsinin üstünə gül dəstələri düzən Mustafa Şentop xatirə kitabına ürək sözlərini yazıb.

# Bakıda "İqtisadiyyatın şaxələndirilməsi - özəl sektorun rolu üzrə yüksək səviyyəli forum" keçirilib

Martın 6-da Bakıda "İqtisadiyyatın şaxələndirilməsi - özəl sektorun rolu üzrə yüksək səviyyəli forum" keçirilib.







AZƏRTAC xəbər verir ki, forumda çıxış edən Baş nazirin müavini Əli Əhmədov Azərbaycanda aparılan iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, keçən il Azərbaycan iqtisadiyyatında 1,4 dəfə artım qeydə alınıb. Qeyri-neft sektorunda 2 faizdən çox, kənd təsərrüfatında isə 3 faizdən artıq iqtisadi artım Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, aparılan islahatların nəticəsi kimi qiymətləndirilir.

Baş nazirin müavini qeyd edib ki, hər il Azərbaycanın əmək bazarına 100 min işçi qüvvəsi daxil olur. Bir neçə il sonra isə 120 minədək işçi qüvvəsi daxil olacaq. Bu, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində kiçik və orta sahibkarlığın inkişafı nəticəsində baş verəcək.

Ə.Əhmədov Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb və "Doing Business 2019" hesabatında Azərbaycanın 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasına daxil edildiyini vurğulayıb.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova Azərbaycanın əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar sırasında Dünya Bankının xüsusi yeri olduğunu deyib. Bildirib ki, indiyədək Azərbaycanda həyata keçirilən layihələrə Dünya Bankından 4 milyard dollardan çox vəsait cəlb olunub. 1990-cı ildən bu vaxtadək Dünya Bankı ilə 50-dən çox layihə icra edilib.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon Azərbaycanda aparılan iqtisadi islahatların Dünya Bankı tərəfindən dəstəkləndiyini, ölkə rəhbərliyinin uğurlu sosial-iqtisadi siyasəti nəticəsində əldə olunan nailiyyətlərin yüksək qiymətləndirildiyini və Azərbaycanın digər ölkələr üçün örnək olduğunu qeyd edib.

M.Tembon ölkəmizdə həssas qrupların rifah halının yaxşılaşdırılması sahəsində atılan addımların təqdirəlayiq olduğunu deyib. O, Azərbaycanda sosial sahədə həyata keçirilən köklü islahatları yüksək qiymətləndirdiklərini, ölkəmizdə əmək, məşğulluq, sosial müdafiə sahəsində aparılan islahatların mühüm əhəmiyyət kəsb etdiyini, bu islahatlar prosesində Dünya Bankı ilə birgə işlərin gələcəkdə də uğurla davam edəcəyinə əminliyini bildirib.

"Rəqəmsal ödənişlərin artırılması və nağdsız cəmiyyətə gedən yol" mövzusunda təqdimatla çıxış edən Mərkəzi Bankın ödəniş sistemləri və hesablaşmalar departamentinin direktoru Kəmalə Qurbanovanın sözlərinə görə, qarşıdakı 5 ildə Azərbaycanda nağdsız ödənişlərin 52 milyard manatadək artacağı nəzərdə tutulur. O qeyd edib ki, eyni zamanda, nağd iqtisadiyyatın çəkisinin 34 faiz azaldılması planlaşdırılır. Son 3 ildə milli ödəniş sistemi üzrə aparılan dövriyyə 79 faiz artaraq 274 milyard manat olub. Həmin dövrdə kart ödənişlərində nağdsız dövriyyə isə 136 faiz artaraq 2,8 milyard manata çatıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov agentliyin fəaliyyəti, görülən işlər barədə məlumatlandırıcı təqdimat edərək bildirib ki, "KOB Dostu" şəbəkəsinin, sahibkarların dövlət xidmətlərinə rahat çıxışının təmin edilməsi, KOBİA-nın çoxsaylı dəstəklərinin, biznesdən-biznesə xidmətlərin vahid məkanda təşkili ilə bağlı KOB evlərinin təşkili istiqamətində aktiv iş aparılır.

"Hazırda 12 "KOB Dostu" fəaliyyət göstərir, bu il Bakıda ilk KOB evi fəaliyyətə başlayacaq. Agentliyin fəaliyyətinin mühüm istiqamətlərindən biri də müvafiq sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi və bu prosesdə KOBİA olaraq KOB maraqları baxımından çıxış etməkdir. Agentliyin təklifləri əsasında "Kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanun layihəsi hazırlanıb, Vergi Məcəlləsinə KOB-lar üçün bir sıra yeni güzəştləri nəzərdə tutan dəyişikliklər edilib, KOB-ların müəyyənləşdirilməsi üçün yeni meyarlar təsdiqlənib, kommunal xidmətlərə qoşulma prosedurları sadələşdirilib, dövlət satınalmaları haqqında qanunvericiliyə mütərəqqi dəyişikliklər olunub", - deyə O.Məmmədov vurğulayıb.

Sonra Dünya Bankının nümayəndələri dünya iqtisadiyyatının bəzi sahələri və bu sahələrdə Azərbaycanın tutduğu mövqe barədə təqdimatlarla çıxış edib.

Forum öz işini panel iclasla davam etdirib. İclasda Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov Dünya Bankı ilə uzun illər ərzində həyata keçirilən səmərəli əməkdaşlıq məsələlərini önə çəkərək bildirib ki, bank 25 ildən artıq müddətdə ölkəmizdə iqtisadi islahatların uğurla aparılmasına, xüsusilə infrastruktur quruculuğu, aqrar inkişaf və inzibati idarəetmənin təkmilləşməsinə mühüm töhfə verib.

E.Rüstəmov dayanıqlı iqtisadi artıma nail olmaqda makroqitisadi sabitliyin rolu, bütövlükdə makroiqtisadi siyasətdə son meyillər, xüsusilə də pul siyasəti sahəsində islahatlara toxunaraq qeyd edib ki, ötən dörddəbir əsrə yaxın bir dövrdə Azərbaycanda dövlət və iqtisadi quruculuq sahəsində görülmüş işlər, yaradılmış milli potensial onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin rəhbərliyi altında yeni strateji dövrün çağırışlarına da layiqli cavab veriləcək.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycanda qeyri-formal məşğulluqla mübarizənin müsbət nəticələri barədə məlumat verib.

"Bu ilin yanvar-fevral aylarında əmək müqavilələrinin sayı 53 min artıb. Qeyri-formal məşğulluqla mübarizə tədbirləri və görülən çoxşaxəli işlər nəticəsində ötən il əmək müqavilələrinin sayı 90 mini ötüb. Bu ilin ilk iki ayında isə əmək müqavilələrinin sayı 53 min artıb. Bu müqavilələrin 13 mini dövlət, 40 mini isə özəl sektorun payına düşür", - deyə nazir vurğulayıb.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov isə bildirib ki, Azərbaycanda iqtisadi inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən müəyyən edilib. Ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafı, rəqabətqabiliyyətliliyin artırılması, dərin iqtisadi şaxələndirmə, sənayeləşmənin genişləndirilməsi, sahibkarlığın inkişafı, bunun üçün institusional dəstək mexanizmlərinin təkmilləşdirilməsi və genişləndirilməsi, Azərbaycan iqtisadiyyatının ixrac potensialının artırılması, sənaye sahəsində məşğulluğun genişləndirilməsi barədə danışan nazir müavini gələcəkdə görüləcək işləri qeyd edib.

"Ölkə başçısı tərəfindən qəbul edilən strateji sənədlərin, strateji yol xəritələrinin, dövlət proqramlarının, fərman və sərəncamların icrası istiqamətində sistemli işlər həyata keçirilib, kompleks tədbirlər görülüb, gələcəyə inkişaf üçün baza yaradan nailiyyətlər əldə olunub. Sahibkarlıq sahəsində dövlət tənzimlənməsinin, dövlət nəzarət sisteminin təkmilləşdirilməsi istiqamətində atılan addımlar bir daha nəzərdən keçirilib", - deyə N.Səfərov vurğulayıb.

Azərbaycanda yaradılan sənaye məhəlləri və sənaye parkları barədə məlumat verən N.Səfərov deyib ki, Azərbaycanda 5 sənaye parkı, 4 sənaye məhəlləsi var. Təkcə Sumqayıt Kimya Sənaye Parkında 3 milyard dollar həcmində investisiya yatırılıb və burada yerləşən müəssisələrdə 6 minədək insan çalışır.

Forumda iqtisadiyyatın şaxələndirilməsi, əsasən də özəl sektorun bu prosesdəki rolu barədə müzakirələr aparılıb.

# İranda Qəzvin-Rəşt dəmir yolunun açılışı olub

## Tədbirdə Azərbaycan nümayəndə heyəti iştirak edib







Martın 6-da İranda Qəzvin-Rəşt dəmir yolu xəttinin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə İran İslam Respublikasının Prezidenti Həsən Ruhani, Azərbaycanın iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, İranın yollar və şəhərsalma naziri Məhəmməd İslami, Gilan valisi Mustafa Salari iştirak ediblər.

Qəzvin-Rəşt dəmir yolunun uzunluğu 164 kilometrdir. Dəmir yolu xətti üzrə körpülər, tunellər və digər qurğular inşa olunub.

Açılış mərasimində çıxış edən İran İslam Respublikasının Prezidenti Həsən Ruhani "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nin inkişaf etdirilməsinin hər iki ölkənin dövlət başçılarının daim diqqətində olduğunu vurğulayıb və bu dəhlizin tərkib hissəsi olan Qəzvin-Rəşt dəmir yolunun önəmini qeyd edib. İran Prezidenti bildirib ki, Qəzvin-Rəşt dəmir yolu yalnız İranın və Azərbaycanın deyil, eyni zamanda, Rusiya və Şimali Avropa ölkələrinin də dəmir yolları sistemlərini birləşdirəcək.

İqtisadiyyat naziri Şahin Mustafayev qarşılıqlı hörmət, dostluq prinsiplərinə və İslam irsinə əsaslanan Azərbaycan-İran əlaqələrinin son illər sürətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib. Vurğulayıb ki, Azərbaycan və İran prezidentlərinin tapşırıqları ilə ölkələrimiz arasında əməkdaşlığın yeni hədəfləri müəyyənləşdirilib və bu istiqamətdə müvafiq işlər görülərək bir çox nailiyyətlər əldə olunub.

Qarşıya qoyulmuş hədəflərdən biri də iki ölkə arasında nəqliyyat-tranzit sahəsindəki əməkdaşlığı daha da genişləndirmək, böyük əhəmiyyətə malik "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi" layihəsinin həyata keçirilməsini təmin etməkdir. Son illər bu istiqamətdə önəmli işlər görülüb: "Belə ki, hüquqi bazanın formalaşdırılması məqsədilə 2016-cı ildə Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında Hökumətlərarası Çərçivə Sazişi, "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nin reallaşdırılması sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası Niyyət Protokolu imzalanıb".

Nazir qeyd edib ki, Azərbaycan bu layihə üzrə öz ərazisində müvafiq infrastrukturun yaradılması işini uğurla tamamlayıb, eyni zamanda, İran ərazisində bu istiqamətdə görülən işlərə öz dəstəyini verir. Astara-Astara dəmir yolunun tikintisi, Astaraçay çayı üzərində dəmir yolu körpüsünün inşası, Astarada (İran) tikintisi davam edən yük terminalı və məhsul anbarları "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi" layihəsi çərçivəsində həyata keçirilən işlərin mühüm tərkib hissələridir.

"Bu gün açılışı həyata keçirilən Qəzvin-Rəşt dəmir yolunun tikintisi də bu sahədə görülən uğurlu işlərin nəticələrindəndir. Qəzvin-Rəşt dəmir yolunun fəaliyyətə başlaması təkcə Şimal-Cənub deyil, eyni zamanda, "Cənub-Qərb nəqliyyat dəhlizi"nin inkişafı istiqamətində atılmış çox mühüm addımdır. Bütün bunlar daşınan yüklərin həcminin artırılmasını təmin etməklə Azərbaycan Respublikasının və İran İslam Respublikasının nəqliyyat-tranzit və ticarət-iqtisadi potensialının gücləndirilməsinə böyük töhfə verəcək", - deyə Ş.Mustafayev əlavə edib.

İranın yollar və şəhərsalma naziri Məhəmməd İslami və Gilan valisi Mustafa Salari "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nin inkişafında önəmli rol oynayan Qəzvin-Rəşt dəmir yolunun açılışının iqtisadi-ticarət əlaqələrinin inkişafında, yükdaşımalar sahəsində əməkdaşlığın genişləndirilməsində mühüm əhəmiyyətini vurğulayıblar.

# İran Prezidenti Azərbaycan nümayəndə heyətini qəbul edib

Martın 6-da Rəşt şəhərində İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Qəzvin-Rəşt dəmir yolunun açılışı mərasimində iştirak edən Azərbaycanın nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, İran Prezidenti salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırmağı xahiş edib.

Azərbaycan nümayəndə heyətini açılış mərasimində görməkdən məmnunluğunu bildirən Prezident Həsən Ruhani vurğulayıb ki, hər iki ölkənin siyasi rəhbərliyinin iradəsi ilə rəsmi Tehran və Bakı arasındakı münasibətlər özünün yeni inkişaf mərhələsini yaşayır. Deyib ki, "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi" çərçivəsində Qəzvin-Rəşt dəmir yolunun Astara şəhərinə qədər çəkilməsi İranın və Azərbaycanın milli maraqlarını əks etdirir. Qarşılıqlı faydalı əməkdaşlıq nəticəsində Rəşt-Astara dəmir yolu da tikilərək istifadəyə veriləcək.

İran Prezidenti iki ölkə arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin vacibliyini, nəqliyyat, maşınqayırma, əczaçılıq və digər sahələrdə əməkdaşlığın uğurla davam etdiyini bildirib.

Həsən Ruhani qeyd edib ki, qarşılıqlı faydalı əməkdaşlıq ölkələrimiz arasındakı iqtisadi əlaqələri daha da möhkəmləndirəcək və xalqların rifah halının daha da yaxşılaşmasına xidmət edəcək.

Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev səmimi qəbula görə təşəkkürünü bildirib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını İran Prezidentinə çatdırıb. Ş.Mustafayev Azərbaycan və İran prezidentlərinin siyasi iradəsi və dostluq münasibətlərinin əməkdaşlığın inkişafı üçün möhkəm zəmin yaratdığını, son illərdə dövlət başçılarının intensiv olaraq keçirilən yüksəksəviyyəli görüşlərinin iqtisadi-ticarət əlaqələrinin genişlənməsində mühüm əhəmiyyətini vurğulayıb.

Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun çəkilməsinə xüsusi önəm verdiyini və bu məsələni daim diqqətdə saxladığını vurğulayıb. Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan nümayəndə heyətinin Qəzvin-Rəşt dəmir yolunun istifadəyə verilməsi mərasimində iştirakı da ölkəmizin "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nə verdiyi böyük önəmin təzahürüdür. Rəşt-Astara dəmir yolu beynəlxalq dəhlizin əsas tərkib hissələrindəndir və bu layihə üzərində Azərbaycanla İranın birgə fəaliyyəti ölkələrimiz arasındakı dostluğun göstəricisidir.

Qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsinin aparıldığı görüşdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov iştirak ediblər.

# Son 5 ildə Azərbaycan və İran prezidentləri 12 dəfə görüşüblər

## İki ölkə arasındakı ticarət dövriyyəsi 74 faiz artaraq 446 milyon dollara çatıb

Azərbaycan nümayəndə heyəti İranda səfərdə olub. İqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti səfər çərçivəsində bir sıra görüşlər keçirib.

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, görüşlərdə Prezident İlham Əliyev və İran Prezidenti Həsən Ruhani arasında qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətlərin ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə genişləndirilməsində mühüm rolu vurğulanıb.

İranın yollar və şəhərsalma naziri Məhəmməd Eslaminin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə Azərbaycan-İran əlaqələrindən danışan nazir Şahin Mustafayev son illərdə ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndiyini vurğulayıb. Təkcə son 5 ildə Azərbaycan və İranın dövlət başçıları arasında 12 görüş olub, nümayəndə heyətlərinin 100-dən çox qarşılıqlı səfərləri həyata keçirilib, 24 biznes forum və işgüzar görüş keçirilib. İndiyədək ölkələrimiz arasında 150-dən çox sənəd imzalanıb. Azərbaycanda sənaye, tikinti, xidmət, rabitə, ticarət, nəqliyyat, kənd təsərrüfatı və s. sahələrdə 1000-dən çox İran şirkəti qeydiyyatdan keçib. İran tərəfindən Azərbaycan iqtisadiyyatına 3,4 milyard dollar investisiya yatırılıb.

İqtisadiyyat naziri Şahin Mustafayev ölkələrimizin sənaye, energetika, kənd təsərrüfatı, ticarət, səhiyyə, turizm, sərhəd-gömrük və digər sahələrlə yanaşı, nəqliyyat-tranzit sahəsində də uğurla əməkdaşlıq etdiyini, "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nin inkişafında hər iki ölkənin rolunu vurğulayıb, nəqliyyat dəhlizinin inkişafının Azərbaycan-İran iqtisadi əməkdaşlığının, xüsusilə yükdaşımalar, ticarət və turizm əlaqələrinin genişlənməsinə müsbət təsir göstərəcəyini qeyd edib.

İranın yollar və şəhərsalma naziri Məhəmməd Eslamin ölkəsinin Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verdiyini, Azərbaycan-İran əlaqələrinin inkişafı istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini qeyd edib.

Görüşdə Azərbaycan və İran arasında nəqliyyat-tranzit sahəsində əlaqələrin genişləndirilməsi müzakirə edilib.

Səfər çərçivəsində Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İranın iqtisadi işlər və maliyyə naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Fərhad Dejpəsənd ilə görüşüb.

İqtisadiyyat naziri Azərbaycanın İranla əlaqələrin genişlənməsində maraqlı olduğunu, son illərdə əməkdaşlığın yüksək səviyyəyə çatdığını qeyd edib. Hər iki ölkənin dövlət başçısının İran-Azərbaycan əlaqələrinin inkişafına böyük önəm verdiyini və dövlət komissiyasının işinə dəstək göstərdiyini vurğulayıb.

İki ölkə arasında iqtisadi-ticarət əlaqələri barədə məlumat verən Şahin Mustafayev qeyd edib ki, ötən dövrdə ticarət əlaqələrinin inkişaf etdirilməsi istiqamətində davamlı tədbirlər görülüb, ticarət dövriyyəsi 2018-ci ildə 74 faiz artaraq 446 milyon dollara çatıb. Azərbaycan və İran birgə layihələri çərçivəsində Neftçala Sənaye Məhəlləsində avtomobil istehsalı başlanılıb. Bakıda Azərbaycan-İran klinikası açılıb, Pirallahı Sənaye Parkında birgə əczaçılıq zavodunun təməli qoyulub.

Şahin Mustafayev qarşılıqlı ticarət həcminin daha da artırılması və strukturunun diversifikasiyası üçün potensialı, kənd təsərrüfatı, turizm, tranzit və yükdaşımalar sahələrində də əlaqələrin inkişafı imkanlarını qeyd edib.

İranın iqtisadi işlər və maliyyə naziri, Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Fərhad Dejpəsənd son illərdə əməkdaşlığın genişlənməsi üçün görülən işləri vurğulayıb, bu ilin martında Bakıda keçirilməsi planlaşdırılan dövlət komissiyasının 13-cü iclasının iqtisadi əlaqələrin inkişafı istiqamətlərinin müzakirəsi üçün əhəmiyyətli platforma olacağını qeyd edib.

Görüşdə iqtisadi-ticarət, maliyyə və digər sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri üzrə fikir mübadiləsi aparılıb.

Dünən həmçinin nümayəndə heyəti İranın enerji naziri Reza Erdekanian ilə görüşüb. Nazir Şahin Mustafayev Azərbaycan və İran arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu, əməkdaşlığın genişlənməsində Azərbaycan və İran prezidentlərinin siyasi iradəsinin əhəmiyyətini vurğulayıb.

Qeyd edilib ki, Azərbaycan və İran energetika sahəsində də uğurla əməkdaşlıq edirlər. Ölkələrimiz arasında "Xudafərin/Qız Qalası" və "Ordubad/Marazad" hidroqovşaqlarına dair sazişlər imzalanıb. Bu layihələrin tikintisi və istismarı üzrə Birgə Texniki Komissiya yaradılıb. Bundan başqa, 330 kv-luq Muğan (İmişli-Parsabad) elektrik xətti çəkilib. Azərbaycandan İrana elektrik satışı üzrə Çərçivə Sazişi imzalanıb. 2018-ci ildə İranın enerjinin istehsalı, ötürülməsi və paylanması üzrə şirkəti "TAVANİR" ilə "Azərenerji" ASC arasında elektrik enerjisinin alqı-satqısı üzrə müqavilənin imzalanması elektroenergetika sahəsində əməkdaşlığa töhfə verir.

İqtisadiyyat naziri bildirib ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının bu ilin martında Bakıda keçiriləcək 13-cü iclasında digər sahələrlə yanaşı, enerji sahəsində də əməkdaşlığın inkişafı məsələsi müzakirə olunacaq.

İranın enerji naziri Reza Erdekanian ölkəsinin digər sahələrdə olduğu kimi, energetika sahəsində də Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu, həyata keçirilən layihələrin həm İranın, həm də Azərbaycanın enerji sistemlərinin inkişafında əhəmiyyətini vurğulayıb.

Görüşdə Azərbaycan-İran arasında enerji əməkdaşlığının genişləndirilməsi, İran, Azərbaycan və Gürcüstan arasında "Cənub-Qərb" enerji dəhlizi üzrə şəbəkələrin birləşdirilməsi, Azərbaycan, İran və Türkiyə arasında elektrik enerjisi dəhlizinin yaradılması məsələləri müzakirə olunub.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



"Nə xəbər var, Məşədi?
Sağlığın!
Az-çox da yenə?
Qəzet almış Hacı Əhməd də...
Ba! Oğlan, nəmənə?
Sən özün gördün alanda?
Belə nəql eləyirdilər...
Dəxi kimi qaldı, xudaya, bu vilayətdə mənə?!
Bu isə pəs o ləinin də işi qullabıdır,
Dini, imanı danıb, yoldan azıbdır, babıdır!

**Mirzə Ələkbər Sabir**





"Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri ki, mənim söhbətimi xoşlamayıb, bəzi bəhanələrlə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu kimi vacib əməllərə".

**Cəlil Məmmədquluzadə**



# DAHA QƏZET ALMIR HACI ƏHMƏD DƏ...

## Bəs onda qəzetçi Rza neyləsin?

*Əvvəli 1-ci səh.*

Həm də həyatın sınağından çıxmış sözdür!

*Oxunmayan təkcə qəzet olsaydı, nə vardı ki?!*

*Bəs kitablardan üz döndərmək nə deməkdir?*

**Belədə bizdə "yaxşı cəhətləri" nə formalaşdıracaq?**

**Yoxsa daha mütaliəyə, "yaxşı cəhətlərə" ehtiyac qalmayıb?**

Kiçik bir eksperiment keçirdik. 2 universitetdə təhsil alan (universitetlərin və tələbələrin adlarını qəsdən göstərmirik) 15 tələbə ilə redaksiyada görüşdük. Əvvəlcədən 5-6 sualdan ibarət xüsusi anket tərtib etmişdik. Məqsəd tələblərin bədii-ədəbiyyat oxuyub-oxumadıqlarını, hansı Azərbaycan yazıçısının əsərləri ilə tanış olduqlarını, əzbər şeir bilib-bilmədiklərini, hansı jurnalistləri tanıdıqlarını və qəzetləri oxuduqlarını öyrənmək idi.

Kaş belə bir araşdırma aparmayaydıq!

Kaş sovet dövrü təsəvvürümüzdə qalaydıq!

Sən demə, bu gənclər Azərbaycan yazıçılarının əsərlərini oxumurlar!

Bir nəfər də bir şeri başdan-ayağa əzbər bilmədi!

Nə bədii ədəbiyyatı sistemli mütaliə edən var, nə də qəzet oxuyan!

Hələ bunlar jurnalist olmaq istəyənlərdir!

Doğrudanmı mobil telefon Azərbaycan ədəbiyyatını (həm təkcə Azərbaycan ədəbiyyatını yox) əvəz etməyə qadirdir?

Bəs görən qəzetlərdən insanların soyumasının, gənclərin onlara maraq göstərməməsinin, nəticədə qəzet tirajlarının aşağı düşməsinin və müasir dildə desək, onun daha "gəlirli biznes" olmadığı üçün sıradan çıxmasının səbəbi nədir?

*Şübhəsiz, əsas səbəb internetin, elektron informasiya vasitələrinin meydana gəlməsidir. Artıq bir mobil telefon alıb cibinə qoymaqla istədiyin anda günün yeniliklərini asanlıqla öyrənə, istədiyin qəzetin saytına girə bilirsən. Həm də pulsuz-parasız! Belədə niyə qəzetə vəsait sərf edəsən? Özü də bir neçə qəzet alsan, hər gün buna pul xərcləsən, ayda heç də az vəsait eləmir!*

**Amma kim deyir ki, insan mənəvi ehtiyacını ödəmək, nəyisə öyrənmək və bilmək, marağını təmin etməkdən ötrü pul xərcləməməlidir?!**

**Əslində insanı digər canlılardan fərqləndirən məhz onun mənəvi ehtiyacları və daim həmin ehtiyacları ödəməyə can atmasıdır!**

*Kino çıxanda dedilər teatr öləcək, amma ölmədi!*

*Televiziya çıxanda dedilər teatr da, kino da öləcək, amma heç biri ölməyib!*

*Bu gün də yaşayırlar, insanlar evlərində televiziyaya baxmaqla yanaşı, kinoya da gedirlər, teatra da!*

Nə yaxşı ki, belədir! Yoxsa hamı mavi ekranın, kompüterin qarşısında oturub qalsaydı, bir-birinə daha çox yadlaşar, ictimai yerlərdən ayaqları çəkilər, çölə-bayıra çıxmadıqlarından heç bundan səhhətləri də fayda götürməzdi.

### Mənəvi və maddi məqamlar

**Qəzetlərin sıradan çıxmalarının subyektiv səbəbləri də vardır...**

*NƏDİR ONLAR?*

*ƏVVƏLA,* qəzet oxumaq həm də vərdişdir, oxu mədəniyyətidir. Görünür, bu vərdişi vədəsində gənclərə aşılamadıq, unutduq və unutdurduq.

Həm də təkcə bunu yox, kitab oxumağı da!

*İKİNCİSİ,* sovet dövründə təkcə ölkə paytaxtına və rayon mərkəzlərinə yox, hətta ən ucqar kəndlərə, hər bir ailəyə belə qəzet çatdırılırdı!

İndi isə qəzet abunəçiləri, az qala barmaqla göstəriləcək həddədir!

*ÜÇÜNCÜSÜ,* qəzetlərin qiyməti xeyli bahalaşıb: sovet dövründə qəzet 2 qəpiyə idi və bir çörəyin qiymətinə 15-ini almaq olardı.

İndi isə 40 qəpikdir - bir çörəyin qiymətinə!

*DÖRDÜNCÜSÜ,* "reket qəzetlər" və "reket jurnalistlər" qəzetləri də, jurnalistləri də hörmətdən saldılar, insanları təhqir, yalan, böhtan, qərəz dolu yazıları ilə qəzetlərdən çiyrindirdilər!

*Sovet dövründə hamı jurnalistlərlə dostluqdan qürur duyurdu, indi isə jurnalist adı gələndə üzlərini turşudur, arxalarını çevirərək qapılarını bağlayırlar!*

*Bunlar məsələnin mənəvi tərəfi ilə bağlıdır.*

*Müxtəlif dövrlərdə müəyyən maliyyə problemlərinin yaranması və həll edilməməsi isə qəzetin və qəzetçinin nəfəsini kəsdi!*

*BUNLAR HANSİLARDİR:*

*BİRİNCİ,* bu işlə məşğul olanlarda qəzet biznesini idarəetmə təcrübəsinin yoxluğu;

*İKİNCİ,* reklam qıtlığı və reklam bazarının formalaşmaması;

*ÜÇÜNCÜ,* qəzetlərin sərbəst satışının təşkil olunmaması, bu məqsədlə dövlət hesabına yaradılan köşklərin "mini-bazar" kimi fəaliyyət göstərməsi;

*DÖRDÜNCÜ,* qəzetlərə əlavə dəyər vergisinin tətbiqinin yenidən geri qaytarılması;

*BEŞİNCİ,* manatın devalvasiyası nəticəsində xaricdən gətirilən və məhsulun maya dəyərinin özəyini təşkil edən qəzet kağızının və metal təbəqənin qiymətinin xeyli yüksəlməsi.

**Əslində, sonuncu qəzetin və qəzetçilərin belinin qırılmasına kifayət edir!**

**Amma gəlin çox mühüm bir məqamı yaddan çıxarmayaq:**

**Qəzet yalnız pul qazanmaq üçün biznes sahəsi deyil! O həm də ideoloji (bu sözdən "demokrat"ların xoşu gəlməsə də) məhsul sayılır!**

### Dünən "reket jurnalist"lərə təslim olan jurnalistika bu gün öz yerini sosial şəbəkəyə verir!

*Azərbaycan iqtidarı yalnız mətbuat və söz azadlığını bəyan etməyib, onun təmini yolunda ardıcıl və məqsədyönlü tədbirlər görür!*

*Əgər belə tədbirlər və addımlar olmasaydı, yəqin ki, indiyə barmaqla sayılacaq qədər qəzet qalacaqdı!*

KİV-in inkişafına Dövlət Dəstəyi Fondunun yaradılması bu sahədə ən uğurlu gediş oldu! Əslində, buna qədər də qəzetlərin mətbəələrə borcları dövlət hesabına silinmiş, dəfələrlə müxtəlif qəzetlərə birdəfəlik maddi yardım göstərilmişdi.

**Jurnalistlərə dövlət hesabına tikilərək təmir edilən mənzillərin təmənnasız bağışlanması isə görünməmiş köməkdir!**

Əgər bu olmasaydı, yəqin ki, yüzlərlə jurnalist hələ də kirayələrdə yaşayar, darısqallıq əziyyəti çəkər, ömrü boyu şəxsi mənzili olmaq xoşbəxtliyinin dadını bilməzdi!

Dövlətin bu köməyi hələ də davam edir!

### Tərəzinin boş qalan gözü...

Qonşudan gələn payla qarın doymaz! - bu atalar misalıdır, həm də zamanın sınağından keçib!

Deməli, özün qazanıb, alıb-gətirib süfrəyə düzməlisən!

*Təsərrüfat hesabı da o deməkdir ki, nə qazansan, onu da yeyəcək və xərcləyəcəksən!*

*Əgər qazansan!*

*Əgər qazana bilsən!*

**Adətən qəzetlər pulu 3 mənbədən qazanır: abunə, pərakəndə satış və reklam hesabına!**

Sovet dövründə birinci yerdə abunə dururdu!

- Qəzet yalnız pul qazanmaq üçün biznes sahəsi deyil!
  O həm də ideoloji (bu sözdən "demokrat"ların xoşu gəlməsə də) məhsul sayılır!

- Bu gün dövlətin reklam bazarında da (nazirliklər, komitələr, yerli icra hakimiyyəti orqanları, dövlət şirkətləri və səhmdar cəmiyyətləri tərəfindən verilən və rəsmi qəzetlərdə dərc edilməli olan tender, müsabiqə, kotirovka elanları nəzərdə tutulur) bir xaos, qaydasızlıq baş alıb getməkdədir.
  Nə reklam haqqında qanuna əməl edən, nə də ona nəzarət yetirən var! Elanlar kimlərə necə verilir, ödəmələr nə sayaq aparılır - nə "görən" vardır, nə də "bilən".
  Reklamla bağlı vergi qanununun pozulması, bu sahədə baş alıb gedən qeyri-sivil rəqabət adi hala, reklam qarpmaq metoduna çevrilib!

- Hamıya canı yanan jurnalistə kimsənin canı yanmır!
  İllərdir ki, özümüz deyib özümüz eşidirik!
  Yaxşı, qəzetləri də gömdük torpağa, bəs sonra!
  Bu boşluğu nə ilə dolduracağıq!
  Sosial şəbəkə ilə?

- "Qəzetləri itirməklə nələri itirə bilərik" sualını belə cavablandıra bilərik:
  Çap mediasında daim yer tutan araşdırma və analitik yazılar, jurnalistikanın əsrlər boyu yaranmış janrlarının mühüm bir qismi, maarifçiliklə və tarixi keçmişlə bağlı məqalələr, dövləti və milli maraqların ardıcıl, sistemli şəkildə müdafiəsi, milli-mənəvi dəyərlərin qorunması və təbliği, mətbu sözə olan ənənəvi inam və etibar da qəzetlərlə birlikdə gedəcəkdir!
  Məgər bütün bu keyfiyyətlərinə görə qəzet yaşamağa layiq deyilmi?!.

*Lakin KİV-in inkişafına Dövlət Dəstəyi Konsepsiyasının fəlsəfəsi başqadır! Xüsusən iki mühüm məqamı diqqətə çəkmək istəyirik:*

*BİRİNCİ,* hər qəzetə Konsepsiyada göstərilən on doqquz istiqamətdən biri üzrə hazırlanmış və bəyənilmiş layihə əsasında qrant ödənilir!

Vurğulayırıq: Dövlətin təqdim etdiyi yox, məhz qəzet redaksiyasında hazırlanan layihələrə qrant ayrılır. Deməli, qəzetin daxili işinə müdaxilə edilmir, onun fəaliyyəti hansısa səmtə dəyişdirilmir!

*İkinci məqam:* Qrantlar həm də ictimai fikrin formalaşmasına müəyyən təsiri olan, məqbul tirajla qəzet bazarında yer tutan nəşrlərə ödənilir!

*Həm də müəyyən dövr ərzində!*

*Ömürlük, həmişəlik yox!*

*Odur ki, həmin dövrdə qəzetlər ayaqda durmağı öyrənməli və bacarmalıdırlar!*

Beləliklə, nə vaxtsa KİV-ə Dövlət Dəstəyi Fondunun qrantlı layihələrə xitam verməsi təbii və gözləniləndir!

Qəzet bazarında duruş gətirə bilməyən qəzetlərin də sıradan çıxacağı təbiidir.

Bəs görəsən "duruş gətirmənin" şərtləri, yaxud şəraiti nədir?

İndi isə abunə görünməmiş dərəcədə azalıb, pərakəndə satış isə heç kəsi maraqlandırmır və biznes kimi cəlb etmir!

**Dünya praktikasında da qəzetləri yaşadan başlıca vasitə reklamdır!**

**Qəzetlərin əsas hissəsini tutan və yüksək gəlir gətirən reklam!**

Azərbaycanda özəl bölmə müstəqillik dövründə yaranıb və yaşı azdır. Hələ burada çalışanlar reklamın əhəmiyyətini kifayət qədər qiymətləndirmirlər! Pulu olanlar isə televiziya reklamına qaçırlar!

*Dünya maliyyə böhranı ilə əlaqədar bir sıra şirkətlərin sıradan çıxması olmayan reklam bazarını da puça çıxardı!*

**Bu gün dövlətin reklam bazarında da (nazirliklər, komitələr, yerli icra hakimiyyəti orqanları, dövlət şirkətləri və səhmdar cəmiyyətləri tərəfindən verilən və rəsmi qəzetlərdə dərc edilməli olan tender, müsabiqə, kotirovka elanları nəzərdə tutulur) bir xaos, qaydasızlıq baş alıb getməkdədir.**

**Nə reklam haqqında qanuna əməl edən, nə də ona nəzarət yetirən var!**

**Elanlar kimlərə necə verilir, ödəmələr nə sayaq aparılır - nə "görən" vardır, nə də "bilən".**

*Reklamla bağlı vergi qanununun pozulması, bu sahədə baş alıb gedən qeyri-sivil rəqabət adi hala, reklam qapmaq metoduna çevrilib!*

Bütövlükdə isə çap mediası üçün nəzərdə tutulan ümumi reklam bazarının yaranması qəzetçilərin əlçatmaz arzusu olaraq qalır. Hətta Mətbuat Şurası da bu problemin çözümündə acizlik göstərdi!

**Elə ki ayın başı yaxınlaşır, qara sancı dolur qarnımıza: görəsən əməkhaqqını necə və nə ilə verəcəyik?!**

**Başlayırıq əldə telefon yalvar-yaxara: məhsulumuzu satan yayım təşkilatlarına, reklamlarını dərc etdiyimiz qurumlara!**

**Aman günüdür, aldığınız qəzetin, sizə göstərdiyimiz xidmətin pulunu ödəyin!**

**Biz oluruq yalvarıcı, onlar olurlar xan qapısı!**

*Qəzet yayımı qurumlarından əməkhaqqı ödəyəcəyimiz məbləğdən dörd-beş qat artıq alacağımız olsa da, lələməkdən başqa heç nəyə gücümüz çatmır!*

*Məhkəmədə qaldırdığımız iddialar isə icra qurumunun və hakimlərin kəraməti sayəsində illərlə çəkişmə, süründürmə, saysız-hesabsız baxış obyektinə çevrilir!*

*Çünki heç kimin heç harası ağrımır!*

**Hamıya canı yanan jurnalistə kimsənin canı yanmır!**

**İllərdir ki, bu ssenari ilə yaşayır və işləyirik!**

**İllərdir ki, özümüz deyib, özümüz eşidirik!**

**Yaxşı, qəzetləri də gömdük torpağa, bəs sonra!**

**Bu boşluğu nə ilə dolduracağıq!**

**Sosial şəbəkə ilə?**

Gəlin açıq etiraf edək: bu gün çap mediasının pul qazanmaq imkanı çox çətin və məhduddur!

Televiziya reklamına olan marağı qəzetlərdə görmürük!

Hətta özəl televiziyalar reklam bolluğundan bir verilişi, filmi sonadək "bütöv halında" göstərə bilmirlər, tez-tez dayanıb "pul qazanmalı" olurlar!

Müstəqil qəzetçilər elə bilirlər ki, dövlət və iqtidar qəzetləri yağ-bal içində üzürlər! Necə ki ölülər elə sanırlar ki, dirilər bütün günü halva yeyirlər.

*Amma heç də belə deyil!*

*Nə yağ-bal içində yaşayırıq, nə də halva yeyirik!*

*Ay başa çatana kimi növbəti əməkhaqqını necə, hansı vəsait hesabına verəcəyimizi bilmirik!*

Bir yandan da "Azərbaycan" nəşriyyatı ayağını dirəyib, "kağızınız qurtarıb, kağız alın!" deyə məktub dalınca məktub göndərir!

Oğulsan bu şəraitdə qəzeti də saxla, kollektivi də yaşat!

### Qəzetləri itirməklə nələri itirə bilərik!

**Qəzet gedəndə özü ilə nələri aparacağı ehtimal edilir?**

Bunu elektron media ilə müqayisədə nəzərdən keçirək:

- *Elektron media gün ərzində operativ informasiyalar yayır. Burada araşdırma və analitik yazılara nadir hallarda təsadüf etmək mümkündür;*
- *Jurnalistikanın bütün janrlarından elektron mediada istifadə olunmur, əsasən informasiya və müsahibəyə üstünlük verilir;*
- *Maarifləndiricilik funksiyası çox zəifdir, tarixi keçmişimizə, xalqın tarixi simalarının anılmasına və təbliğinə yer ayrılmır;*
- *Dövlət maraqları ilə bağlı ciddi yazılar yox dərəcəsində olur, "sensasiya yaradılmasına" cəhd göstərilir;*
- *Milli-mənəvi dəyərlərə hörmət və onların qorunmasına, jurnalistlərin peşə davranışı qaydalarına əməl etməsinə çap mediasında daha çox yer verilir;*
- *Qəzetə, onun yazılarına inam, etibar daha çoxdur, elektron saytlardakı ciddi hadisə və faktlara isə "təsdiqi tapılandan" sonra inanırlar;*
- *Elektron media arxiv kimi etibarsızdır, xalqın, dövlətin gördüyü işlər, bugünkü hadisələrin gələcək nəsillərə çatdırılması qəzetlərin sınaqdan çıxmış və özünü doğrultmuş missiyasıdır.*

Yaxın keçmişimizdə, müstəqilliyin ilk illərində və sonralar baş verən bir çox hadisələrin lentlərdən və saytlardan itirilməsinə dair xeyli faktlar mövcuddur. Bunların bir qismi qayğısızlıqdan baş veribsə, bir hissəsi də qəsdən törədilib. Qəzetləri isə yox etmək mümkün deyil! Çünki haradasa, hansı kitabxanada və ya şəxsi arxivdə qala bilir!

**Bütün sadalananları ümumiləşdirsək, "Qəzetləri itirməklə nələri itirə bilərik" sualını belə cavablandıra bilərik:**

*Çap mediasında daim yer tutan araşdırma və analitik yazılar, jurnalistikanın əsrlər boyu yaranmış janrlarının mühüm bir qismi, maarifçiliklə və tarixi keçmişlə bağlı məqalələr, dövləti və milli maraqların ardıcıl, sistemli şəkildə müdafiəsi, milli-mənəvi dəyərlərin qorunması və təbliği, mətbu sözə olan ənənəvi inam və etibar da qəzetlərlə birlikdə gedəcəkdir!*

**Məgər bütün bu keyfiyyətlərinə görə qəzet yaşamağa layiq deyilmi?!.**

### Novruzəli nə gözləyir!

**Novruzəli poçt qutusunun yanında oturub gözləyir...**

**Yox, xanın məktubunu qutuya salmayıb.**

**İtqapan kəndindəki poçt qutusunun yanını kəsdirib!**

**Gözləyir ki, nə vaxt poçtla qəzet gələcək!**

**Gözləyir...**

**Amma nə qədər gözləyəcəyini heç özü də bilmir...**

**Bəxtiyar SADIQOV**

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının kollektivindən dövlət başçısına minnətdarlıq:

# "Bizə böyük qürur, fərəh bəxş etdiniz"



**Möhtərəm cənab Prezident!**

Sizin 5 mart 2019-cu il tarixində "Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilməsi haqqında" imzaladığınız sərəncam Azərbaycan Dövlət Musiqili Teatrının kollektivinə - ölkənin sevimli teatr ailəsinə verilən yüksək qiymətinizin bariz nümunəsidir. Azərbaycan teatrlarının fəaliyyətinə dövlət qayğısını bir daha təsdiq edən bu rəsmi sənəd qəlbimizdə fərəh hissi doğurdu.

Sizin və ölkənin Birinci vitse-prezidenti, çox hörmətli Mehriban xanım Əliyevanın hər bir azərbaycanlı ailəsinin güzəranını daha xoş, sabahını daha gözəl və xoşbəxt etmək naminə yürütdüyünüz uğurlu siyasət Azərbaycanın böyük inkişaf yolu keçməsinə, ölkəmizin bütün sahələrinin, o cümlədən mədəniyyət və incəsənətinin ildən-ilə inkişaf etməsinə səbəb olub.

Son illər ərzində respublikamızın hər bir teatrında olduğu kimi, Azərbaycan Dövlət Musiqili Teatrında da çox böyük işlər görülüb, uğurlu nəticələr əldə edilib. Sizin diqqət və qayğınız və bilavasitə rəhbərliyiniz sayəsində Azərbaycan Dövlət Musiqili Teatrında təmir, yenidənqurma və bərpa işləri aparılıb. Şübhəsiz ki, teatr binasının təmiri və demək olar ki, yenidən qurulması yeni məkanda daha böyük yaradıcılıq işlərinin aparılmasına xidmət etdi.

**Əziz İlham Heydər oğlu!**

Səhnə fəaliyyətimizi yüksək qiymətləndirdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bundan sonra da yaradıcılıq fəaliyyətimizi, bütün qüvvə və bacarığımızı Azərbaycanın tanınması və şöhrət qazanması naminə, Azərbaycan teatrının şərəfli salnaməsinə yeni uğurlu səhifələr yazılması üçün sərf edəcəyik.

Biz qürur duyuruq ki, ulu öndər Heydər Əliyevin incəsənət xadimlərinə böyük qayğısı bu gün də Sizin tərəfinizdən uğurla davam etdirilir. Azərbaycan sənətçisinin, Azərbaycan ziyalısının böyük xoşbəxtliyi də elə bundadır.

Bir daha yüksək diqqət və qayğı üçün Sizə sonsuz təşəkkürlərimizi yetiririk. Və bundan sonra da daha uğurlu yaradıcılıq işlərinə imza atmağımıza söz veririk.

Qarşıdan xalqımızın əziz günü - Novruz Bayramı gəlir. Bu münasibətlə Sizi və ailənizi səmimi qəlbdən təbrik edir, bayram günlərində hər birinizə bahar əhvali-ruhiyyəsi, can-sağlığı və səadət arzulayırıq.

*Azərbaycan Dövlət Akademik Musiqili Teatrının kollektivi adından*

***Əliqismət LALAYEV,***
***Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru***






# Dünyanın hər yerindən görünən mənəviyyat zirvəsi







*Əvvəli 1-ci səh.*

Möhtərəm şeyximiz çox səmimi şəkildə qeyd etdi ki, *“Çeçenistan lideri Ramzan Kadırov öz əmisinin yanında məni qucaqlayıb “əmi” deyir. Əgər mən əmiyəmsə, hər iki dövlətin, xalqın nümayəndələrinə müraciət etməyə haqqım var. Müraciət edirəm ki, bütün Qafqaz xalqı qardaş kimi olmalıdır. Bizi birləşdirən səbəblər daha çoxdur...”*

Hadisə zamanı səfərdə olsalar belə, Çeçenistan Respublikasının Prezidenti Ramzan Kadırovun və ölkənin müftisi Salax Mejiyevin Şeyxülislamın telefon zənginə və müraciətinə həssas yanaşmaları, hətta çeçen dini rəhbərin öz səfərini yarımçıq qoyub dərhal Qroznıya qayıtması Hacı Allahşükür Paşazadənin bu gün Qafqaz xalqları, eləcə də onun din xadimləri arasında böyük nüfuzundan soraq verir.

Fevralın sonunda Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasına səfərində Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə də bu məsələyə Qafqaz Xalqları Ali Dini Şurasının yüksək tribunasından bir daha aydınlıq gətirdi. Bildirdi ki, Qafqaz xalqları arasında bu cür təxribatlar yolverilməzdir, biz hamımız din qardaşlarıyıq.

❖❖❖

Onu qeyd edim ki, Çerkessk şəhərinin hava limanında nümayəndə heyətimizə başçılıq edən Şeyxülislam Allahşükür Paşazadə duz-çörəklə qarşılandı. Bu səfərdə mənimlə birgə deputat həmkarlarım Cavanşır Paşazadə və Hikmət Məmmədov da iştirak etdirdilər.

Həmin gün Allahşükür Paşazadə Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezov tərəfindən qəbul edildi. Qaraçay-Çərkəz Respublikasının rəhbəri öz iqamətgahında Şeyxülislamı səmimi salamlayaraq Azərbaycana bu yaxınlarda etdiyi səfərin xoş təəssüratlarından söz açdı. Hacı Allahşükür Paşazadə öz növbəsində Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezova çatdırdı və xalqlarımız arasında qarşılıqlı görüş və səfərlərin böyük önəm daşıdığını, ölkələrimiz arasında dostluq, qardaşlığın dərinləşməsinə, həyatın bütün sahələrində - iqtisadi və mədəni-mənəvi müstəvilərdə əlaqələrin inkişafına xidmət etdiyini vurğuladı.

Söhbət zamanı bir gün əvvəl - fevralın 26-da Azərbaycanda Xocalı soyqırımının 27-ci ildönümünün geniş şəkildə qeyd olunduğu barədə danışan Allahşükür Paşazadə XX əsrdə erməni ekstremistləri tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımı cinayətinin dünyada tanıdılmasının vacibliyinə də diqqəti çəkdi.

Sonra Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezov Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadəni Şimali Qafqaz və Azərbaycan xalqları arasında sülhün möhkəmləndirilməsi, dinlərarası münasibətlərin inkişafı və dostluğun dərinləşdirilməsi işinə verdiyi şəxsi töhfələrinə görə “Qaraçay-Çərkəz Respublikası qarşısında xidmətlərinə görə” ordeni ilə təltif etdi.

Şeyxülislam Allahşükür Paşazadə Çerkessk şəhərində sədri olduğu Qafqaz Xalqları Ali Dini Şurasının (QXADŞ) növbəti toplantısının keçirilməsi barədə respublika rəhbərinə məlumat verdi və bildirdi ki, bu dəfəki toplantı Şimali Qafqaz müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyevin anadan olmasının 65 illik yubileyinə həsr olunub. Şimali Qafqaz müsəlmanları əlaqələndirmə mərkəzinin sədri İsmayıl Berdiyev də həmin görüşdə iştirak etdi.

❖❖❖

Daha sonra Çerkessk şəhərində Qafqaz Xalqları Ali Dini Şurasının növbəti iclası keçirildi. İclasda QMİ sədri A.Paşazadə Şimali Qafqaz müsəlmanları əlaqələndirmə mərkəzinin sədri, Qaraçay-Çərkəz müftisi İsmayıl Berdiyevi anadan olmasının 65 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik etdi, bütün Qafqaz müsəlmanları, bölgə dindarları adından ona cansağlığı, uzun ömür və dəyərli fəaliyyətində yeni uğurlar arzuladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yubilyara təbrik məktubunu oxuyan Şeyxülislam A.Paşazadə Prezidentin təbriknaməsini və hədiyyəsini müftiyə təqdim etdi.

Şimali Qafqaz müftiləri adından Şimali Osetiya-Alaniya müftisi Hacımurat Qatsalov, habelə Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr çıxış edərək müfti İsmayıl Berdiyevin dini lider və əlaqələndirmə mərkəzinin sədri qismində fəaliyyətini qiymətləndirərək, xidmətlərini sadalayaraq ona gələcək işlərində uğurlar dilədilər.

Tədbirdə mən də çıxış etdim. Qeyd etdim ki, qlobal mənada din əxlaq deməkdir. Bəşəriyyətin tərəqqisində din xadimlərinin müstəsna xidmətləri var. Müfti İsmayıl Berdiyevin Azərbaycanla Qaraçay-Çərkəz xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsi işinə verdiyi töhfələri hər iki xalqın yüksək dəyərləndirdiyini bildirdim və yubilyara ümumqafqaz əhəmiyyətli fəaliyyətində yeni nailiyyətlər dilədim.

İclasda QXADŞ-nin bu ilin yanvarında Vladiqafqazda keçirilən toplantısından sonrakı dövrün hesabat məruzəsi ilə şuranın sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış etdi. Şuranın iclasında həmçinin, cari məsələlər, Qafqaz xalqlarının qarşılıqlı dostluq, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində atılan addımlar müzakirə edildi.

❖❖❖

Vladiqafqazda 1996-cı ildə terrorçular tərəfindən törədilən partlayış zamanı xeyli zərər görmüş Muxtarov məscidinin Azərbaycan Prezidentinin şəxsi yardımı sayəsində bərpa edilməsi bölgə dindarlarının, dini icma və konfessiya rəhbərlərinin böyük sevincinə səbəb olmuşdu. 110 illik tarixə malik Vladiqafqaz məscidi təkcə Şimali Osetiya-Alaniya Respublikasının deyil, bütün Qafqazda İslam mədəni irsinin əsas simvollarından biri hesab edilir.

Bəli, çox fərəhli haldır ki, yeni həyat qazanmış Muxtarov məscidi Vladiqafqaz şəhərinin gözəl rəmzi, Şərq memarlığının nadir incisi, mənəvi vəhdət rəmzi, xalqlar arasında dostluq abidəsi, Şimali Osetiya müsəlmanlarının əsas ibadətgah yeri olmaqla yanaşı, həm də Azərbaycan Prezidenti İlham Əliyevin böyük humanistliyinin, mesenatlığının bariz nümunəsidir.

Öz çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin Qafqazda millətlərarası dostluq və dinlərarası anlaşmanın təmini işində Şimali Qafqaz müftilərinin rolunu xüsusi qeyd edən Şeyxülislam Allahşükür Paşazadə bildirdi ki, sədri olduğu Qafqaz Xalqları Ali Dini Şurası bu yöndə bundan sonra da səy göstərəcək.

Dünya iqtisadi böhran, siyasi gərginlik, mənəvi səciyyəli problemlər yaşadığı bir dövrdə Azərbaycan Prezidenti bütün bunların fövqündə dayanmaq qüdrəti nümayiş etdirir, beynəlxalq humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları keçirərək Azərbaycandan bütün dünyaya multikulturalizm ideyalarını təbliğ edir, millətlər, dinlərarası dialoqu təşviq edir, ədalətə və beynəlxalq hüquqa söykənən dünya düzəninə çağırışlarını bəyan edir.

Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərinin - başda məhz Şeyxülislam Allahşükür Paşazadə olmaqla, Şimali Qafqaz Müsəlmanları Əlaqələndirmə Şurasının sədri, Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl BERDİYEV, Çeçenistan Respublikasının müftisi Salax MEJİYEV, Dağıstan Respublikasının müftisi Əhməd Abdullayev, Kabardino-Balkar Respublikasının müftisi Həzrətəli Dzasejev, Şimali Osetiya (Alaniya) Respublikasının müftisi Hacımurat Qatsalov, Kalmıkiya Respublikasının müftisi Soltanəhməd Karolayev, Adıgey və Krasnodar Respublikasının müftisi Askarbiy Kardanov və Stavropol diyarının müftisi Muhammad Raximovun imzası ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanlanan təşəkkür məktubunun məzmunu da bu gün Qafqazda, eləcə də MDB məkanında Azərbaycanın nə qədər böyük nüfuza malik dövlət olduğunu göstərir.

❖❖❖

Hamımıza yaxşı məlumdur ki, Qafqazda, eləcə də Azərbaycanda şeyxülislam titulunun və şeyxülislamlıq vəzifəsinin böyük tarixçəsi var. Şeyxülislamlıq institutunun yaranma tarixinin kökləri çox qədimlərə gedir və təqribən min illik bir dövrü əhatə edir. Şeyxülislam - İslam rəhbəri və ya ağsaqqalı mənasını özündə ehtiva edir.

Orta əsrlərdə Azərbaycanda da şeyxülislamlıq institutu mühüm rol oynamışdı. Təbriz, Dərbənd və s. şəhərlərin şeyxülislamları mötəbər, hörmətli din xadimləri sayılır, molla, qazı və hacıblərə göstərişlər verirdilər. XIV-XV əsrlərdə - Səfəvilər hakimiyyəti dövründə şeyxülislam müstəqil fikir yürüdür, yalnız Quran və şəriət hökmlərindən çıxış edərək, qərəz güdmədən ümumi işin, əmin-amanlığın və ictimai sabitliyin xeyrinə hökm çıxarırdı. XVI əsrdə Osmanlı sultanlarının hakimiyyəti dövründə şeyxülislamlar dövlət idarəçiliyi və qanunların tənzimlənməsində daha böyük rol oynamağa başladılar.

Qafqazda şeyxülislamlıq təsisatı 1823-cü ildən yaranıb və o vaxtdan etibarən Qafqazın bütün şeyxülislamları Azərbaycandandır. 1917-ci ildə Bakı ruhanilərinin təşəbbüsü ilə “İsmailiyyə” binasında Qafqazın müsəlman ruhanilərinin I qurultayı keçirildi. Üç gün davam edən qurultayda Qafqazın müsəlmanlar yaşayan əksər bölgələrinin nümayəndələrinin iştirakı ilə mühüm məsələlər müzakirə edildi. Sonuncu gün Təzəpir məscidində şeyxülislam və müftinin iştirakı ilə camaat namazı qılındı.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti quruldu və ölkə siyasi müstəqilliklə yanaşı, din sahəsində də müstəqillik əldə etdi. Həmin ilin avqustunda Şeyxülislam Məhəmməd Pişnamazzadə (1913-1918) və müfti Mustafa Əfəndi Əfəndizadə Gəncəyə gəldilər. 1918-ci il sentyabrın 1-də onlar könüllü olaraq “Məşixə” deyilən vahid orqanda birləşmək qərarına gəldilər. Bununla da müsəlmanların dini işlərinin idarə edilməsində ikili ruhani rəhbərliyi aradan qaldırıldı, Qafqaz müsəlmanlarının vahid idarəsi yarandı. Şeyxülislam idarənin rəhbəri, Qafqaz müsəlmanlarının ruhani başçısı, müfti isə onun müavini oldu. O zamandan etibarən Qafqaz Müsəlmanları İdarəsi Azərbaycanın paytaxtı Bakı şəhərində fəaliyyət göstərir. 1918-ci il dekabrın 11-də Qafqazın Şeyxülislamı Məhəmməd Pişnamazzadə istefa verdi və onun səlahiyyətlərini axund Ağa Əlizadə (1918-1920) öz üzərinə götürdü.

1920-ci ildə hakimiyyətə gələn bolşeviklər mayın 15-də Şeyxülislamlıq təsisatını ləğv etdilər. 1941-ci ildən başlayaraq Hitler rejiminə qarşı mübarizədə dindarların, o cümlədən müsəlmanların rəğbətini qazanmağa ehtiyac duyan sovet hökuməti 1944-cü ildə Qafqaz müsəlmanlarının Ruhani İdarəsinin bərpa edilməsi haqqında qərar qəbul etdi. Mayın 25-28-də keçirilən qurultayda axund Ağa Əlizadə (1944-1954) yenidən Qafqazın Şeyxülislamı seçildi, müfti İbrahim Əfəndi Əfəndizadə isə onun müavini oldu. Bununla şeyxülislamın seçilməsi ənənəsinin əsası qoyuldu. Sonralar bütün şeyxülislamlar-axund Mir Möhsin Həkimzadə (1955-1966), axund Əliağa Süleymanzadə (1968-1976), axund Mir Qəzənfər İbrahimov (1977-1979) müsəlmanların qurultaylarında seçiliblər.

1918-1920-ci illərdə yaradılan Azərbaycan Xalq Cümhuriyyətində İslamiyyə İdarəsinin başçısı “şeyxülislam” adlanırdı. Həmçinin, şeyxülislam 1921-ci ildən 1991-ci ilə qədər keçmiş SSRİ-də Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin, 1991-ci ildən bu günə qədər Azərbaycan Respublikasında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) başçısına verilən addır.

Şeyxülislamı digər din adamlarından fərqləndirən əsas xüsusiyyət onun öz biliyini bir məscidin, bir şəhərin, bir icmanın maraqları baxımından deyil, bütövlükdə Allaha, Vətənə və xalqa xidmət naminə tətbiq etməsi idi.

❖❖❖

1823-cü ildən bu günə kimi Qafqazda 12 şeyxülislam olmuşdur. 1980-ci ildən Qafqazın Şeyxülislamı Allahşükür Paşazadə həzrətləridir. Şeyxülislam Hacı Allahşükür Paşazadə bu vəzifəyə Qafqaz müsəlmanlarının qurultayında seçilib və indiyədək dini rəhbər kimi fəaliyyət göstərir. Bu gün Qafqaz Müsəlmanları İdarəsi öz səlahiyyətləri çərçivəsində Azərbaycanda islam dini icmalarına rəhbərlik edir, şəriət qayda-qanunlarının düzgün yerinə yetirilməsinə nəzarət edir.

Şeyxülislam başda olmaqla Qafqazın din xadimləri, Azərbaycan dövlət başçısının xüsusi önəm verdiyi və şəxsən dəstəklədiyi dinlərarası dialoq, multikulturalizm kimi bəşəri əhəmiyyətli ideyaları dünyada təbliğ etməkdən böyük qürur duyur. Din-dövlət münasibətlərinin düzgün məcraya yönəldilməsi, vətəndaş birliyinin təmin olunması, cəmiyyətdə dini-mənəvi sabitliyin qorunub saxlanılması işində fəal mövqe tutur.

Hacı Allahşükür Paşazadə həm sovet dövrünün, həm də müstəqillik tarixinin şeyxülislamıdır. Bir Şeyxülislam kimi onun müasir Azərbaycan tarixində milli şüurun inkişafı və Azərbaycan dövlətçiliyinin qorunması yolunda danılmaz xidmətləri var.

Şeyxülislam Allahşükür Paşazadə 1989-cu ildə SSRİ Ali Sovetinə xalq deputatı seçilən ilk müsəlman din xadimi oldu. Həmçinin 1990-1995-ci illərdə Azərbaycan parlamentinə Naxçıvan seçki dairəsindən millət vəkili seçilmişdi. Onun həm sovet, həm də müstəqillik dönəmində ali qanunverici orqanlarda millət vəkili kimi təmsil olunması xalqın öz din rəhbərinə olan yüksək etimadının göstəricisi kimi dəyərləndirilmişdir.

1991-ci ilin dekabrında Şeyxülislam Allahşükür Paşazadənin bilavasitə təşəbbüsü və təkidi sayəsində Azərbaycan SSRİ-nin müsəlman respublikaları arasında ilk olaraq İKT - İslam Konfransı Təşkilatının (indiki adı ilə İƏT - İslam Əməkdaşlıq Təşkilatı) üzvlüyünə qəbul edildi.

1990-cı ilin Qanlı Yanvar hadisələri Şeyxülislam Allahşükür Paşazadənin tərcümeyi-halında kulminasiya nöqtəsi sayılmalıdır. Azğınlaşmış sovet ordusu silahsız xalqımıza divan tutanda bu qanlı faciə ilə əlaqədar ilk etiraz səsini qaldıranlardan biri məhz şeyx həzrətləri oldu. Hacı Allahşükür Paşazadənin əli xalqımızın günahsız qanına batmış Qorbaçova göndərdiyi məşhur müraciəti o zaman bir bomba kimi partlayıb bütün dünyada əks-səda verdi. Şeyxin “Azərbaycan xalqı ilə silah gücünə danışmaq olmaz!” kəlamı da az sonra özünü doğrultdu.

Eləcə də möhtərəm şeyx tərəfindən BMT-nin Baş katibi Peres de Kuelyara, bütün dövlətlərin və dinlərin başçılarına göndərilən müraciətlər Azərbaycanın müstəqillik tarixində imperiya siyasətini lənətləyən ilk manifest sayılmalıdır. Faktiki olaraq, Moskvadan Bakıda törədilən dövlət cinayətinə öz hiddət və etirazını bildirən, dünya ictimaiyyəti qarşısında SSRİ rəhbərliyini ifşa edən ümummilli lider Heydər Əliyev, Azərbaycandan isə M.Qorbaçova - azərbaycanlıların qatilinə nifrət və qəzəblə dolu açıq müraciət ünvanlayan Şeyxülislam Hacı Allahşükür Paşazadə oldu.

O, həmin günlərdə Şeyxülislam kimi dünya ictimaiyyətinin gözü qarşısında özünü əsl dini rəhbər kimi təsdiq etdi. Onun cəllad Qorbaçova ünvanladığı məktubda deyilirdi: *“Siz özlərini işğalçı kimi aparan bu cəza qoşununu Bakıya yeritməklə sovet hökumətini rüsvay etdiniz və bu əməlinizlə təsdiq etdiniz ki, müstəqillik və xalqların müqəddəratı kimi anlayışlar idarəçiliyinizə tamamilə yaddır. Siz bu faciənin törədilməsinə rəvac verməklə özünüzü bir siyasi xadim və bacarıqsız bir dövlət başçısı kimi ifşa etdiniz. Bir əli ilə xarici dövlətlərlə sülh sazişi, o biri əli ilə öz vətəndaşlarına qarşı amansız cəza tədbirlərinin həyata keçirilməsinə göstəriş verən adamı “Sülh uğrunda mübariz” adlandırmaq ən azı ləyaqətsizlikdir”.*

Allahşükür Paşazadə sovet imperiyasının rəhbəri M. Qorbaçova göndərdiyi məktubda xalqın qəzəbini ifadə edərək yazırdı: *“Mən bütün Azərbaycan xalqının iradəsini ifadə edərək qoşunların Bakıdan dərhal çıxarılmasını tələb edirəm. Heç bir xalq ilə, o cümlədən Azərbaycan xalqı ilə silahla danışmaq olmaz. Bu müdaxilə 10 gün və ya Əfqanıstandakı kimi 10 il davam edə bilər, lakin haqq-ədalət əvvəl - axır qələbə çalacaqdır. Dərin inam və iman hissi ilə üzümü Allah-Taalaya tutur və onun ulu dərgahından şəhid olan balalarımıza rəhmət diləyirəm. Qoy Allah-Taala mənim xalqımın başına bu fəlakəti gətirənləri, bu işə rəvac verənləri zəlil etsin! Ya Rəbb, Vətənimin bu ağır günündə özün bizlərə kömək ol! Amin!”*

❖❖❖

SSRİ dağıldıqdan sonra sovet məkanında mövcud olan bütün müsəlman dini təşkilatlar parçalanmış, ancaq Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin fəaliyyəti daha da genişlənmişdir. XX əsrin əvvəllərindən isə Şeyxülislam Cənubi Qafqazın bütün müsəlmanlarına rəhbərlik edən dini lider kimi fəaliyyət göstərməyə başladı.

Ulu öndər Heydər Əliyevin Şeyxülislamın şəxsiyyəti barədə söylədiyi fikirləri onu bariz şəkildə səciyyələndirir: *“Müqəddəs dinimiz olan islamın gözəl ənənələrinin ölkəmizdə, eləcə də bütün Qafqaz bölgəsində qorunub saxlanılması və möhkəmləndirilməsində Şeyxülislam Allahşükür Paşazadənin xüsusi xidmətləri vardır. Onun Qafqaz Müsəlmanları İdarəsinə rəhbərlik etdiyi illər ərzində bu dini qurum islam dəyərlərinin geniş təbliğ olunması, müsəlmanların dini-mənəvi birliyinin möhkəmləndirilməsi, onların cəmiyyətin həyatında fəallığının artırılması işində böyük rol oynayan mühüm mərkəzlərdən birinə çevrilmişdir. Paşazadənin Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsində tutduğu əsl vətəndaş mövqeyi onun ölkədə cərəyan edən mürəkkəb ictimai-siyasi prosesləri obyektiv qiymətləndirmək, yaranmış problemlərin həllində dini amilin gücündən düzgün istifadə etmək bacarığını nümayış etdirdi”.*

Bu gün QMİ bütün dünya dövlətləri, beynəlxalq təşkilatlar tərəfindən tanınır, fəaliyyətinə yüksək qiymət verilir. Qafqaz müsəlmanlarının səsi ən mötəbər beynəlxalq məclislərdən, nüfuzlu təşkilatlardan gəlir. Bunların sırasında BMT, UNESCO, İKT, “Vicdana çağırış” fondu, Ümumdünya Xalq İslam Rəhbərliyi və s. nüfuzlu təşkilatların adlarını çəkmək olar.

QMİ-nin dinlərarası sülhün və həmrəyliyin möhkəmlənməsinə sanballı töhfə verdiyinə görə Rus Pravoslav kilsəsinin I dərəcəli “Şöhrət” və “Şərəf” ordeni, “Müqəddəs Apostol Varfolomey” qızıl medalı ilə təltif edilməsi ölkəmizdə sağlam dini dəyərlərin mövcudluğunu göstərir.

QMİ-yə 40 ilə yaxındır ki, başçılıq edən Şeyxülislam Allahşükür Paşazadə nüfuzlu beynəlxalq təşkilatlarda rəhbər vəzifələrə, o cümlədən Müstəqil Dövlətlər Birliyi Dinlərarası Şurasının həmsədri, Müstəqil Dövlətlər Birliyi müsəlman dini liderlərinin Məşvərət Şurasının və Qafqaz Xalqları Ali Dini Şurasının sədri, Ümumdünya İslam Konqresinin, Ümumdünya Sülh Şurasının, habelə Avrasiya İslam Şurasının rəyasət heyətinin üzvü vəzifələrinə seçilmişdir.

❖❖❖

Mən möhtərəm şeyx həzrətləri ilə Azərbaycanda və ölkəmizdən kənarda çox yerlərdə dəfələrlə səfərdə olmuşam. Çox vaxrt şeyxin xarici ölkələrdə necə böyük ehtiramla, səmimi, nüfuzlu din xadimi olaraq qarşılanması məni səfər təəssüratlarımı yazmağa vadar edib. Görüb, duyub dərk etmişəm ki, o, dünyanın hər bir guşəsindən görünən çox böyük din xadimidir. Mən Özbəkistanda onun əlini öpən dövlət məmuru da görmüşəm, Gürcüstanın 80 yaşlı patriarxı İkinci İlyanın Tbilisi hava limanında onu necə qarşılamasına, “qardaş” deyib bağrına basmasına, haqqında necə xoş sözlər dediyinə, eləcə də Gürcüstan baş nazirinin şeyxin Tbilisidə Qafqaz Müsəlmanları İdarəsinə məxsus arxivin Azərbaycana verilməsi barədə xahişinin canla-başla əməl olunacağına göstəriş verməsinə şahid olmuşam. Ərəb ölkələrində şeyximizə bütün Qafqazın dini lideri kimi ehtiram olunur, dövlət nazirləri belə onunla məsləhətləşmələr aparırlar.

Gürcüstan Respublikasının sabiq Prezidenti mərhum Eduard Şevardnadze Şeyxülislam Allahşükür Paşazadə ilə bağlı yazırdı: *“Harada Şeyxülislam Allahşükür Paşazadə var, orada sülh var, ədalət var. Onun Azərbaycan dövlətinin və Qafqazın dini icmalarının qarşısında duran problemlərə münasibətdə müdrik, uzaqgörən siyasəti regionumuzun xalqları arasında sülhün möhkəmləndirilməsi işinə olduqca dəyərli töhfədir”.*

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Şeyxülislam Allahşükür Paşazadə haqqında söylədiyi fikirlərdən sətirlər: *“Siz Qafqaza dair məsələlərdə dini konfessiyaların ruhani lideri kimi mühüm rol oynayırsınız. Sizin münaqişəli vəziyyətləri nizama salmaq sahəsində sülhməramlı, yaradıcı fəaliyyətiniz, cəmiyyətdə mənəvi iqlimin sağlamlaşdırılması naminə səyləriniz ən yüksək qiymətə və hərtərəfli dəstəyə layiqdir”.*

Azərbaycan Prezidenti İlham Əliyev Şeyxülislam A.Paşazadənin çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirərək demişdir: *“Şeyx həzrətlərinin Azərbaycanda dini tolerantlığın inkişafında çox böyük əməyi, çox böyük xidmətləri var. Bunu biz bilirik, başqa dinlərin başçıları və nümayəndələri də bilir. Bütün dünyada şeyx həzrətlərinə çox böyük hörmət, çox böyük inam var. Başqa dinlərin başçılarının, Qafqaz xalqlarının dini nümayəndələrinin Azərbaycana səfərləri zamanı və beynəlxalq tədbirlərdə mən şəxsən bunun şahidi olmuşam. Əlbəttə ki, bu, bütövlükdə Azərbaycana olan hörmətin böyük nümunəsidir”.*

Möhtərəm dövlət başçımız çıxışlarının birində bu fikri də xüsusilə vurğulayır ki: “Bu gün mənimlə hörmətli şeyx həzrətləri arasında münasibətlər çox səmimidir, dostluq münasibətidir. Biz bu dostluqdan çox məmnunuq. Bu dostluq həm bizim üçün, həm də ölkəmiz üçün lazımdır”.

Mən iştirak etdiyim görüşlərdə Gürcüstan Patriarxı II İlya Qafqaz xalqları arasında dostluğun yaranmasında və inkişafında Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin xidmətlərinin böyük olduğunu xüsusi vurğuladığının, Moskvanın və bütün Rusiyanın Patriarxı Kirilin Şeyxülislam Allahşükür Paşazadəyə “mənim qardaşım “ deyə mütaciət etdiyinə şahid olmuşam. Etiraf edim ki, şeyxə bu dərin hörmət və səmimi müraciətlər, eləcə də onun Rus Pravoslav kilsəsi ilə münasibətlərin inkişafında və dünyada, eləcə də Azərbaycanda dinlərarası sülhün dəstəklənməsində rolundan bəhs olunması içimi heyrətamiz bir iftixar hissi ilə doldurub .

Vaxtilə müsəlman din xadimləri içərisində ilk dəfə Şeyxülislam Allahşükür Paşazadəni Vatikana dəvət edərək, fəaliyyətini “Müqəddəs Qreqori” ordeni ilə yüksək qiymətləndirən Roma papası II İohan Pavel yazırdı: *“Müxtəlif dinlərin nümayəndələri tərəfindən Sizə bəslənən xoş münasibətlərlə fəxr etməyə haqqınız var”.*

❖❖❖

Şeyx həm də fəal xeyriyyəçi, comərd insandır. Onun bir əli, necə deyərlər, həmişə kasıb-kusubun, yeni ailə quranların, qaçqın və köçkünlərin, yurd-yuvasından didərgin düşmüş insanların üstündədir. Hacı Allahşükür Paşazadə ölkədə gedən proseslərdə fəal vətəndaş mövqeyi ilə seçilir.

Hacı Allahşükür Paşazadə eyni zamanda etibarlı dost, mehriban ata, nəvazişli baba, qayğıkeş ailə başçısıdır. Onun çox gözəl, dəyərli bir müsəlman ailəsi var.

Qafqaz bölgəsinin ən nüfuzlu din xadimi kimi 1992-ci ildə Qafqaz Xalqları Ali Dini Şurasının sədri seçilən Allahşükür Paşazadə Çeçenistan və İnquşetiyada dini təfriqə salan radikal təmayüllü qüvvələrin xalqa zidd əməllərinin qarşısının alınmasında əməli tədbirlər görmüş, “Qafqaz evi” çərçivəsində bölgədə barış mühitinin formalaşması istiqamətində gərgin fəaliyyət göstərmişdir. O, Qafqaz müsəlmanlarının ali dini rəhbəri kimi iştirak etdiyi bütün qurum və təşkilatlarda bu bölgənin xalqlarının maraqlarını ən yüksək səviyyədə qoruyur və onların haqq işini müdafiə edir.

1999-cu ildə Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinə çeçen xalqının məhvinə yönəldilən siyasətini tənqid edən etiraz müraciəti göndərərək, islam ekstremizmi və terrorizmi ilə mübarizə şüarından sui-istifadə edərək, bütöv xalqın terrorçu, ekstremist, cinayətkar adlandırılmasını qətiyyətlə pisləmişdir.

Bakıda Beynəlxalq Tolerantlıq Gününə həsr edilmiş konfransda Qafqaz Müsəlmanları İdarəsinin sədri A.Paşazadə Qarabağ probleminin din amili ilə bağlı olmasını söyləyən ermənilərin məkrli hərəkətlərinə cavab vermişdir. “Qarabağ münaqişəsinin dinlərarası konflikt kimi təqdim olunması cəhdləri qəti yolverilməzdir və bunu edənlər Yaradan qarşısında ən ağır günah işlətmiş olurlar”.

Bəşəriyyətə Tanrının sözü ilə xidmət edən Şeyxülislam Allahşükür Paşazadə istər Azərbaycan dövlətinin, istərsə də bir çox xarici ölkələrin çox yüksək orden və medallarına layiq görülmüşdür ki, bu da onun təkcə islam dünyasında deyil, beynəlxalq aləmdə böyük nüfuz sahibi olduğunu nümayiş etdirir. Onlardan sadəcə bir neçəsinin adını xatırlamaq istərdim: SSRİ-nin “Xalqlar dostluğu”, Azərbaycanın “Şöhrət”, “İstiqlal” və “Şərəf”, Rus Pravoslav Kilsəsinin I dərəcəli “Müqəddəs Vladimir” və I dərəcəli “Sergi Radonejski”, İordaniya Krallığının I dərəcəli “Kral Hüseyn”, Çeçenistan Respublikasının “Millət qəhrəmanı” və “Çeçen qəhrəmanı” və sair orden və medalları ilə təltif olunmuşdur.

Bizim şeyx həzrətlərinin xahişi ilə 2010-cu ildə Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun erməni işğalçılarında qalmış nəşinin doğmalarına qaytarılmasında vasitəçi olmuşdur. Allahşükür Paşazadə həmin ərəfədə Patriarx Kirillə görüşəndə demişdir: “Siz bizim xalqın, bizim müsəlmanların böyük dostu kimi qalacaqsınız və bu, gələcəkdə qarşılaşa biləcəyimiz problemlərin həlli üçün çox vacibdir”.

Möhtərəm İlham Əliyev tərəfindən 2017-ci ilin İslam Həmrəyliyi ili elan olunması XXI əsrdə bəşəriyyətin mənəvi ehtiyac duyduğu və zamanın tələblərinə cavab verən qlobal çağırış kimi, həm də mühüm tarixi əhəmiyyət daşımaqla bərabər, zamanın böyük probleminə çevrilmiş islam ölkələri arasında ziddiyyətlərin aradan qaldırılmasına, həmrəyliyin formalaşdırılmasına yönələn səmimi təşəbbüs kimi tarixə düşdü.

Bu gün cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi sayəsində dünyanın ən müxtəlif məkanlarında tikilən, bərpa edilən mədəni-mənəvi məbədlər ümumbəşəri irsə dəyərli töhfələrdir.

Dini-ictimai xadim kimi, beynəlxalq aləmdə malik olduğu böyük nüfuzdan istifadə edərək Hacı Allahşükür Paşazadə Azərbaycan həqiqətlərini, Qarabağ probleminin mahiyyətini tanınmış din və dövlət liderləri ilə yüksək səviyyəli görüşlərində, ən yüksək xitabət kürsülərindən etdiyi çıxış və məruzələrdə dünya ictimaiyyətinin diqqətinə çatdırır, Qafqaz regionunda, eləcə də Şərq aləmində sülhün və əmin-amanlığın möhkəmləndirilməsi ilə bağlı geniş təbliğat aparır.

Çox təəssüf ki, sosial şəbəkələrdə, eləcə də bəzi media orqanlarında öz şəxsi maraqlarını hər şeydən uca tutan şəxslər şeyxə qarşı qərəzli qarayaxma kampaniyası aparmaqdan çəkinmirlər. Bütün həyatı boyu xalqına, vətəninə şərəflə xidmət edən, müqəddəs dinimizin ölkəmizdə daha geniş təbliğ olunmasında misilsiz xidmətlər göstərən bir şəxsiyyətə qarşı belə ucuz, qərəzli vasitələrdən istifadə etmək ikrah hissi doğurur. Kimlərinsə maraqları naminə bu böyük insana böhtan atmaq, onun uca və müqəddəs əməllərinə kölgə salmağa çalışmaq ən azından imansızlıqdır.

Şeyx həzrətləri 40 ilə yaxındır ki, ömrünü xalqının böyük vətəndaşı kimi, Şeyxülislam kimi öz vəzifə borcunu şərəflə yerinə yetirir, həm doğma Azərbaycanına, həm islam aləminə, həm də bütövlükdə bəşəriyyətə ruhani qəlbinin töhfələrini bəxş edir.

Filosoflar yazırlar ki, insanlar özlərini təbiətin, Tanrının yaratdığı dünyanın bir hissəsi hesab edəndə, özlərinin bu dünyanın taleyinə məsuliyyət daşıdığını başa düşəndə o zaman şəxsiyyət olurlar. Şeyxülislam Hacı Allahşükür Paşazadə Tanrının yaratdığı bu dünyanın bir hissəsi, bu dünyanın taleyinə məsuliyyət daşıyan bir insandır. Şeyxülislamlıq bir vəzifə olaraq böyük məsuliyyətdir, deyilmi?!

*Bəli, hələ cavan yaşlarından Allahşükür Paşazadənin bu məsuliyyəti dərk etməsi və qırx ilə yaxındır ki, həyatının bütün məqamlarında özünü bu müqəddəs işə həsr etməsi gələcək nəsillərin daha dərindən öyrənəcəyi və qiymət verəcəyi misilsiz bir məktəbdir.*

**Hüseynbala MİRƏLƏMOV,**
***Milli Məclisin deputatı***

# Millət hamisi, əsgər anası...

## Mehriban Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycanda qadın hərəkatı yeni keyfiyyət mərhələsinə qədəm qoyub



*Əvvəli 1-ci səh.*

"Mən insanlara kömək göstərmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir" - deyir. Birinci xanım, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva...

Bu gün Mehriban xanım Əliyeva özünün çoxsahəli fəaliyyəti ilə Azərbaycan qadınının həm fədakar ana, həm də fəal ictimai xadim olduğunu sübut edir. Azərbaycanda qadın hərəkatının yeni mərhələsinin lideri kimi Mehriban xanım Əliyevanın geniş ictimai fəaliyyəti ən başlıca olaraq humanizm meyarlarına söykənir. Həyatının mənasını Vətənə, xalqa və insanlara xidmətdə görən, sərhəd tanımayan xeyirxahlıq, insanpərvərlik Mehriban Əliyevanı fərqləndirən özünəməxsus xüsusiyyətləridir.

Onun ictimai fəaliyyəti ölkəmizdə genişmiqyaslı proseslərin reallaşmasına rəvac verib. 2004-cü ildə Heydər Əliyev Fondunun fəaliyyətə başlaması ilə insanlara mərhəmət, şəfqət bəxş edən birinci xanım, həm də Azərbaycanda böyük ənənələri və tarixi olan xeyriyyəçilik məktəbinin yenidən dirçəlməsi və yaşadılmasını təmin etmiş oldu. Heç bir sahə onun diqqətindən kənarda qalmadı. Etdiyi xeyirxahlıqlarla qısa vaxtda Heydər Əliyev Fondu yardıma ehtiyac duyan hər kəsin ümid yerinə çevrildi.

Milli Məclisin deputatı kimi fəaliyyət göstərdiyi müddətdə məhz Mehriban xanımın təşəbbüsü ilə 4 amnistiya aktı (2007, 2009, 2013 və 2016-cı illərdə) qəbul edildi. Hər dəfə on minlərlə insana şamil edilən bu amnistiyaların fəlsəfəsində yeni ictimai münasibətlərin formalaşması, vətəndaş həmrəyliyi anlayışı dayanır. Bu həm də bağışlayan qəlbin böyüklüyünün təzahürü idi...

Mehriban Əliyevanın humanitar layihələri sərhəd tanımır, xeyriyyəçilik tədbirləri müxtəlif ölkələri, qitələri əhatə edir. Milli amallar naminə göstərdiyi gərgin səylər, Azərbaycanın dünyada təbliği işində həyata keçirdiyi layihələr, təşkil etdiyi konfranslarla, görüşlərlə Mehriban xanım qısa müddətdə dünyada ən işgüzar qadın, müasir Azərbaycan qadınının ideal obrazını yaratdı.

2015-ci ildə Birinci Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyevanın Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilməsi isə onun yüksək təşkilatçılıq qabiliyyətinin göstəricisi idi. Azərbaycanın birinci xanımı həm də UNESCO və ISESCO-nun xoşməramlı səfiridir və dünyada ikinci belə şəxsiyyət yoxdur ki, bu iki mötəbər təşkilatın üzvü olsun. Onun bu istiqamətdə gördüyü işlər sayəsində Azərbaycan böyük dividendlər qazanıb.

İki il öncə, 2017-ci ilin fevral ayının 21-dən isə Prezident İlham Əliyevin sərəncamı ilə Birinci vitse-prezident təyin olunan Mehriban xanım Əliyevanın həyatında yeni dönəm başladı. Əlbəttə ki, dövlət başçısının bu qərarı qəbul etməsində əsas rol oynayan məsələ ilk növbədə, Mehriban xanımın çoxşaxəli uğurlu fəaliyyəti oldu. Bu həm də ölkənin birinci xanımının ictimai fəaliyyətinin cənab İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamladığının təsdiqi idi. Bir daha bəlli oldu ki, Mehriban xanım sədaqətli həyat yoldaşı olduğu kimi, həm də Azərbaycan Prezidentinin ən yaxın silahdaşıdır.

Dövlət başçısının Mehriban xanım haqqında dediyi fikirlər də deyilənləri bir daha təsdiqləyir: "Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır... Çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda, çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır. Bütün bu sadaladığım amilləri nəzərə alaraq, mən bu qərara gəldim. Bu gün Mehriban Əliyevanın həyatında yeni bir dövr başlayır və əminəm ki, ölkəmizin inkişafında bundan sonra da öz dəyərli töhfəsini verəcək".

Prezidentin böyük etimad göstərdiyi Mehriban xanım dövlət başçısının, ən başlıcası isə ona inanan, ümid bəsləyən insanların etimadını doğruldacağına söz verdi. Və ötən iki il müddətində bütün vəzifələrin öhdəsindən böyük məharətlə gələrək bu etimadı doğrultdu. Mehriban xanım bir daha təsdiq etdi ki, peşəkar siyasətçi, işgüzar, təcrübəli, prinsipial dövlət xadimi Prezidentin ən yaxın silahdaşıdır. Dövlət başçısı ilə çiyin-çiyinə addımlayan Mehriban xanım bu müddət ərzində əsas diqqətini sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirdi.

Birinci vitse-prezident kimi ilk müşavirəsini Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etməsi bunu təsdiqləyən reallıqdır.

Ümumiyyətlə, Birinci vitse-prezident kimi fəaliyyət göstərdiyi müddətdə də hər zaman əhalinin zəif müdafiə olunan təbəqələrinə etdiyi yardımlar, qaçqın və məcburi köçkünlərin mənzil-məişət problemlərinin həlli istiqamətində atdığı addımlar, kimsəsizlərə, xəstələrə göstərdiyi qayğı Mehriban xanımın əvvəlki illərdə gördüyü işlərin davamıdır desək, yanılmarıq. Bütün bunlar göstərir ki, Azərbaycanın birinci xanımı bundan sonra da öz fəaliyyəti ilə ölkədə həyata keçirilən siyasətə layiqli töhfələr verəcək.

Bütün bunlar təsdiqləyir ki, Azərbaycanda qadın hərəkatının formalaşmasında, onların hüquqlarının qorunmasında, ictimai-siyasi proseslərdə həmişə fəal olmasında Mehriban Əliyevanın xüsusi xidmətləri var. Mehriban xanımın bu sahədə çoxcəhətli və davamlı fəaliyyəti təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox-çox uzaqda da geniş ictimai əks-səda doğurub. Beynəlxalq ictimaiyyət Azərbaycanın Birinci vitse-prezidentini Cənubi Qafqazın ən nüfuzlu xanımı kimi səciyyələndirir. Təltif olunduğu çoxsaylı nüfuzlu beynəlxalq mükafatlar, medallar onun dünyadakı nüfuzunun göstəricisidir. Bu təltiflərin hər birinin arxasında prinsipiallıq, xeyirxahlıq, ən əsası, xalqına, dövlətinə, bəşəriyyətə sevgi dayanır.

Ölkəmizdə elmin, təhsilin, mədəniyyətin inkişafı, sosial problemlərin həlli naminə gördüyü əvəzsiz işlərlə yanaşı, gender problemlərinin, qadınlara qarşı bütün zorakılıqların, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına xüsusi diqqət yetirir.

Qadınlara qarşı şiddət, psixoloji zorakılıq göstərən və onu cəmiyyətdən kənarlaşdıran hər bir kəs bilməlidir ki, Azərbaycan qadını tək deyil, onun hamisi və yardımçısı, ölkənin birinci xanımı Mehriban Əliyeva kimi müdafiəçisi var.

Mehriban Əliyeva sözün əsl mənasında Azərbaycan qadınının ləyaqət simvoludur və istər humanitar, istər elm və təhsil, istərsə də digər sahələrdə həyata keçirdiyi böyük miqyaslı tədbirlər qadınların cəmiyyətdə rolunun artmasına dəstək olmaqla yanaşı, həm də başqa ölkələrdə yaşayan qadınlar üçün əsl örnəkdir.

Onun bu dünyaya, insanlığa göstərdiyi xidmətlər zamanın fövqündədir...

O qadın müdrikliyinin, fədakarlığının parlaq nümunəsidir...

Evinin xanımı, həyat yoldaşının dayağı, övladlarının anası, dəcəl nəvələrin nənəsi...

Həm də əsgər anası...

"Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir..."

...Mehriban xanım özü mənəvi obrazını bu bir neçə sətirlik cümlələrlə mükəmməl şəkildə ifadə edib.

Bu günə qədər ölkəmizdə və beynəlxalq səviyyədə aldığı orden və medalları, fəxri adları sadalamaqla bitməz. Amma o, bütün bu fəaliyyətini xalqı, dövləti və bəşəri ideyalar üçün edir...

*Mehriban xanım Əliyevanın ən böyük mükafatı isə Azərbaycan xalqının ona olan tükənməz sevgisi, inamı, etibarıdır...*

*Milyonlarla könüldə ucalan xalq məhəbbətidir...*

*Bayramınız mübarək, əziz Mehriban xanım...*

**Günel HƏMİDLİ,**
***hüquq üzrə fəlsəfə doktoru***



# Möhtəşəm yüksəliş və inkişaf nümunəsi

**İnkişaf yolunda böyük əzmlə, möhtəşəm nailiyyətlərə imza atmaqla irəliləyən Azərbaycan qısa zaman kəsiyində böyük uğurlar əldə edib, sosial-iqtisadi göstəricilərinə görə dünya miqyasında liderlər mövqeyinə yüksəlib. Bu baxımdan geriyə baxsaq, ötən 15 ilin müasir Azərbaycanın tarixinə sürətli inkişaf dövrü kimi daxil olduğunu görə bilərik.**



### Uğurların müəllifi İlham Əliyevdir

Son 15 ildə Azərbaycanda ümumi daxili məhsulun 3,3, sənaye potensialının 2,6, valyuta ehtiyatlarının 24 (artıq 45 milyard dollar təşkil edir), maaşların 7, pensiyaların 9 dəfə artması, ölkəyə 250 milyard dollar sərmayənin yatırılması, 2 milyon iş yerinin yaradılması, 3 min 200-dən çox məktəb, 640 tibb müəssisəsi əsaslı təmir edilib və ya yenidən tikilməsi, 44 olimpiya mərkəzinin inşası keçilən möhtəşəm inkişaf yolunun ayrı-ayrı nümunələridir. Bütün bu uğurların müəllifi isə ulu öndər Heydər Əliyevin siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevdir. Və cənab Prezidentin qeyd etdiyi kimi, əldə olunan bu qələbələr növbəti hədəflərə çatmaq üçün etibarlı bünövrədir.

Respublikamız üçün xarakterik olan iqtisadi beynəlxalq uğurlardan biri qlobal kataklizmlərin daha da dərinləşdiyi həssas dönəmlərdə belə öz yolu ilə inamla addımlamaqdır. Bunun əsas səbəblərindən biri məhz yaradılmış iqtisadi potensialdır. Beynəlxalq iqtisadi geriləmənin yaşandığı və sınaq dövrü olan illərdə Azərbaycan böhrandan layiqincə çıxıb və həyata keçirilən iqtisadi islahatlarla öz inkişafının yeni mərhələsinə qədəm qoyub.

Lakin ötən 15 ilin inkişafı özünü yalnız iqtisadi yüksəlişdə, artan maliyyə imkanlarında göstərmir. Həyata keçirilən uğurlu siyasət nəticəsində bu inkişaf özünü həm də ordu quruculuğunda, elm və təhsildə, mədəniyyətimizin təbliğində, ölkəmizin beynəlxalq münasibətlərində və digər sahələrdə göstərir. Fəxr hissi ilə qeyd etməliyik ki, yerləşdiyi regionun iqtisadi və siyasi cəhətdən aparıcı dövlətinə çevrilən respublikamız dünya birliyinə fəal inteqrasiya istiqamətində də mühüm addımlar atıb və beynəlxalq hüququn tam müstəqil, cəsarətli mövqeyi ilə seçilən, siyasi kursu nəzərə alınan subyektinə çevrilib. Bu gün biz haqlı olaraq tarixin ən qüdrətli Azərbaycanı ilə qürur duyuruq.

### 2018-ci il böyük nailiyyətlərlə yadda qaldı

2018-ci ildə uğurlarımız kifayət qədər çoxşaxəli və mötəbər olması ilə diqqət çəkdi. Yerləşdiyi region ətrafında cərəyan edən ziddiyyətli proseslər şəraitində ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə daxili sabitliyi və inkişafını təmin etməklə, iqtisadiyyatını artım dinamikasına kökləməklə, irimiqyaslı layihələr həyata keçirməklə beynəlxalq səviyyədəki nüfuz və rəğbətini daha da möhkəmləndirməyə müvəffəq olub.

Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısının qeyd etdiyi kimi 2018-ci ildə Azərbaycan hərtərəfli və dinamik inkişaf edib. Ümumi daxili məhsulun 1,4, qeyri-neft sektoruun 1,8, sənaye istehsalı 1,5, kənd təsərrüfatı isə 4,6 faiz artması, valyuta ehtiyatlarının 45 milyard dollara çatması, ölkədə 118 min daimi iş yerinin açılması ötən ilin inkişaf dövrü olduğunu təsdiqləyən iqtisadi uğurlardır.

Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində 2018-ci ildə "Cənub qaz dəhlizi" və onun seqmentlərindən olan Transanadolu təbii qaz boru kəməri (TANAP) işə salındı. Bundan bir neçə gün əvvəl isə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi istifadəyə verildi. İl ərzində Türkiyənin İzmir şəhərində Azərbaycanın sərmayəsi ilə inşa olunan "Star" neft emalı zavodu açıldı, ölkəmizin üçüncü peyki olan "Azerspace 2" orbitə çıxarıldı.

Ötən ilin ən mühüm hadisəsi isə aprelin 11-də keçirilən prezident seçkiləri oldu. Xalqımız, seçicilərimiz bu seçkidə də ən layiqli namizədi dəstəklədilər, cənab İlham Əliyevin ətrafında birləşməklə inkişafın davamlı olmasına, daha qüdrətli Azərbaycana səs verdilər. Xalqımız daxili inamına söykənərək ölkəni əlahiddə inkişaf yoluna çıxarmış siyasətin müəllifinə - cənab İlham Əliyevə səs verməklə ağı qaradan seçməyi bacardığını, ölkənin taleyinə biganə olmadığını göstərdi. Prezident seçkilərinin nəticəsi həm də bir daha təsdiq etdi ki, xalqımız Heydər Əliyev yolunun davamına alternativ görmür. Bu mühüm siyasi hadisə bütün parametrləri ilə Azərbaycanın tarixinə demokratik və azad seçkilərdən biri kimi düşdü. Seçkinin nəticələri dünyanın nüfuzlu siyasi dairələri, o cümlədən populyar xarici KİV tərəfindən də yüksək qiymətləndirildi. Bütün rəylərdə, informasiyalarda seçkilərin olduqca ədalətli və şəffaf keçirildiyi, ölkəmizin demokratik dəyərlər yolu ilə inkişaf etdiyi birmənalı şəkildə öz əksini tapdı.

2018-ci il ölkəmizin siyasi-ictimai həyatına və bütövlükdə cəmiyyətimizin yüksək əhval-ruhiyyəsinə yol açan digər hadisələrlə də zəngin oldu. Belə ki, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü təntənəli qeyd olundu. Yubiley tədbirləri il ərzində keçirildi. Eyni zamanda, xalqımız müasir və müstəqil Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyevin 95 illik yubileyini, Milli Qurtuluş Gününün 25-ci ildönümünü qeyd etdi. Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının və Bakının işğaldan azad edilməsinin 100-cü ildönümləri münasibətilə Bakıda möhtəşəm hərbi paradlar keçirildi. Bu hərbi paradlar Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin qüdrətini, döyüş imkanlarını bir daha bütün dünyaya nümayiş etdirdi.

2018-ci ilin başqa bir möhtəşəm hadisəsi isə ordumuzun Naxçıvan istiqamətindəki Günnüt qələbəsi oldu. Təbii ki, bütün bu hadisələr cəmiyyətimizin xoş ovqatını daha da artırdı, insanlara yüksək əhvali-ruhiyyə təlqin etdi. Bu mənada 2018-ci il ölkəmizin və xalqımızın həyatında siyasi-ictimai baxımdan olduqca nikbin və pozitiv dövr kimi əlamətdar oldu.

### İslahatlar davamlıdır

Bu gün dövlətimiz Prezident İlham Əliyevin çevik təşəbbüsləri ilə öz inkişafının yeni mərhələsini yaşayır. Əsas prioritet iqtisadiyyatda qeyri-neft sektorunun üstünlüyünü təmin etməkdir ki, artıq bu sahədə mühüm uğurlar var. Belə ki, son 3 ildə həyata keçirilən yeni islahatlar ölkədə tamamilə yeni iqtisadi münasibətlərin yaranmasına səbəb olub. Vergi və gömrük sahəsindəki yeniliklər, lisenziyaların verilməsinin və biznesə başlama prosedurlarının sadələşdirilməsi, yoxlamaların aradan qaldırılması, yerli istehsalın və onun ixracının dövlət tərəfindən stimullaşdırılması, "Made in Azerbaijan" brendinin dünyada tanıdılması qeyri-neft sektorunun inkişafına səbəb olub.

İnkişaf həm də təkmil idarəetmə deməkdir. Hər bir inkişaf etmiş dövlətin tarixi sübut edir ki, onun yüksəlişinə uyğun olaraq idarəetmə aparatı da daim yenilənib. Çünki inkişaf dövlət idarəçiliyi sisteminin səmərəliliyinin yüksəldilməsini, çevik və məqsədyönlü fəaliyyət göstərən idarəetmə strukturunun formalaşdırılmasını tələb edir. Çünki ölkənin çevik idarəçilik sisteminin olması inkişafın əsas şərtlərindən biridir. Əgər təkmil və mütərəqqi idarəçilik sistemini formalaşdırmaq mümkün olmazsa, qarşıya qoyulan vəzifələr də yarımçıq qalar. Çünki belə olduğu tərzdə bir çox müəyyən olunmuş iqtisadi və siyasi vəzifələr yerinə yetirilməz. Odur ki, səmərəli dövlət idarəçiliyinin olması çox vacibdir.

Cənab Prezidentin təşəbbüsləri və imzaladığı sərəncamlarla yanvar ayından başlanan struktur islahatlarının da əsas məqsədi idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir. Yeni islahatlar həm də dövlət idarəetməsini iqtisadi inkişafın yeni mərhələsinə uyğunlaşdıracaq. Bu zaman idarəetmə və iqtisadi inkişaf arasında tarazlıq, qarşılıqlı əlaqə və bir-birini tamamlamaq kimi prinsiplər qorunacaq.

2019-cu ilin diqqəti çəkən başqa bir mühüm hadisəsi sosial sahədə atılan mühüm addımlardır. Bu yaxınlarda "Real" televiziyasına müsahibə verən Prezident İlham Əliyev bildirdi ki, 2019-cu ildən başlayan yeni islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirmək, mövcud olan nöqsanları aradan qaldırmaq, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaq, insanların rifah halını yaxşılaşdırmaq, daha güclü, qüdrətli dövlət qurmaqdır.

Dövlət başçısının son vaxtlar imzaladığı sərəncamlar bir daha göstərir ki, cənab İlham Əliyev sosial məsələlərə xüsusi diqqətlə yanaşır. Ölkə rəhbəri fevralın 8-də imzaladığı sərəncamla minimum əməkhaqqının məbləğini 50 manat artıraraq 180 manata çatdırdı. Bununla yanaşı, "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" və "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" sərəncamlar ilk növbədə bu sahələrdə çalışanların sosial rifahına xidmət edir.

Milli Məclis də öz fəaliyyəti ilə Prezidentin sosial kursuna böyük töhfələr verir. Belə ki, Milli Məclisin fevralın 19-da qəbul etdiyi və cənab Prezidentin təsdiqlədiyi "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanuna əsasən bu il martın 1-dən əmək pensiyasının minimum məbləği 160 manat məbləğində müəyyən olunub. Dəyişiklik 233 min nəfərin pensiyasında hiss olunacaq artıma gətirib çıxaracaq. 9 min insanın pensiyası 2 dəfə, 26 min nəfərin pensiyası 30 faiz artacaq. Bütövlükdə isə əhalinin böyük bir qisminin pensiyası 38,5 faiz civarında artacaq.

Fevralın 25-də dövlət başçısı təxminən 576 min nəfəri əhatə edən növbəti sərəncam imzaladı. "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncama əsasən bütün sosial müavinətlər əhəmiyyətli dərəcədə artırıldı. Məsələn, sosial müavinətin məbləği yaşa görə müavinət alanlar üçün 73 manatdan 130 manata, I qrup əlilliyə görə 150 manata, II qrup əlilliyə görə 130 manata, III qrup əlilliyə görə isə 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 82 manatdan 150 manata, ailə başçısını itirməyə görə isə ailə üzvlərinin hər biri üçün 68 manatdan 80 manata çatdırıldı. Bundan başqa sosial müavinətin məbləği valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün 61 manatdan 100 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün 68 manatdan 100 manata, beşdən çox uşağı olan qadınların hər uşağı üçün 33 manatdan 55 manata, uşağın anadan olmasına görə 109 manatdan 200 manata, dəfn üçün ödənilən sosial müavinətin məbləği isə 146 manatdan 300 manata çatdırılacaq.

Cənab Prezidentin həyata keçirdiyi sosial kursun praktik olaraq insan amilinə xidmət etdiyini göstərən başqa bir hüquqi addım isə problemli kreditlərlə bağlı imzalanan sərəncam oldu. Məlum olduğu kimi bir neçə il əvvəl maliyyə bazarlarında baş vermiş məlum hadisələrdən sonra dollar hesabı ilə banklardan götürülən kreditlərin ödənməsində çətinliklər yaranmışdı. Prezident İlham Əliyevin sərəncamı ilə bu problem də həllini tapdı və vətəndaşların yaranmış əlavə kredit borcu problemi dövlət tərəfindən yoluna qoyulacaq.

Bütün bunlar ondan xəbər verir ki, respublikamızda həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının rifahının yüksəldilməsi dayanır.

### Heç bir qüvvə Azərbaycanı öz yolundan döndərə bilməz

Azərbaycanda uğurla həyata keçirilən islahatların fonunda son vaxtlar antiazərbaycançı mərkəzlərin də fəallaşması hiss olunur. Əlbəttə, onların fəallığının güclü Azərbaycan dövlətinin qarşısında zərrə qədər də təsir imkanları yoxdur və görünən odur ki, respublikamızın inkişafı, uğurları, insanların sosial rifahının yüksəlməsi qısqanclıqla qarşılanır.

Həmin antiazərbaycançı mərkəzlərin ruporu, buyruq qulu olan AXCP sədri Əli Kərimlinin xarici internet resurslarında yer alan müsahibəsi, heç bir səbəb olmadan mitinq həvəsinə düşməsi bu qısqanclığın, antimilli münasibətin göstəricisidir. Bütün bunlar həm də onu təsdiqləyir ki, Ə.Kərimli sağlam müxalifətçilik prinsiplərindən tamamilə uzaq düşərək dövlətin və xalqın milli maraqlarını satmaqla məşğuldur. İqtisadi sferadakı müsbət göstəricilərə, islahatların uğurlu nəticələrinə və pozitiv yeniliklərinə, dövlətin sosial sahədə atdığı mühüm addımlara baxmayaraq Ə.Kərimli yenə də ağa qara deməyindən qalmır. Əslində, müxalifətçiliyi antimilli platformaya çevrilmiş beləsindən başqa nəsə gözləmək də sadəlövhlük olardı. Ona narahatlıq yaradan inkişaf edən və yüksələn Azərbaycandır. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir uğur onların onsuz da antimilli müstəvidə qurulmuş fəaliyyətlərini alt-üst edir, insanlara yalan sırımaq cəhdlərinin qarşısını alır.

*Bu gün heç bir qüvvə Azərbaycanı öz yolundan döndərə, inamlı inkişafını ləngidə bilməz. Çünki bu inkişaf siyasətinin mayasında Heydər Əliyevin əbədiyaşar ideyaları, İlham Əliyevin qətiyyət və əzmkarlığı dayanır.*

**Malik HƏSƏNOV,**
***Milli Məclisin deputatı***

# Azərbaycanın xarici işlər naziri İsveçrə Xarici İşlər Departamentinin dövlət katibinin müavini ilə görüşüb

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov ikitərəfli siyasi məsləhətləşmələrin keçirilməsi məqsədilə ölkəmizdə səfərdə olan İsveçrə Xarici İşlər Departamentinin dövlət katibinin müavini xanım Kristina Marti Lanqla görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Kristina Marti Lanq Bakıda Azərbaycanın Xarici İşlər Nazirliyi ilə İsveçrə Konfederasiyasının Xarici İşlər Federal Departamenti arasında siyasi məsləhətləşmələrin növbəti mərhələsinin məhsuldar keçdiyini söyləyib. Siyasi məsləhətləşmələr zamanı iki ölkə arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsinin aparıldığını qeyd edən xanım K.M.Lanq, Azərbaycan ilə İsveçrə arasında mövcud olan əlaqələrin müxtəlif sahələrdə daha da genişləndirilməsi istiqamətində müzakirələrin aparıldığını vurğulayıb.

Nazir Elmar Məmmədyarov qarşı tərəfə bölgədə təhlükəsizliyə əsas təhdid olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar prosesinin son vəziyyəti barədə ətraflı məlumat verib. Ermənistan siyasi rəhbərliyinin son bəyanatlarının danışıqlar prosesinə ciddi xələl gətirdiyi vurğulanıb. Ermənistanın yeni rəhbərliyinin münaqişənin həllinin bölgəyə və konkret olaraq Ermənistan əhalisinə gətirəcəyi faydanı, rifahı düşünmək əvəzinə, əsassız bəyanatlarla sülh prosesinə zərər verdiyi İsveçrə rəsmisinin diqqətinə çatdırılıb.

Görüşdə qarşılıqlı maraq doğuran regional məsələlərə dair geniş müzakirələr aparılıb.

**Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı həyatımızın bütün sahələrində, o cümlədən elektroenergetika sisteminin inkişafında öz əksini tapıb. Ölkədə həyata keçirilən islahatlar elektrik təchizatı ilə bağlı müasir infrastrukturun yaradılması istiqamətində mühüm nailiyyətlərin əldə olunması üçün əlverişli şərait yaradıb.**



# İşıqlı gələcəyə doğru

## Prezident İlham Əliyevin nəzarəti və dəstəyi ilə "Azərişıq" ASC dörd ildə böyük uğurlara imza atıb

13 il bundan əvvəl Prezident İlham Əliyevin enerji sektorunda islahatların həyata keçirilməsinə start verməsi elektroenergetika sahəsində yeni eranın başlanmasına səbəb oldu. Azərbaycan elektrik enerjisi idxal edən ölkədən elektrik enerjisi ixrac edən ölkəyə çevrildi. İndi bu sözləri cəsarətlə demək üçün hansı əziyyətlərə sinə gərilib, nə qədər gecəli-gündüzlü əmək sərf edilib, bu da bir həqiqətdir və onu xatırlatmaq yerinə düşər.

Müasir elektroenergetika infrastrukturu çoxlarına bəlkə də məşəqqət dolu günləri, gecələri unutdurub. Amma ilk dəfə bu işə start veriləndə məsələ heç də asan deyildi. Çoxları bunu dəf olunmaz bir problem kimi də görürdü. 2006-cı ildə "Bakıelektrikşəbəkə" ASC-nin yaradılması ilə illərcə yığılıb qalmış problemlərin həllinə başlanıldı. Prezident İlham Əliyevin birbaşa iştirakı və yaxından dəstəyi ilə həmin çözülməz məsələlər tarixin arxivinə qovuşdu.

İlk olaraq paytaxt Bakıda paylayıcı şəbəkələr dünya meqopolislərinə uyğun, bəzi məqamlarda daha irəli texnologiya ilə yenidən quruldu. Strateji məqsəd kimi tam şaxələndirilmiş və fasiləsiz ekoloji təmiz elektrik enerjisi istehsalının təmin edilməsi, beynəlxalq göstəricilərə uyğun səmərəlilik və keyfiyyət standartlarının yaradılması, elektrik enerjisi sahəsində məqsədləri reallaşdırmaq üçün əsas hərəkətverici mexanizmlərin işə salınması müəyyənləşdirildi. Aparılan yenidənqurma işləri nəticəsində Bakı şəhəri üzrə elektrik şəbəkəsinin qoyuluş gücü 2006-cı ildəki 3 048 MVA-dan 2018-ci ilə 7 000 MVA-ya qaldırıldı. Texniki itkilər 16,9 faizdən 7,8 faizə endirildi.

Bu müddət ərzində güc defisiti və ifrat yüklənmələr dəf edildi. Paylayıcı elektrik şəbəkədə həyata keçirilən ən mühüm islahat Bakı şəhərində elektrik təchizatının dayanıqlığını və etibarlılığını təmin edən 110 kV-luq dairəvi təchizat sisteminin yaradılmasıdır. Bu da nəinki Bakı şəhərində, eləcə də respublikamızda bir ilk idi. Bu sistemin yaradılmasında məqsəd 220 kV-luq qovşaq yarımstansiyalarından 110 kV-luq elektrik şəbəkələri vasitəsilə enerjinin şəhərin müxtəlif yerlərinə ötürülməsi, həmçinin hər hansı mənbədən olan elektrik təchizatında fasilə yarandığı təqdirdə istehlakçının digər mənbə hesabına enerji ilə təmin olunmasıdır.

Bu sxem günün istənilən vaxtında istehlakçıları elektrik enerjisi ilə dolğun, fasiləsiz təmin etməyə hərtərəfli imkan verir. İlk olaraq 110 kV-luq dairəvi sxem 220 kV-luq "Müşfiq" və "Xırdalan" qovşaq yarımstansiyaları arasında yaradıldı. Dairəvi sxemin yaradılması üçün yeni 110 kV-luq "Bayıl", "İçərişəhər" və "Liman" yarımstansiyaları tikilib istifadəyə verildi. "Müşfiq" - "Badamdar" - "Bayıl" yarımstansiyalararası ikidövrəli 110 kV-luq hava xətləri kabel xətləri ilə əvəz edildi. Bu dairəvi sistem paytaxtın mərkəzindəki mühüm obyektləri - Bayraq meydanı, Milli Park, "Baku Crystal Hall", "İçərişəhər" Dövlət Qoruğu, habelə neft mədənləri, yaşayış massivləri və müxtəlif sosial və məişət obyektlərini fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin edir.

Bakının Qaradağ, Binəqədi, Yasamal və Nəsimi rayonlarının elektrik təchizatında dayanıqlığı və fasiləsizliyi təmin etmək üçün isə 220 kV-luq "Səngəçal" və "Müşfiq" qovşaq yarımstansiyaları arasında ikinci 110 kV-luq dairəvi sistem yaradılıb. Bunun üçün Xocasən qəsəbəsində müasir tipli 110/35/10 kV-luq "Xocasən" yarımstansiyası tikilmişdir. 110 kV-luq "Dağlıq" və "Yasamal-2" yarımstansiyaları yenidən qurulub. Bu dairəvi sistem yeni tikilən metro stansiyalarını, "Avtovağzal" kompleksini, Bakının su təchizatı sistemini, Bakı Stend Atıcılığı Kompleksini və digər obyektləri fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin etməyə imkan verir.

Həmçinin "Xırdalan" və "Nizami" yarımstansiyaları arasında üçüncü 110 kV-luq dairəvi sistem yaradılıb. Bu məqsədlə 110 kV-luq "BMKZ" və 204 saylı yarımstansiyalar qapalı tipli olmaqla, yenidən tikilib. Bu yarımstansiyaları əlaqələndirmək üçün 36 km uzunluğunda 110 kV-luq ikidövrəli kabel xətti çəkilib. Eyni zamanda, 110 kV-luq "BMKZ" və 203 saylı yarımstansiyalar arasındakı hava xətləri kabel xətləri ilə əvəzlənib. Bu sistem Olimpiya stadionu, Milli Gimnastika Arenası, Atletlər kəndi, Heydər Əliyev adına neft Emalı Zavodu və Heydər Əliyev prospektindəki dövlət əhəmiyyətli obyektləri - ARDNŞ, Azərsu, Milli Sağlamlıq Mərkəzi, Dövlət Neft Fondu və başqa obyektləri fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təmin edir.

Sayca dördüncü olan "Müşfiq", "Xırdalan" və "Hövsan" yarımstansiyaları arasında 110 kV-luq dairəvi sistem üç qovşaq yarımstansiyalarını əlaqələndirir. Bunun üçün 110/35/10 kV-luq 210 saylı və 110/35/10 kV-luq "Həzi Aslanov" yarımstansiyaları tikilib. Bu yarımstansiyalar da qapalı tiplidir və müasir tələblərə cavab verən avadanlıqlarla təchiz edilib. Onları qidalandırmaq məqsədilə 110 kV-luq "Liman" - "210" - "Həzi Aslanov" - "Radiozavod" - "Əhmədli" yarımstansiyaları arasında ikidövrəli kabel xətləri quraşdırılıb. Bu dairəvi sistemin məqsədi Xətai və Nizami rayonlarının əksər hissəsini, "Ağ Şəhər" layihəsini, Yeni Bulvar - Zığ arası sahil boyu inşa edilən həm yaşayış, həm istirahət, həm də sosial obyektləri dayanıqlı enerji ilə təmin etməkdir.









110/35/10 kV-luq 2x40 MVA gücündə yeni "Buzovna-2" yarımstansiyanın tikintisi ilə Abşeron yarımadasında olan 110 kV-luq paylayıcı şəbəkələrin respublikamızın şimal bölgəsi ilə əlaqələndirilməsi planının ilk mərhələsidir. Bununla 3 elektrik stansiyanın (Şimal ES, Təmiz Şəhər ES, Sumqayıt ES) və 2 ədəd 220 kV-luq qovşaq yarımstansiyanın ("Zabrat" və "Sənaye Qovşağı") əlaqələndirilməsi ilə 110 kV-luq elektrik təchizatı sxeminin etibarlığı artırılır. Bundan əlavə, yeni inşa edilmiş "Buzovna-2" yarımstansiyası mövcud 35 kV-luq şəbəkə üçün mənbə olduğundan ayrı-ayrı 35 kV-luq dairəvi sxemə aid olan yarımstansiyaları əlaqələndirir. Bu da öz növbəsində mövcud 35 kV-luq yarımstansiyalar arasında dairəvi elektrik təchizat sxeminin, elektrik şəbəkələrinin dayanıqlı iş rejiminin yaradılmasına şərait yaradır. Prezident İlham Əliyevin 2011-ci ildə açılışında iştirak etdiyi Mərkəzi Dispetçer Xidməti də səhmdar cəmiyyətin ən uğurlu layihələrindəndir. Yeni tikilən və əsaslı şəkildə yenidən qurulan yarımstansiyalar SCADA (elektrik avadanlıqlarının vəziyyətinə nəzarət və idarəetmə) sisteminə qoşulur. 110 və 35 kV-luq yarımstansiyaların SCADA sisteminə keçməsi ilə onların uzaq məsafədən operativ idarə olunması təmin edilir. Bu sistem kompüter bazası əsasında qurulan və proqramlaşdırılan avtomatik uzaqdan idarəetmə sistemidir. Onun əsas funksiyası şəbəkəni və ya enerji sistemini operativ idarə edən dispetçerlə idarə olunan şəbəkə arasında birbaşa vizual əlaqə yaratmaqdan ibarətdir. SCADA vasitəsilə şəbəkənin elektrik avadanlıqlarına nəzarət və onları idarə etmək, təcili operativ əməliyyatlar həyata keçirmək, şəbəkədə gedən prosesləri təhlil etmək, hesabatlar hazırlamaq mümkündür. Bu sistemə qoşulan yarımstansiyalarda qəza baş verərsə, SCADA sistemində dərhal vizuallaşır. Dispetçer isə qəzanın baş verdiyi elektrik avadanlığını təyin edir, qəzanın yaranma səbəblərini aydınlaşdırır, hadisənin nəticələrinin qısa zaman çərçivəsində aradan qaldırılmasını həyata keçirir.

Paytaxtın enerji təsərrüfatında həyata keçirilən yenidənqurma işləri və uğurlu islahatlar təbii ki, dövlət başçısının diqqətində idi. Əldə olunan uğurlu nəticələr ölkə rəhbəri tərəfindən yüksək qiymətləndirildi və 2015-ci ilin fevral ayının 10-da prezident İlham Əliyevin 1045 saylı sərəncamına əsasən "Bakıelektrikşəbəkə" ASC-nin bazasında "Azərişıq" ASC yaradılaraq respublikamızın (Naxçıvan MR xaric) bütün paylayıcı şəbəkələri kollektivə etibar edildi. Prezident İlham Əliyevin "İşıqlı Azərbaycan" layihəsinin reallaşdırılması çərçivəsində bu işin yeni yaradılan "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə tapşırılması qürurverici faktdır. "Azərişıq" ASC-nin kollektivi bundan sonsuz şərəf duyur və Bakıda həyata keçirilən islahatların bütün Azərbaycanı əhatə etməsi istiqamətində, ölkəmizin ən ucqar yaşayış məntəqələrinin belə, nura bələnməsi naminə yorulmadan və iftixarla çalışmaqdadır. Respublikamızın 57 rayon və şəhərini əhatə edən "Azərişıq" ASC 7 regional enerji təchizatı satış idarəsi üzrə fəaliyyət göstərir. Səhimdar Cəmiyyətin əsas missiyası istehlakçıları etibarlı, təhlükəsiz və səmərəli elektrik enerjisi ilə təchiz etmək; yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə etmək; elektrik enerjisi istehsalçıları ilə əməkdaşlıqda diversifikasiyanı təmin etmək; ən müasir texnoloji yeniliklərə əsaslanan idarəetməni formalaşdırmaq; istehlakçılara göstərilən xidmətin keyfiyyətini yüksək səviyyədə təmin etmək və daim təkmilləşdirmək; elektrik enerjisinin texnoloji sərfiyyatını minimum səviyyəyə endirmək və sairədir. Təkcə bir faktı deyək ki, "Azərişıq" ASC yaradıldıqdan sonra da paytaxt Bakıda aparılan yenidənqurma işlərinin miqyası səngimədi. Ötən dörd il ərzində paytaxt Bakıda və Bakı ətrafı qəsəbələrdə 7 ədəd 110- kV-luq yarımstansiya, 25 ədəd isə 35 kV-luq yarımstansiya tikilib və ya yenidən qurularaq gərginlik altına verilib. Paytaxtın inkişafda olan infrastrukturuna uyğun olaraq bu müddət ərzində müasir tələblərə cavab verən 780 ədəd KTM quraşdırılıb, 9 ədəd PQ (6-10 kV) tikilib, 50 min 74 ədəd müxtəlif tipli dayaqlar basdırılıb. Paytaxt və ətraf qəsəbələr boyu müxtəlif gərginlikli ümumilikdə, 6170 km uzunluğunda elektrik naqilləri çəkilib.








Prezident İlham Əliyev yeni strukturu yaradarkən kollektiv qarşısına qoyduğu bölgələrdə bütün elektrik təsərrüfatının Bakının səviyyəsinə qalxmalıdır tələbi "Azərişıq" kollektivinin əsas fəaliyyət devizi oldu. Yaradıldığı çox qısa müddət ərzində, 2015-ci ildə "Azərişıq" ASC 3 yeni 110 kV-luq yarımstansiyanın inşasını başa çatdırdı. Bakı şəhərində "Buzovna-2", Şəki rayonunda "Göynük" və Gədəbəy rayonunda "Gədəbəy" və 110 kV-luq 100-ə yaxın yarımstansiya təmir olundu. 35 kV-luq gücündə 22 yeni yarımstansiya istifadəyə verildi. Həmin gücdə 400-dək yarımstansiya təmir olundu. Bakıdakı ənənəyə sadiq qalan "Azərişıq" ASC Azərbaycanın qədim şəhəri olan Gəncədə də gözəl memarlıq abidəsini yaratmağa nail oldu. Gəncənin qədim şəhərsalma üslubuna uyğun olaraq tikilən yarımstansiyanın birinci mərtəbəsi daş üzlüklə, ikinci mərtəbəsi isə qırmızı kərpicdən olmaqla xüsusi memarlıq üslubunda inşa edilib. İnşaat işləri zamanı 1200 metr məsafədə asfalt yol salınıb, ətraf abadlaşdırılıb, yaşıllıq zolaqları yaradılıb. Yarımstansiya foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub, ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən guşə yaradılıb. Həmçinin 35/6 kV-luq "Nizami" yarımstansiyasında Qərb Regional Tədris Mərkəzi də istifadəyə verilib.

Xüsusi ilə nəzərə almaq lazımdır ki, ötən dörd il ərzində bu işlər əlavə investisiya vəsaitləri cəlb etmədən -"Azərişıq"ASC-nin tam daxili resursları hesabına həyata keçirilir. Hazırda 110 kV-luq şəbəkələr üzrə 12 ədəd - 110 kV-luq, 35 kV-luq şəbəkələr üzrə isə 41 ədəd 35 kV-luq yarımstansiya tikilir. 10 ədəd ofis binasının tikintisi aparılır. Ümumilikdə ötən 12 il ərzində belə ofis binalarının sayı 60-dan yuxarıdır.

Ölkəmizin bütün rayon mərkəzlərində, qəsəbə və kəndlərində yararsız, istismar müddəti başa çatmış köhnə transformatorlar yeni tip, qapalı komplekt transformator məntəqələri (KTM) ilə əvəz olunur. "Azərişıq" ASC qısa müddət ərzində 4500-ə yaxın bu cür yeni tipli KTM quraşdıraraq istifadəyə verib. Səhmdar Cəmiyyət respublikamızın bütün şəhər və rayonlarında, kənd və qəsəbələrində, hətta ən keçilməz dağ silsilələrində, ən ucqar yaşayış məskənlərində belə, genişmiqyaslı işlər görməkdədir. Daha bir faktı diqqətinizə çatdıraq: Zaqatala rayonunun Qalal kəndi 35 illik fasilədən sonra 24 saat dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunub. Bu kənd rayon mərkəzindən 30 km məsafədə, Rusiya ilə sərhəddə yerləşir. Kənd sakinləri 35 il idi ki, işıqsız qalmışdılar! "Azərişıq" ASC daxili imkanları hesabına bu problem istənilən hava şəraiti üçün birdəfəlik həll edildi.

Tarix boyu elektrik enerjisi olmayan Astaranın ucqar Şəvqo kəndi də xoşbəxt kəndlər siyahısındadır. Meşəliyin içində, çaylar, qayalıqlar arasında, bir sözlə ən çətin relyefdə yerləşən bu kəndə texnikadan istifadə etmək mümkün olmadığından əl əməyi ilə şəbəkə qurulub. Ömrü boyu işığı olmayan 49 yaşayış evinin və ya 250-dən artıq insanın elektrik enerjisi ilə təmin edilməsi üçün 2 km 10 kV-luq və 5 km 0,4 kV-luq məsafədə özünüdaşıyan izolyasiyalı naqillərdən ibarət xətti çəkilib. 1 ədəd 10/0.4 kv -luq 63 kv gücündə transformator məntəqəsinin fəaliyyəti təmin edilib. Abonentlərin evlərinə 49 ədəd sayğac quraşdırılıb.

"Azərişıq" ASC dörd ildir ki, sərasər müharibə şəraitində olan ölkəmizdə cəbhə bölgəsində yerləşən rayonlara da xüsusi diqqət və qayğı göstərir. Düşmənlə təmas xəttində yerləşən Tərtər, Ağdam və Füzuli rayonlarında köhnəlmiş, istismara yararsız elektrik dayaqları dəyişdirilir, naqillər, transformatorlar yeniləri ilə əvəz edilir və müasir tipli yarımstansiyalar quraşdırılır. Bu bölgələrin fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təminatı daim diqqət mərkəzindədir. Prezident İlham Əliyevin "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" 24 yanvar 2017-ci il tarixli sərəncamının icrası ilə əlaqədar müvafiq infrastrukturun yaradılması, o cümlədən ərazidə elektrik təsərrüfatının bərpa edilməsi istiqamətində "Azərişıq" ASC tərəfindən genişmiqyaslı işlər aparılıb. Səhmdar Cəmiyyət tərəfindən Cocuq Mərcanlı kəndi ərazisində müasir standartlara cavab verən 35/10 kV-luq yeni yarımstansiya inşa edilib.

Son 13 il ərzində bir milyona yaxın elektron-rəqəmsal sayğaclar istismara verilmiş və uçot komplekti ilə təchiz edilmişlər. İlk dəfə olaraq, insan faktoru təsirinin minimallaşdırılması məqsədilə, məsafədən oxunma cihazları olan "Alfa metronika RTU" alış nöqtələrində quraşdırılmış və xüsusi proqram təminatı mərkəzi idarəetmə bazasına inteqrasiya edilmişdi. Hazırda "Elster" tipli sayğaclar, quraşdırılma və istismar yerindən asılı olaraq: saatlıq, sutkalıq, həftəlik və aylıq (cari ay və ya 4 həftə müddəti götürülür) sərfiyyat göstəricilərini virtual yaddaş blokunda toplayır, avtomatik olaraq mərkəzə ötürür (əvvəlcədən qurulmuş virtual ssenari üzrə), eyni zamanda, istənilən müdaxilə və ya istismar şərtlərini pozan şərait yarandığı hallarda sayğac mərkəzə müvafiq xəbərdarlıq (alarmtipli) məlumatlarını da çatdırır. Generasiya olunan informasiyalar şifrələnir, mərkəzə çatdırıldıqda isə deşifrə olunaraq xüsusi cədvəllər şəklində monitorda əks etdirilir. Bu günədək 500-dən çox bu tip sayğaclar quraşdırılmış və uğurla istismar olunur.

2011-ci ildən tətbiqinə start verilmiş SMS Smart sayğacların istismarını tam şəkildə həyata keçirmək məqsədilə, müəssisənin intellektual texnologiyalar mütəxəssisləri tərəfindən xüsusi SİMS proqram təminatı işlənib hazırlanıb. Bu proqram vasitəsilə SMS Smart sayğacların oxunması, balans artırılması, alarm - xəbərdarlıq mesajlarının alınması, məsafədən tarif cədvəlinin qurulması, abonentin ödənişləri/sərfiyyatı (gündəlik, həftəlik, aylıq, yarım illik və illik) haqda tam məlumatların alınması/verilməsi, abonentin mobil telefonuna faydalı məlumatların ötürülməsi təmin edilir. SMS Smart tipli sayğaclar GSM - mobil rabitə kanalı vasitəsilə, şifrələnmiş informasiya mübadiləsi rejimində fəaliyyət göstərir və funksional imkanları tətbiq şəraitinə uyğun qabaqcadan proqramlaşdırılır. 2011-2018-ci illər ərzində 100 mindən artıq SMS Smart sayğac paytaxt rayonlarında və ölkəmizin müxtəlif regionlarında quraşdırılaraq istifadəyə verilib.

Əhali və qeyri-əhali istehlakçı qrupuna aid sifarişçilərin enerji təchizatı şəbəkəsinə qoşulması və sayğacların quraşdırılması "Azərişıq" ASC-nin yeni elektron xəritə sistemi vasitəsi ilə həyata keçirilir. "ASAN xidmət" mərkəzlərinin birgə fəaliyyəti ilə vətəndaşlara göstərilən xidmətdə mütəmadi yeniliklər edilir. Belə yeniliklərdən biri də səyyar "ASAN Kommunal Xidmət" vasitəsidir. Evinə, bağına və ya tikinti obyektinə işıq çəkdirmək istəyən vətəndaş səyyar "ASAN Kommunal Xidmətə" sənədlərini təqdim edir. Qeyd olunan obyekt elektron xəritənin məlumat bazasında müəyyən edilir və şəbəkəyə qoşulması üçün məsafə, lazım olan mal-material, işin həcmi və görüləcək işlərin dəyəri müəyyənləşdirilir. Sifarişçi tərəfindən görüləcək işlərin dəyəri ödənildikdən sonra "Azərişıq" ASC-nin əməkdaşları operativ göstərilən ünvana yollanır, vətəndaşın obyektinə elektrik enerji xətti çəkilir, abonent üçün sayğac quraşdırılır.

Əvvəllər müraciətləri qeydə almaq, araşdırmaq, baxış keçirmək, məsafəni ölçmək, hesablamaq, qoşulma ilə bağlı xərclər, elektrik xəttini çəkmək və elektrik sayğacı quraşdırmaq üçün 10 gün vaxt lazım olurdusa, indi bir iş günü ərzində həllini tapır, şəffaflıq tam təmin olunur.

"ASAN Xidmət"lə "Azərişıq" ASC-nin birgə göstərdiyi xidmətlər təkcə abonentlərin enerji təchizatı şəbəkəsinə qoşulması prosesi ilə yekunlaşmır. Eyni zamanda abonentlərin elektrik enerjisinə ödənişlərinin (borclarının) araşdırılması, əhali və qeyri-əhali istehlakçısının ad dəyişməsi, üzləşmə aktlarının təqdim olunması, abonentin geniş tarixçəsinin verilməsi, smart kartların bərpası və yenilənməsi və s. xidmətlər göstərilir. Bütün bu müraciətlər "bir pəncərə" prinsipi əsasında təmin olunur. İstehlakçının istənilən tələb və təklifini dərhal etmək üçün səhmdar cəmiyyətdə "Qaynar xətt" fəaliyyət göstərir. Abonentin çağırışını dərhal icra etmək üçün "Qəza xidməti" də fəaliyyətdədir.

Abonentlərinə müxtəlif elektron xidmətlər göstərən "Azərişıq" ASC-nin fəaliyyətində kadr siyasətinə də xüsusi diqqət verilir. Ən son elmi-texniki yeniliklərə əsaslanan texnologiya və avadanlıqlardan istifadə, eləcə də şəbəkənin inkişaf tempinin ildən-ilə sürətlənməsi və işin həcminin durmadan artması müasir tələblərə cavab verən yüksəkixtisaslı işçilərin sayının artırılmasını və fəaliyyətdə olan kadrların ixtisasının daha da təkmilləşdirilməsi üçün elektroenergetika sahəsində ilk dəfə olaraq müasir tələblərə cavab verən tədris mərkəzi yaradılıb. Görülmüş işlər nəticəsində istehlakçılara satılan faydalı elektrik enerjisinə görə ümumi yığım səviyyəsi 95 faizə çatdırılıb.

"Azərişıq" ASC fəaliyyəti ərzində generasiya güclərinin artırılmasında da fəal iştirak edir. Azərbaycan Prezidentinin 22 dekabr 2017-ci il tarixli 3535 saylı sərəncamının icrası ilə əlaqədar "Azərişıq" ASC-nin balansına verilmiş Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrində yerləşən Külək Elektrik Stansiyalarında təmir və bərpa işlərinə başlanıldı. Stansiyaların istehsal etdiyi elektrik enerjisinin ötürülməsi üçün Yeni Yaşma Külək Elektrik Stansiyasının ərazisində 20/110 kV-luq 2x40 MVA gücündə və 10/35 kV0luq 4 MVA gücündə yarımstansiyalar inşa edildi, 110 kV-luq 4-cü Yaşma və 35 kV-luq Yaşma Bağları hava xətləri ilə əlaqələndirildi. Ötən il oktyabr ayının 12-də dövlət başçısının iştirakı ilə alternativ enerji mənbəyi olan bu stansiyaların açılışı oldu və daha bir layihə uğurla başa çatdırıldı.

Kommunal xidmətlərin inkişafına dair Strateji Yol Xəritəsinə uyğun olaraq "Azərişıq" ASC-yə aid 3 strateji hədəf, 3 prioritet istiqaməti əhatə edən 11 tədbir üzrə müvafiq işlər tamamilə yerinə yetirilib.

"Azərişıq" ASC tərəfindən 2025-ci ilədək respublika üzrə elektrik enerjisinə olan tələbatın proqnoz göstəricilərinə dair məlumatlar hazırlanaraq, "Azərenerji" ASC ilə razılaşdırılıb, həmçinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən 2030-cu ilə qədər tikintisi nəzərdə tutulan obyektlərin elektrik enerjisinə olan tələbatının proqnoz göstəriciləri hazırlanaraq Energetika Nazirliyinin işçi qrupuna təqdim edilib. Bir sözlə, respublikanın bütün istehlakçılarının fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması istiqamətində "Azərişıq" ASC tərəfindən həyata keçirilən tədbirlər davam etdirilməkdədir.

Ölkəmiz Prezident İlham Əliyevin dəqiq müəyyənləşdirdiyi strateji hədəflər, düşünülmüş strategiya ilə elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilərək davamlı inkişafı ilə regionun lider dövləti statusuna sahib çıxıb. Dünya birliyinin etibarlı tərəfdaşı olan ölkəmizin adı inkişaf etməkdə olan dövətlər sırasında çəkilməsi isə bizə xüsusi qürur verir. Təbii ki, bu qürur hissi öncəliklə prezident İlham Əliyevin şəxsinə aiddir. Onun gərgin əməyi və səyləri nəticəsində müəyyənləşən yeni inkişaf konsepsiyası ölkəmizin enerji sektorunun da başabaş yenilənməsinə səbəb olub. Bu işdə az da olsa payımızın olması bizə sevinc hissi bəxş edir. Bugünkü işıqlı günlər, sevincli anlar dünyaya günəş kimi nur saçan möhtəşəm bir ölkənin - Azərbaycanın təntənəsidir.

***Tanrıverdi MUSTAFAYEV,***
***"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri***

# Mədəniyyət həm də iqtisadi inkişafın təminatçısıdır

## Prezident İlham ƏLİYEV: "...əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz"

Hər bir ölkənin tarixində, milli dəyərlərinin inkişafında mədəniyyət və incəsənətin xüsusi yeri var. Dövlət nə qədər öz ziyalısını uca tutarsa, mədəniyyət və incəsənətinin inkişafına dəyər verərsə, onun bütün istiqamətlərdə inkişaf potensialı artar, daha sivil, daha yüksək zövqlü cəmiyyətə çevrilmək imkanları yaranar. Bu baxımdan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə keçirdiyi görüş unikal və yaddaqalan vacib tədbir kimi xüsusi əhəmiyyət kəsb edir.



Dövlətin ali simaları ilə mədəniyyət işçilərinin görüşü Azərbaycanda o qədər də nadir təşkil edilən tədbirlərdən deyil. Müxtəlif zamanlarda görkəmli mədəniyyət və incəsənət xadimləri ilə yaddaqalan çoxsaylı görüşlər keçirilib. Geniş formatda keçirilən sonuncu tədbir isə yeni inkişaf mərhələsinə qədəm qoyan, bütün sahələrdə çox ciddi islahatlar həyata keçirən Azərbaycan üçün böyük önəm daşıyır. Əgər ölkəmizdəki islahatları yenilik, sistemli surətdə tətbiq edilən çevik mexanizmlər kimi təsəvvür etsək, əldə olunan yüksək nəticələri ötəri də olsa nəzərdən keçirsək, qısa müddət ərzində humanitar sahədə çox ciddi addımların atıldığını, sosial layihələrin geniş paketinin icrasına başlanıldığını görmək mümkündür. Bu baxımdan mədəniyyət və incəsənətin də qarşısında ölkədə aparılan islahahatların ruhuna müvafiq ideyaların və mövqelərin müzakirəsi və həlli zərurətə çevrilmişdir.

Prezident bu görüşdə mədəniyyətin inkişafında diqqət ayırdığı sahələri sadaladı, Milli Dram, Rus Dram, Gənc Tamaşaçılar və Musiqili teatrların əsaslı təmir olunduğunu, mədəniyyətimizin bütünlükdə paytaxtdan savayı, bölgələrdə də inkişaf etdiyini, rayon mərkəzlərində yeni teatrların tikilməsini, əsaslı təmir olunmasını qeyd etdi. Xatırlandı ki, Bakıda muzeylər tam təmir edilmiş, İncəsənət Muzeyinin iki binası və Xalça Muzeyi tikilmiş, müasir İncəsənət Muzeyi və digərləri fəaliyyətə başlamış, hər bir şəhərdə tarix-diyarşünaslıq muzeyləri yaradılmışdır. Bununla, Azərbaycana gələn hər bir əcnəbi, eyni zamanda ölkə vətəndaşları istənilən rayonda mədəniyyətimizin müxtəlif nümunələri ilə tanış olmaq imkanını qazanmışlar.

Həmçinin bildirildi ki, bütün ölkə ərazisində dini abidələr əsaslı şəkildə təmir olunmuş, ölkəmizin tarixinə qənirsiz memarlıq nümunəsi kimi həkk edlən yeni məscidlər tikilmişdir.

Tədbirdə dövlət başçısı bundan sonra görüləsi işlər barədə danışmağa mədəniyyət və incəsənət xadimlərini dəvət etdi: "...mən istəyirəm ki, bundan sonra mədəniyyət sahəsində işlər sistemli qaydada görülsün. Biz bu məsələlərlə bağlı siyasətimizi ardıcıl olaraq aparmalıyıq. Əlbəttə ki, sadəcə olaraq, mədəniyyət obyektlərinin tikintisi, təmiri bizim məqsədimizi tam ifadə edə bilməz. Biz bu məsələlərə daha da geniş kontekstdə baxmalıyıq".

Bununla, dövlət başçısı öz islahatçı mövqeyini ortaya qoymuş oldu və mədəniyyətin, incəsənətin inkişafının islahatların kökündə dayanmasının vacibliyini diqqətə çatdırdı, gənc nəslin milli ruhda tərbiyəsində, Azərbaycan gəncliyinin inkişafında mədəniyyət və incəsənət xadimlərinin fəaliyyətinin mühüm əhəmiyyət kəsb etməsini vurğuladı.

Milli-mənəvi dəyərlərimizin qorunması və təbliği bizə müasir dünya düzənində öz unikallığımızı təsdiq etməyə, digərlərindən fərqli cəhətlərimizi qabartmağa imkan verir. Biz xalq olaraq bənzərsizliyimizi dərk edirik, mənəvi zənginliklərimizlə öyünürük, dövlətimizə daha dərindən bağlanırıq, onun qorunması və inkişafı üçün daha məzmunlu və düşünülmüş addımlar atırıq. Eyni zamanda, öz-özümüzdən soruşuruq: gürcüdən, rusdan, ingilisdən, almandan, ya da çinli və yapondan fərqimiz nədədir? Biz hansı milli keyfiyyətlərimizi cilalamaqla daha böyük iqtisadi uğurlara imza ata bilərik?

Dövlət başçısı mədəniyyət və incəsənət xadimləri ilə görüşündə milli-mənəvi dəyərlərin, mədəniyyətin və incəsənitin ölkənin müstəqilliyinin əbədi təminatçısı rolunu oynamasını da məxsusi qeyd etdi. Öz böyüklüyünü və unikallığını dərk etməyən xalq müasir dünya düzənində də yerini tapmaqda, vacib qlobal məsələlərin həllində fərqli mövqe nümayış etdirmək əzmində olmur və aşınmalara məruz qalır. Prezident belə hesab edir ki, iqtisadi islahatları davamlı surətdə irəli aparmaq, uğurlardan maksimum faydalanmaq üçün bütün ölkədə hər bir vətəndaşın mədəni səviyyəsinin artması, onun düşüncə və davranışlarının müasirləşməsi vacibdir: "Buna nail olmaq üçün, əlbəttə ki, əsas amil bizim mədəniyyətimizdir, incəsənətimizdir, ədəbiyyatımızdır, ana dilimizdir, milli təfəkkürümüzdür". Dövlət başçısı belə hesab edir ki, bu məsələlərə daha da geniş kontekstdə baxmalıyıq: "Ümumiyyətlə, mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# "Qəzvin-Rəşt dəmir yolunun istifadəyə verilməsi "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin formalaşmasında dönüş nöqtəsi olacaq"

Bu sözləri AZƏRTAC-a müsahibəsində İranın yollar və şəhərsalma nazirinin müavini Şəhram Adəmnejad deyib. O bildirib ki, bu yolun istifadəyə verilməsi İran, Azərbaycan və Rusiya dəmir yolları sistemlərinin birləşməsini zərurətə çevirib.

İranın Astara və Azərbaycanın Astara şəhərləri arasında dəmir yolu əlaqəsi artıq var və Rusiya ilə İran Azərbaycan ərazisindən tranzit kimi istifadə edərək yükdaşımanı həyata keçirirlər. Lakin Qəzvin-Rəşt yolunun davamı olan Rəşt-Astara yolu da hazır olandan sonra Rusiya birbaşa İranın mərkəzi ilə nəqliyyat əlaqəsi yaradacaq.

Ş.Adəmnejad qeyd edib ki, Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin ona görə əsas hissəsi hesab olunur ki, bu yolla yüklərin çatdırılma müddəti 40, nəqliyyat xərcləri isə 30 faiz azalır: "Bu isə iş adamları və böyük şirkətləri maraqlandıran məsələdir. Ötən il "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinə daxil olan dəniz və avtomobil yolları ilə 17 milyon ton yükün daşınması təsadüfi deyil. Bu yüklərin bir qismi tranzit olaraq Azərbaycan ərazisindən keçib. Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu hazır olandan sonra isə bu göstərici 30 milyon tona qədər yüksələcək. Asiyadan yüklər yalnız İran və Rusiyaya deyil, birbaşa Avropaya daşınacaq".

Məsələnin texniki tərəfinə toxunan Ş.Adəmnejad diqqətə çatdırıb ki, əvvəlki marşrutdan fərqli olaraq İran və Azərbaycan ərazisindən daşınan tranzit yüklər təkrar boşaldılıb yüklənməyə məruz qalmayacaq. Fars körfəzi və Cənub-Şərqi Asiya ölkələrindən Bəndər-Abbas limanına daxil olan yüklər elə limandaca qatara yüklənəcək və birbaşa Avropaya daşınacaq. Bu isə rüsum və vergilərin azalmasına, vaxtın qənaət olunmasına imkan verəcək.

# Xüsusi qadın biznes inkubatorları yaradılacaq

Qadın sahibkarlığına dəstək məqsədilə xüsusi qadın biznes inkubatorlarının yaradılması nəzərdə tutulur. Bu barədə jurnalistlərə müsahibəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) idarə heyətinin sədri Orxan Məmmədov deyib.



KOBİA-nın idarə heyətinin sədri qeyd edib ki, ölkə iqtisadiyyatının aparıcı qüvvəsi olan sahibkarlığın, xüsusilə kiçik və orta biznesin inkişafı Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən siyasətin prioritet istiqamətlərindəndir. "Agentliyin yanında fəaliyyət göstərən İctimai Şurada Qadın Sahibkarlığın İnkişafı Assosiasiyası aktiv təmsil olunur, Azərbaycan-Almaniya Birgə Proqramı çərçivəsində biznesin idarə edilməsi sahəsində Almaniyada ixtisasartırma kursu keçmiş iştirakçıların təxminən 20 faizdən çoxunu qadın sahibkarlar təşkil edir. Ölkəmizdə qadın sahibkarlığın inkişafı məqsədilə həyata keçirilən tədbirlərin miqyası və əhatə dairəsi genişləndiriləcək. Qadın sahibkarlığın inkişafı, o cümlədən qadın sahibkarlar üçün maarifləndirmə və konsaltinq xidmətləri, kreditləşmə və digər güzəştləri nəzərdə tutan stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması Azərbaycanda qadınların iqtisadi təşəbbüskarlığının reallaşdırılması imkanlarını əhəmiyyətli dərəcədə artıracaq. Bu istiqamətdə layihə və proqramlar hazırlanan zaman xüsusilə regionlarımızda qadın məşğulluğu diqqət mərkəzində olacaq, qadın məşğulluğunun daha perspektivli istiqamətləri müəyyənləşdirilərək müvafiq tədbirlər görüləcək. Qadın sahibkarlığına dəstək məqsədilə xüsusi qadın biznes inkubatorların yaradılması da nəzərdən keçiriləcək. Bütün bunlar isə kiçik və orta sahibkarlar arasında qadınların sayını daha da artıracaq", - deyə O.Məmmədov əlavə edib.

# 2018-ci il Azərbaycanın neft-qaz sektorunda mühüm hadisələrlə zəngin oldu

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz jurnalistlər üçün brifinqdə ölkəmizdə həyata keçirilən mühüm neft-qaz və ixrac layihələri çərçivəsində keçən il görülmüş işlərdən və qarşıda duran vəzifələrdən söhbət açdı.



"Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi üzərində dayanan Q.Counz 2018-ci ildə sözügedən yataqlardan hasilatın ahəngdar və təhlükəsiz şəkildə davam etdiyini bildirdi. Belə ki, il ərzində AÇG-dən gündə orta hesabla 584 min barel, ümumilikdə isə 213 milyon barelə yaxın, yəni 29 milyon ton neft hasil edilib. İlin sonunda bu yataqlar blokunda 117 neft hasilatı quyusu, 44 su injektor quyusu və 7 qaz injektor quyusu istismarda olub, ümumilikdə 17 yeni quyu qazılıb.

Keçən il AÇG-nin əməliyyat xərcləri təqribən 505 milyon dollar, əsaslı xərcləri isə 1 milyard 150 milyon dollar təşkil edib.

İl ərzində AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə səmt qazının verilməsi də ahəngdar gedib. Terminala "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarından sualtı xətlərlə neft və qazın göndərilməsi uğurla davam edir.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin fəaliyyətindən bəhs edərkən BP-nin regional prezidenti 2006-cı ilin iyun ayından bu ilin əvvəlinədək bu boru xətti ilə ümumilikdə 417 milyon tondan artıq, yəni 3,12 milyard bareldən çox xam neft nəql edildiyini bildirib. Bu neft həcmləri Ceyhanda 4085 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

BTC-nin keçən il daşıdığı 34 milyon tondan çox xam neft isə Ceyhanda 327 tankerə yüklənib. Hazırda boru kəməri əsasən AÇG neftini və "Şahdəniz" kondensatını nəql edir. Bundan əlavə, kəmərə digər xam neft və kondensat həcmləri, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti də vurulur.

Keçən il "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələri üçün xüsusilə uğurlu olub. Qəri Counz bu barədə də ətraflı söhbət açıb. Bildirib ki, il ərzində "Şahdəniz"dən 11,5 milyard standart kubmetr qaz və 2,5 milyon ton (təqribən 20,5 milyon barel) kondensat hasil edilib. Beləliklə, yataqdan ümumi qaz hasilatının 100 milyard kubmetrə çatması qeyd olunub. Mövcud "Şahdəniz" qurğularının hasilat gücü hazırda gündə 48 milyon (ildə təqribən 16 milyard) standart kubmetrdir.

Mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılışı olduğunu xatırladan Q.Counz iyunun 30-da "Şahdəniz-2" layihəsindən Türkiyəyə ilk kommersiya məqsədli daşımaların başlandığını qeyd etdi. Hazırda "Şahdəniz Bravo" qurğularından qaz və kondensatın terminala, oradan da dünya bazarlarına nəqli davam edir.

Əməliyyatçı şirkətin prezidenti Xəzərdə aparılan geoloji-kəşfiyyat işlərinə, həyata keçirdikləri sosial layihələrə də toxundu və sonda jurnalistləri maraqlandıran sualları cavablandırdı.

***"Azərbaycan"***

# Qeyri-neft sənayesi investisiya sarıdan korluq çəkmir

## Təkcə ilin ilk ayında bu sektora 506,7 milyon manat sərmayə yönəldilmişdir

Sadə bir fakt: son 15 ildə Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə 250 milyard dollar sərmayə yatırılıb və bunun nəticəsində ölkə üzrə ümumi daxili məhsul istehsalı 3,3, o cümlədən qeyri-neft sektorunda məhsul istehsalı 2,8, sənaye potensialımız 2,6 dəfə artıb. Bu faktlar bir daha sübut edir ki, kapital qoyuluşu iqtisadi inkişafı təmin edən əsas alətdir.



Azərbaycanda həyata keçirilən uğurlu investisiya siyasəti səmərəliyinə görə xarici sərmayədarları bu gün də özünə cəlb edir. Belə olmasaydı, dünyada baş verən siyasi və iqtisadi qarşıdurmalar dövründə ölkəmizin iqtisadiyyatına xarici kapital qoyuluşu davam etməzdi. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu barədə demişdir: "Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulub. Çox böyük rəqəmdir və ən sevindirici hal ondan ibarətdir ki, bu sərmayənin 11 milyard manatı, ondan da çoxu ölkəmizin qeyri-neft sektoruna qoyulan sərmayədir. Yəni, bu, onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir. Dünya Bankının son hesabatında bizim 25-ci yerə qalxmağımız hesab edirəm ki, sərmayə qoymaq istəyənləri daha da həvəsləndirəcək və ölkəmizə daha çox sərmayə qoyulacaqdır".

Başqa bir fakt: bugünədək ölkə sahibkarlarına 2,2 milyard manat məbləğində güzəştli kreditlər verilib. Təkcə ötən il bu məbləğ 160 milyon manat olub. Cari ildə də sahibkarlara güzəştli kreditlərin verilməsi davam edəcək. Güzəştli kreditlərin yenə də əsasən qeyri-neft sektoruna, xüsusilə kənd təsərrüfatına ayrılması nəzərdə tutulur.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar ayında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 868,7 milyon manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,5 faiz az vəsait yönəldilib. Bu azalma neft sektoruna yatırılmış investisiyaların həcminin aşağı düşməsi ilə bağlıdır. Əvəzində həmin dövrdə qeyri-neft sektoruna yönəldilən vəsaitin həcmi 1,2, o cümlədən qeyri-neft sənayesinə qoyulan investisiyalar 1,9 faiz artıb. Ümumi sərmayənin 579,4 milyon manatı məhsul istehsalı, 200,9 milyon manatı xidmət sahələri obyektlərinin, 88,4 milyon manatı ümumi sahəsi 130,1 min kvadratmetr olan yaşayış evlərinin tikintisinin payına düşüb.

İlin ilk ayında ümumi sərmayənin 21,9 faizi dövlət, 78,1 faizi qeyri-dövlət sektorlarının sərmayədarları tərəfindən qoyulub. Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin dəyəri ümumi sərmayənin 66,6 faizini təşkil edib.

Xarici sərmayələrə gəldikdə, yanvarda xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilən 290,5 milyon manat vəsaitin 90,9 faizi (263,9 milyon manatı) Birləşmiş Krallıq, İsveçrə, Türkiyə, Malayziya, ABŞ, Yaponiya, İran, Rusiya, Çexiya və Norveç səhmdarlarına məxsus olub.

Əsas kapitala yönəldilən sərmayədə müəssisə və təşkilatların vəsaitləri 731 milyon, bank kreditləri 43,9 milyon, büdcə vəsaitləri 35,6 milyon, büdcədənkənar fondların vəsaitləri 7 milyon, əhalinin şəxsi vəsaitləri 51 milyon, digər vəsaitlər isə 0,2 milyon manat təşkil edib.

Yanvar ayında qeyri-neft sektorunun inkişafına sərf edilən 506,7 milyon manatlıq vəsaitin 74,4 milyon manatı qeyri-neft sənayesi sektorunda istifadə olunub. Həmin dövrdə əsas kapitala yönəldilən ümumi vəsaitin 50,2 faizi sənaye, 21,6 faizi tikinti, 10,2 faizi nəqliyyat, anbar təsərrüfatına və digər sahələrə sərf edilib. İcra edilən inşaat işlərinin 81 faizi qeyri-dövlət tikinti müəssisələri tərəfindən yerinə yetirilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# İntellektual kapitalın yaradılmasına dəstək

İnnovativ texnosahibkarlıq konsepsiyalarının və layihələrinin inkişafına dəstək olaraq hər il Bakı Mühəndislik Universitetinin təşkilatçılığı ilə "Yeni Fikir" startap müsabiqəsi keçirilir.

BP şirkəti tələbələr arasında keçirilən innovativ texnologiya və biznes ideyalarının və startapların təşviqinə yönəlmiş müsabiqəyə dəstək verdiyini elan edib.

Bu, altıncı müsabiqədir və iki əsas məqsəd daşıyır. Belə ki, tədbir yeni ideyaların və layihələrin formalaşması və inkişafı, eləcə də mövcud startapların güclənməsi və təkmilləşməsinə yönəldilir. Bu məqsədlərə nail olmaq üçün BP-nin maliyyələşdirdiyi layihə çərçivəsində müsabiqədən əvvəl və sonra mentorluq, təlimlər və seminarların həyata keçirilməsi planlaşdırılır. Şirkət həmçinin rəqəmsal avadanlıqlar və proqram təminatı ilə təchiz edilmiş inkubasiya və akselerasiya mərkəzi də yaradacaq.

Müsabiqədə beş ən yaxşı ideya və layihə seçilərək qalib elan ediləcək.

Layihənin dəyəri təxminən 118 min manatdır və o, səkkiz ay, yəni, bu ilin oktyabr ayına qədər davam edəcək.




# Ankara və İstanbul şəhərlərində böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubiley tədbirləri keçirilir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin keçirilməsi haqqında" 16 noyabr 2018-ci il və "Azərbaycanda 2019-cu ilin "Nəsimi ili" elan olunması haqqında" 11 yanvar 2019-cu il tarixli sərəncamlarına müvafiq olaraq Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə 2019-cu il TÜRKSOY Beynəlxalq Təşkilatı tərəfindən "Nəsimi ili" elan olunmuşdur.*





TÜRKSOY Beynəlxalq Təşkilatı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə razılaşdıraraq 2019-cu il martın 6-7-də Türkiyənin Ankara və İstanbul şəhərlərində Azərbaycan Mədəniyyət Nazirliyi və Milli Kitabxana ilə birlikdə "Nəsimi ili"nin rəsmi açılış mərasimini keçirməyi qərara almışdır.

Martın 6-da "Nəsimi ili"nin rəsmi açılış mərasimi TÜRKSOY-un qərargahında Azərbaycan Milli Kitabxanasının fondlarında mühafizə olunan və məxsusi olaraq rəsmi açılış mərasimində nümayiş olunmaq məqsədilə Ankaraya aparılan Nəsiminin əsərlərindən və dahi şair haqqında nəşr olunan kitablardan ibarət "İmadəddin Nəsimi - 650" mövzusunda geniş kitab sərgisinin təqdimatı ilə başlamışdır.

Sərginin açılışını bildirən qırmızı lent kəsildikdən sonra Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov qonaqları sərgidə nümayiş olunan qiymətli kitablarla tanış edərək Nəsiminin XV əsrə aid əlyazmalarının surətlərini, dahi şairin 1844-cü və 1881-ci illərdə Türkiyədə nəşr olunmuş ilk çap kitablarını, 1926-cı ildə Bakıda nəşr olunmuş ilk əsərini, Nəsiminin dünya xalqlarının dillərinə tərcümə olunaraq müxtəlif ölkələrdə çap edilmiş əsərlərini, Azərbaycan Prezidentinin sərəncamı ilə nəfis tərtibatla çap olunmuş 2 cildliyini və başqa kitabları qonaqlara təqdim etmişdir.

Sonra isə TÜRKSOY-un böyük konfrans zalında "Nəsimi ili"nin rəsmi açılış mərasimi baş tutmuşdur.

Tədbiri giriş sözü ilə açan TÜRKSOY-un Baş katibi D.Kaseinov 2019-cu ilin türkdilli ölkələr üçün "Nəsimi ili" elan olunması haqqında qərar Azərbaycan Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə ötən ilin dekabrında TÜRKSOY-a daxil olan ölkələrin Mədəniyyət Nazirləri Şurasının qərarı ilə Türkiyənin Kastamonu şəhərində qəbul edildiyini bildirmişdir. D.Kaseinov qeyd etmişdir ki, hər il TÜRKSOY-a daxil olan 2 ölkənin görkəmli ədəbiyyat və mədəniyyət xadiminə həsr olunmuş illərin keçirilməsi artıq ənənə halını almışdır və bu sırada Azərbaycan xüsusi rol oynayır. Çıxışının sonunda cənab Kaseinov Nəsimiyə həsr olunmuş tədbirlərin 2019-cu il ərzində Azərbaycan Milli Kitabxanası ilə Bişkekdə, Astanada, Daşkənddə, Bakıda və digər şəhərlərdə də keçiriləcəkləri tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Türkiyə Respublikasının Prezidentinin baş müşaviri Yalçın Topçu çıxışında Azərbaycanın görkəmli mütəfəkkiri, böyük şair İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş tədbirlərin Ankara və İstanbul şəhərlərində keçirilməsindən fəxarət hissi keçirdiyini bildirmiş və Azərbaycan xalqının böyük şairi İmadəddin Nəsiminin əsərlərinin türk vətəndaşları tərəfindən sevilərək oxunduğunu söyləmişdir.

Azərbaycan Respublikasının mədəniyyət naziri cənab Əbülfəs Qarayev çıxış edərək 2019-cu ilin "Nəsimi ili" elan olunmasına görə Beynəlxalq Türk Mədəniyyəti təşkilatı TÜRKSOY-a və onun baş direktoru professor Düsen Kaseinova Azərbaycan Respublikası adından minnətdarlığını bildirərək belə tədbirlərin uzun müddət biri-birindən uzaq düşmüş türkdilli xalqları daha da yaxınlaşdırdığını və onların mədəniyyətini, ədəbiyyatını və adət-ənənələrini daha da doğmalaşdırdığını bildirmişdir. Nazir qeyd etmişdir ki, biz hər dəfə həm Bakıda, Ankarada və İstanbulda, həm də digər türkdilli ölkələrdə belə tədbirlərdə iştirak etdikcə ədəbiyyatlarımızın, mədəniyyətlərimizin və adət ənənələrimizin daha böyük inteqrasiyasına və qarşılıqlı zənginləşməsinə kömək etmiş oluruq.

Dahi Azərbaycan şairinə gəldikdə isə deyə bilərəm ki, Nəsiminin yaradıcılığı və şəxsiyyəti Azərbaycanda çox yüksək qiymətləndirilir və onun doğma xalqına yenidən qayıdışı xalqımızın böyük oğlu, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz 1970-ci illərdə ulu öndər Heydər Əliyev böyük Nəsiminin 600 illik yubileyinin ilk dəfə dövlət səviyyəsində qeyd olunmasına və hətta bu yubileyin UNESCO-da da layiqincə qeyd olunmasına nail ola bilmişdir ki, sovet dövründə bu hadisə böyük inqilab hesab oluna bilərdi. Azərbaycan mədəniyyətinə, milli-mənəvi dəyərlərimizə böyük önəm verən hörmətli Prezident İlham Əliyev böyük Nəsiminin yaradıcılığına və poeziyasına yüksək dəyər verərək onun əsərlərinin dəfələrlə ölkəmizdə yüksək tirajla və nəfis bədii tərtibatla çap olunmasını təmin etmiş, dahi Nəsiminin 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasına, 2019-cu ilin bütövlükdə Azərbaycanda "Nəsimi ili" elan olunması barədə tarixi sərəncamlar imzalamışdır.

Türkiyə Respublikası Mədəniyyət və Turizm nazirinin müavini Ahmet Haluk Dursun çıxış edərək Azərbaycan və türk dövlətləri arasındakı qarşılıqlı ədəbi, mədəni əlaqələrdən və türkdilli Azərbaycan poeziyasının ən böyük ustadı və korifeylərindən olmuş Nəsiminin zəngin yaradıcılığı haqqında geniş söhbət açmışdır.

Sonra böyük şairin həyat və yaradıcılığını əks etdirən film nümayiş olunub.

Sonra Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov çıxış edərək Azərbaycan, fars və ərəb dillərində çoxsaylı orijinal əsərlərin müəllifi olan Nəsiminin, xüsusilə poeziya və ədəbi dilin inkişafında əvəzsiz xidmətləri olduğunu, yaradıcılığının dilçilik, eləcə də Azərbaycan türkcəsinin tarixini öyrənmək baxımından böyük əhəmiyyətə malik olduğunu bildirmişdir.

Daha sonra Milli Kitabxananın direktoru professor Kərim Tahirov Nəsimi yaradıcılığının Azərbaycan ədəbiyyatının inkişafında oynadığı roldan, onun dünya ədəbiyyatı xəzinəsinə gözəl poeziya nümunələri bəxş etməsindən, Azərbaycandan, bütün Şərqdən və Orta Asiyadan başlamış dünyanın hər bir bucağında sevilərək oxunan mütəfəkkir, filosof şair kimi məşhurlaşmasından danışmışdır.

Professor çıxışında Nəsiminin əsərlərinin bir sıra dillərdə - ingilis, alman, rus, türk, fransız, polyak və s. dillərə tərcümələrinin dünyanın müxtəlif kitabxanalarında olduğunu xüsusilə qeyd etmiş, eyni zamanda 2019-cu il ərzində Azərbaycan və bütün dünyada Nəsiminin yubileyi ilə əlaqədar keçirilən tədbirlərin daha geniş arealda tanınmasına və əsərlərinin geniş miqyasda nəşr olunmasına vüsət yaradacağını söyləmişdir.

Tədbirdə türk alim və tədqiqatçıları professor Dr. Mustafa İsen və professor Dr. Ahmet Bican Ercilasun İmadəddin Nəsiminin yaradıcılığı haqqında geniş çıxışlar etmişlər.

Tədbirin sonunda qiraət ustaları tərəfindən İmadəddin Nəsiminin qəzəlləri və əməkdar artist Feyruz Səxavətin rəhbərliyi ilə tarzən, əməkdar artist Əliağa Sədiyev və kaman ifaçısı Xəyyam Məmmədovdan ibarət muğam üçlüyünün ifasında Nəsiminin sözlərinə yazılmış musiqilər səsləndirilmişdir.

*"Azərbaycan"*

# Qəbələ - 2500 yaşlı paytaxt şəhərimiz

Miladdan əvvəl V-IV əsrlərdən başlayaraq əvvəlcə ölkənin iqtisadi və mədəni həyatında, daha sonra isə həm də siyasi həyatında çox mühüm rol oynayan, eramızın I əsrindən etibarən yazılı mənbələrdə adıçəkilən Qəbələ qədim Azərbaycan dövləti olan Albaniyanın ilk paytaxt şəhəri olub. Alban hökmdarlarının baş iqamətgahı orada yerləşib.



I əsr müəllifi Böyük Pilininin "Təbii tarix" əsərində "Kabalaka", II əsr müəllifi Klavdi Ptolemeyin "Coğrafiya dərsliyi" əsərində "Xabala" kimi adı çəkilən Qəbələnin adı orta əsr mənbələrində də tez-tez xatırlanıb.

70 hektardan çox ərazini əhatə edən qədim Qəbələ şəhərinin qalıqları Qəbələ rayonunun Çuxur Qəbələ kəndi yaxınlığında yerləşir. Xatırladaq ki, qədim şəhər yeri Qala, Səlbir və Güllütala adı ilə bəlli olan üç əsas hissədən ibarətdir. Qaraçayla Qoçalan çayları arasında Antik Qəbələ adı ilə tanınan Güllütala ərazisində aparılmış uzunmüddətli arxeoloji və tədqiqatlar nəticəsində e. ə. IV əsrdən başlayaraq eramızın I əsrinin sonlarınadək intensiv şəhər həyatı olduğu sübuta yetirilmişdir. Şəhərin Səlbir adlanan hissəsində I-X əsrlərə, Qala ərazisində I-XVII əsrlərə aid bir neçə metr qalınlığında zəngin mədəni təbəqə olduğu müəyyən edilmişdir. Güllütala adlanan antik şəhər yerində həyat kəsildikdən sonra Səlbir və Qalada həyat başlanıb. X əsrdən etibarən isə şəhərin ancaq Qala hissəsində həyat davam edib.

1926-cı ildən başlayaraq Qəbələdə davamlı olaraq arxeoloji tədqiqatlar aparılır. 2009-cu ildən etibarən Azərbaycan arxeoloqları ilə yanaşı, Cənubi Koreya alimləri də Qəbələ tarixinin arxeoloji cəhətdən araşdırılmasında bilavasitə iştirak edirlər. Çoxillik və genişmiqyaslı tədqiqatlar nəticəsində qədim paytaxt şəhərinin tarixinin bir sıra çox mühüm istiqamətlərinə dair, o cümlədən Qəbələnin ən azı eramızdan əvvəl V əsrdən etibarən şəhər kimi mövcudluğunu təsdiqləyən zəngin tapıntılar əldə olunub. Bu tapıntılar Azərbaycanın qədim dövlətçilik tarixinin və şəhər mədəniyyəti ənənələrinin dərindən və hərtərəfli öyrənilməsi baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Qəbələnin yaşını və dövlətçilik tariximizdəki yerini müəyyənləşdirmək baxımından Antik Qəbələ adı ilə tanınan ərazidə aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş bir neçə çox mühüm ictimai bina qalığını xüsusi olaraq qeyd etmək istərdik. Bunlardan birincisi, ötən əsrin 60-70-ci illərində aşkar olunan və sahəsi 587 kvadratmetr olan ictimai binanın qalıqlarıdır. Bünövrə hissəsi çay daşı, divarları çiy kərpiclə hörülmüş bu binanın üstü iri ölçülü saxsı kirəmitlərlə örtülüb. Xatırladaq ki, iri ölçülü saxsı kirəmitlərlə örtülən belə nəhəng ictimai bina o dövr üçün nəinki Cənubi Qafqaz, bütövlükdə Avrasiya məkanı üçün nadir tikinti hesab olunurdu.

Sonralar Antik Qəbələdə tədqiqatlar davam etdirilərkən daha bir neçə möhtəşəm tikili də aşkar olundu. Qədim Yunanıstandakı ippodromları, Roma anfiteatrları və Misirin İskəndəriyyə şəhərindəki məktəb binalarını xatırladan üç ədəd oval formalı nəhəng tikinti xüsusi olaraq böyük maraq doğurur. Məlumat üçün bildirək ki, hələlik nə Qafqazda, nə də Yaxın və Orta Şərqdə antik dövrə aid bunlara bənzər tikili qalıqları tapılmamışdır.

Antik Qəbələnin alt mədəni təbəqəsi öyrənilərkən orada e.ə. IV-III əsrlərə aid çox nəhəng ərzaq anbarının qalıqları aşkar olunub. Anbarda 200 ədəddən çox irihəcmli təsərrüfat küpü sıra ilə boğaz hissəyə qədər yerə basdırılmışdır. Tədqiqatçıların fikrincə, həmin küplərdə əvvəlcə çaxır, daha sonra qoz, fındıq və taxıl saxlanılmışdır. Buradan da belə nəticə hasil olur ki, qəbələlilər indi olduğu kimi, 2500 il bundan əvvəl də taxılçılıq, heyvandarlıq, bağçılıq, üzümçülük və şərabçılıqla məşğul olmuşlar. Maraqlıdır ki, Cənubi Qafqazın digər yerlərində hələlik buna bənzər abidə aşkar edilməyib. Belə nəhəng ərzaq anbarının mövcudluğu, sözsüz ki, Qəbələnin hələ e.ə. IV əsrdə böyük şəhər olduğundan xəbər verir. Çünki belə ümumşəhər əhəmiyyətli nəhəng ərzaq anbarları yalnız və yalnız böyük şəhərlərdə ola bilərdi.

Antik Qəbələdə axtarışlar zamanı iri tikintilərlə yanaşı, şəhərin təsərrüfat, məişət və mədəni həyatını əks etdirən çoxsaylı digər maddi mədəniyyət qalıqları da aşkar olunmuşdur. Tapıntılar içərisində rəngarəng çeşidli keramika məmulatı, nəfis bəzək əşyaları, Roma, Parfiya və Albaniyada kəsilmiş gümüş pullar, Gürcüstanda zərb olunmuş qızıl pul, ticarət və mədəni əlaqələr yolu ilə gətirilmiş nadir əşyalar da tapılmışdır. Şəhər yaxınlığında tapılmış dəfinələrdən birində isə 700-dən çox gümüş sikkə qeydə alınmışdır. Dəfinədəki ən qədim gətirilmə sikkələr Makedoniyalı İskəndərin draxmaları və Frakiya çarı Lisimaxın tetradraxmalarıdır. Gətirilmə sikkələrin böyük bir qismi e.ə. 187-129-cu illərdə hakimiyyətdə olmuş Selevki hökmdarlarının tetradraxmalarıdır. Dəfinədəki sikkələr arasında bir neçə Parfiya sikkələri və 5 Yunan-Baktriya tetradraxması da qeydə alınıb. Dəfinədəki yerli alban pullarından 3-ü Selevki tetradraxmalarına, 500-dən çoxu Makedoniyalı İskəndərin draxmalarına bənzədilməklə zərb olunub. Həmin tapıntılar sübut etdi ki, bəzi antik müəlliflərin guya albanların pul tanımadığı və yalnız natural mübadilə vasitəsilə həyat sürdüyü barədə yazdıqları həqiqət deyil. Başqa sözlə, albanlar, nəinki pul tanıyırdı, hətta özlərinin zərb etdiyi pullar da kifayət qədər idi. Bütün bunlar isə Antik dövrdə Qəbələdə kifayət qədər yüksək inkişaf səviyyəsi ilə səciyyələnən izdihamlı şəhər həyatı olduğundan xəbər verir.

Qəbələ Antik dövrdə olduğu kimi, orta əsrlərdə də çox mühüm ticarət və sənətkarlıq mərkəzi olaraq qalmaqda idi. Arxeoloji qazıntılar zamanı tapılmış zəngin maddi mədəniyyət nümunələri orada daşişləmə, metalişləmə, sümükişləmə, ağacişləmə, dulusçuluq, şüşə istehsalı, zərgərlik, boyaqçılıq, dabbaqlıq, toxuculuq və bir sıra digər sənət sahələrinin geniş inkişafından xəbər verir. Bütün bunlar Qəbələnin orta əsrlərdə həm də ətraf yaşayış məntəqələrinin əhalisinin sənətkarlıq məhsullarına olan ehtiyaclarını ödəyən çox mühüm ticarət və sənətkarlıq mərkəzi olduğuna dəlalət edir.

Maraqlıdır ki, tədqiqatlar zamanı Qəbələnin Qala və Səlbir ərazilərində də Antik dövrə aid tapıntılar aşkar olunmuşdur. Məsələn, 1974-1978-ci illərdə Səlbirin cənub-qərb küncündə tədqiqat aparılarkən orada eradan əvvəl I əsrə aid çay daşından inşa edilmiş möhtəşəm qala bürcü aşkar edilmişdir. Hündürlüyü 14 metr olan və XI əsrədək şəhərin müdafiə sisteminə xidmət etmiş bu düzbucaq formalı bürc yonulmuş çay daşı və əhəng məhlulu ilə tikilib, daha sonra səliqə ilə yonulmuş tuf daşdan üzlük vurulub. Qeyd olunan bürcdən bir qədər şimal tərəfdə tədqiqatlar davam etdirilərkən isə e.ə. I əsrə aid edilən, uzunluğu 35 metr, hündürlüyü 1 metr, qalınlığı 2,4 metr olan daha bir divar qalığı aşkar olunmuşdur.

2008-2009-cu illərin tədqiqatları zamanı isə şəhərin Qala adlanan ərazisinin cənub-şərq tərəfində, Govurlu çayının kənarında e.ə. I - birinci eranın I əsrlərinə aid qala divarının qalıqları aşkar olunub. 2010-cu ildə Cənubi Koreyadan olan mütəxəssislər şəhərin Səlbir ərazisinin şimal və qərb kənarlarında analoji divar qalıqları üzə çıxarıblar. Bu tapıntılar bir daha deməyə əsas verir ki, "Albaniyanın baş şəhəri" olan Qəbələnin adının Antik mənbələrdə çəkildiyi dövrdə Səlbir və Qala ərazisində ətrafı möhtəşəm qala divarları ilə möhkəmləndirilmiş şəhər mövcud olub.

Bəzi tədqiqatçılar paytaxtın (əslində isə mərzbanın iqamətgahının) Bərdəyə köçürülməsini 461-ci ildə Sasanilər tərəfindən mərzbanlıq üsul-idarəsinin tətbiqi nəticəsində ölkənin iqtisadi və siyasi həyatında Bərdənin rolunun artması, Qəbələnin mövqeyinin zəifləməsi ilə əlaqələndirməyə səy ediblər. Halbuki bu cür düşünmək üçün heç bir ciddi elmi əsas yoxdur. Yəni çoxillik arxeoloji tədqiqatlar göstərir ki, Qəbələdə V əsrdən sonra da intensiv şəhər həyatı davam edib. Şəhərin Qala və Səlbir hissəsində aşkar edilən ən möhtəşəm tikintilər, o cümlədən bu günədək öz əzəmətini qoruyub saxlayan cənub qala divarları və bürcləri də məhz V əsrdən sonrakı dövrdə inşa edilib. Arxeoloji materialların təhlili göstərir ki, V əsrdən sonrakı dövrdə Qəbələnin dünyanın bir çox ölkələri və iri ticarət mərkəzləri ilə mədəni-iqtisadi əlaqələrinin miqyası da nəzərəçarpacaq dərəcədə genişlənib. Şəhər xarabalıqlarında və onun ətrafında aparılan tədqiqatlar zamanı tapılmış çoxsaylı sikkələr, Çindən, İrandan, Roma imperiyasından gətirilmiş rəngarəng çeşidli maddi mədəniyyət nümunələri də bunu təsdiq edir.

Xatırladaq ki, IV-VII əsrlərdə Qəbələnin ticarət əlaqələrində daha çox Sasani pullarından istifadə olunub. VIII əsrdən başlayaraq şəhərin ticarət dövriyyəsində ərəb pullarının xüsusi çəkisinin artdığı müşahidə olunur. Bunlarla yanaşı, Qəbələ və onun ətrafından çoxsaylı yerli pullar da tapılmışdır. Bu isə Qəbələnin Albaniyanın digər şəhərləri və şəhər tipli iri yaşayış məntəqələri ilə olan qızğın ticarət əlaqələrinin mövcudluğuna dəlalət edir. Bütün bunlar onu göstərir ki, Sasani mərzbanının iqamətgahının Bərdəyə köçürülməsi heç də Qəbələnin ölkənin əsas şəhəri olmaq funksiyasını itirməsinin nəticəsi kimi izah oluna bilməz. Əksinə, həm yazılı mənbələr, həm də arxeoloji tədqiqatların nəticələri Qəbələnin V əsrdən sonrakı dövrdə də intensiv inkişafından, ölkənin iqtisadi, mədəni və siyasi həyatında onun daha fəal iştirakından xəbər verir. Elə isə mərzbanlığın mərkəzi hansı zərurət nəticəsində ölkənin əsas şəhərindən aran ərazidə yerləşən Bərdəyə köçürülüb? Fikrimizcə, bu, hər şeydən öncə, Mehranilərin timsalında Girdiman vilayətinin hərbi-siyasi cəhətdən güclənməsi və faktiki olaraq onun Sasani İranından asılı olmaması ilə əlaqədardır. Sonda Qəbələnin tarixi ilə bu və ya digər dərəcədə məşğul olanlara onu da xatırlatmaq istərdik ki, 461-ci ildə qədim Azərbaycan dövləti olan Albaniyanın paytaxtı deyil, sadəcə Sasani mərzbanının iqamətgahı Qəbələdən Bərdəyə köçürülüb. Qəbələ ayrı-ayrı tarixi dövrlərdə Sasani və Bizans imperiyaları, Ərəb xilafəti və Xəzər xaqanlığı ordularının, habelə şimaldan köçərilərin Albaniya ərazilərinə olan dağıdıcı hücum və basqınları zamanı dəfələrlə çox ciddi dağıntılara məruz qalıb. Monqolların, Teymurilərin və Qızıl Orda birləşmələrinin Albaniyaya olan yürüşləri və ərazidə baş vermiş hərbi toqquşmalar zamanı Qəbələyə dəfələrlə çox ciddi ziyan dəyib. Lakin bütün bu dağıntılara baxmayaraq, şəhər yenidən dirçələrək XVIII əsrin əvvəllərinədək ölkənin iqtisadi, siyasi, hərbi, dini və mədəni həyatında mühüm rol oynamaqda davam edib.

Əfsuslar olsun ki, Azərbaycan Çar Rusiyası və Sovet imperiyasının tərkibində olduğu illərdə də Qəbələ dəfələrlə çox ciddi dağıntılara məruz qalıb. Sovet hakimiyyətinin ilk illərində şəhərin cənub qala divarları rus hərbçiləri tərəfindən partladılıb. 1977-ci ildə Qəbələ radiolokasiya stansiyası tikilərkən milliyyətcə erməni olan mütəxəssislər tərəfindən yüksək gərginlikli elektrik xəttinin bilavasitə qədim şəhər ərazisindən keçməsi layihələşdirilib. Arxeoloq alimlərin ciddi etirazlarına baxmayaraq, şəhər ərazisinə ağır texnika gətirilərək orada bir neçə yerdə elektrik dirəkləri üçün yer qazılıb, beləliklə də qədim şəhər növbəti dəfə çox ciddi dağıntı qarşısında qalıb.

Lakin ümummilli lider Heydər Əliyev Qəbələ ətrafında baş verənləri dərindən araşdıraraq, məsələni Azərbaycan KP MK-nın büro iclasının müzakirəsinə çıxarmaq barədə tapşırıq verib. Ulu öndərin tapşırığı ilə təşkil olunmuş Dövlət Komissiyasının hazırladığı arayış Mərkəzi Komitənin 17 yanvar 1978-ci il tarixli iclasında geniş müzakirə olunub və abidənin qorunmasına laqeyd münasibət göstərən cavabdeh şəxslər ciddi cəzalandırılıb, az sonra isə Qəbələ respublika hökumətinin qərarı ilə Dövlət qoruğu elan olunub. Şəhəri sel sularının dağıdıcı təsirindən xilas etmək məqsədilə beton bəndlər tikilib. Ölkə rəhbərliyinin birbaşa qayğısı sayəsində Qəbələdə arxeoloji tədqiqatların yeni mərhələsi başlanıb.

Ötən əsrin 80-ci illərinin ortalarından başlayaraq ölkədə hökm sürən xaos və hərcmərclik zamanı Azərbaycanın digər yerlərində olduğu kimi, Qəbələdə də arxeoloji tədqiqatlar dayandırılıb. Yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra orada yenidən elmi axtarışlara start verilib.

Minnətdarlıq hissi ilə bildiririk ki, bu gün qədim paytaxt şəhərimiz olan Qəbələ bir növ Cənubi Qafqazın ən geniş və ən müasir arxeoloji tədqiqatlar laboratoriyasına çevrilib. Ölkə Prezidenti cənab İlham Əliyevin xeyir-duası ilə 22 sentyabr 2014-cü ildə açılışı olan Qəbələ Arxeoloji Mərkəzi bu gün uğurla fəaliyyət göstərməkdədir. Qəbələ Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Qədim İpək Yolu üzərində yerləşən bu tarixi məkanın hər bir guşəsində ən müasir xidmət infrastrukturlarının mövcudluğu, yeni salınmış yollar, körpülər və istirahət ocaqları təbiəti etibarı ilə Cənubi Qafqazın mirvarisi olan qədim Qəbələni daha da cazibədar edib. Azərbaycan Respublikası Prezidentinin sərəncamları, göstərişləri, qayğı və tövsiyələrinə uyğun olaraq həyata keçirilən tədbirlər sayəsində son illər qədim Qəbələ ilə müasir Qəbələnin qeyri-adi, özü də son dərəcə uğurlu harmoniyası timsalında Cənubi Qafqazda həm də insanları getdikcə daha çox özünə cəlb edən ecazkar arxeoloji-turizm mərkəzi formalaşıb. Səkkiz yüz ildən artıq bir müddət ərzində Albaniyanın - qədim Azərbaycan dövlətinin baş şəhəri - paytaxtı olmuş qədim Qəbələ ən azı 2500 ildir ki, xalqımızın zəngin və şərəfli tarixini özündə yaşadır. Odur ki, bu şərəfli tarixi əbədiləşdirmək, onu daha dərindən və hərtərəfli araşdırmaq naminə Qəbələnin 2500 illiyini dövlət səviyyəsində qeyd etmək ümumi işin xeyrinə olar. Bu, Qəbələnin timsalında Azərbaycanın qədim tarixini, zəngin mədəni irsini və bugünkü dinamik inkişafını növbəti dəfə bütün dünyaya nümayiş etdirmək yolunda uğurlu bir addım olar.

Bu barədə aidiyyəti qurumlara da dəfələrlə həm şifahi, həm də yazılı müraciətlərim olub. Amma nədənsə bu sahəyə bilavasitə cavabdeh olan rəsmilərdən hələ də heç bir reaksiya yoxdur. Azərbaycanın birbaşa dövlətçilik tarixi ilə bağlı olan bu dərəcədə vacib və həssas məsələyə olan biganə münasibəti heç cür anlamaq olmur. Əmin olmaq istərdik ki, rəsmi dövlət qəzetinin bu mövzunu yenidən gündəmə gətirməsi daha nəticəsiz qalmayacaq.

***Qafar CƏBİYEV,***
***AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu Qəbələ arxeoloji ekspedisiyasının rəhbəri, tarix elmləri doktoru***

# Şamaxıda zəlzələ zamanı evləri qəzalı vəziyyətə düşmüş sakinlər üçün çoxmənzilli bina tikilir







Şamaxı şəhərinin 20 Yanvar küçəsində evləri zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş sakinlər üçün çoxmənzilli binanın inşasına başlanıb. Hazırda burada bünövrə işləri görülür.

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə rayon fövqəladə hallar komissiyasının sədr müavini Rüstəm Əliyev məlumat verib. O bildirib ki, Prezident İlham Əliyev zəlzələdən dərhal sonra Şamaxıya gələrək vəziyyətlə yerində tanış olub, sakinlərlə görüşüb və qəzalı vəziyyətə düşən evlərin yenidən tikintisi və ya bərpası ilə əlaqədar tapşırıqlar verib. Dövlət başçısının verdiyi tapşırıqların icrası istiqamətində hazırda rayonda ardıcıl, planlı tədbirlər davam edir. Artıq bir neçə evin inşası başa çatdırılır. Daha 7 evdə inşaat işləri aparılır. Bununla yanaşı, 20-yə yaxın evin sökülməsi nəzərdə tutulur.

Rüstəm Əliyev qeyd edib ki, mütəxəssislər şəhərdə qəzalı vəziyyətə düşən bəzi evlərin yerində təhlükəsizlik baxımından yeni binanın tikintisinin mümkün olmadığı barədə qərar veriblər. Hazırda bünövrə işlərinin başlandığı çoxmənzilli yaşayış binası məhz bu cür vəziyyətdə olan ailələr üçündür.

Rayon fövqəladə hallar komissiyasının sədr müavini zəlzələnin fəsadlarının tamamilə araşdırılması və zərər çəkən ailələrə lazımi kömək göstərilməsi istiqamətində tədbirlərin davam etdirildiyini deyib. Onun sözlərinə görə, indiyədək qəzalı vəziyyətə düşən 251 ev müəyyən olunub.

# Mətbəx mədəniyyətimizin tərkib hissəsidir

Sumqayıtda yerləşən "Turanpark" ailəvi istirahət mərkəzində "Azərbaycan mətbəxi Qacarlar dövrünün bərpa edilmiş xörəkləri" kitabının təqdimatı keçirilib.









Tədbiri açan "Turan" mərkəzinin təsisçisi, kitabın müəlliflərindən biri Mübariz Quliyev bildirib ki, hər bir xalqın mətbəxi onun mədəniyyətinin tərkib hissəsidir. Sizə təqdim edilən bu kitab xalqımızın neçə əsrlərə söykənən mətbəx mədəniyyətindən xəbər verir. Bəzən bədnam qonşularımız bizim mətbəx nümunələrimizi öz adlarına çıxarır, onu geniş ərazidə təqdim edirlər. Kitabda Azərbaycana aid olan mətbəx nümunələrindən dolğun şəkildə məlumat verilir.

Mübariz Quliyev bildirib ki, "Turan" RŞ 1989-cu ildən fəaliyyət göstərir, 160 nəfərlik personalı ilə xalqımızın xidmətindədir. Buraya istirahət üçün təşrif buyuran hər kəsə milli mətbəximizin ecazkar nümunələri barədə məlumat verilir. Sumqayıta qonaq olan turistlərə belə nəşrlər təqdim edilməli, mədəniyyətimizin bir hissəsi olan mətbəximizin sirləri dünya ilə paylaşılmalıdır.

Azərbaycan Milli Kulinariya Mərkəzinin baş direktoru, əməkdar mədəniyyət işçisi, professor Tahir Əmiraslanov mərasimdə çıxış edərək bildirib ki, hələ 2013-cü ildə respublika MEA-nın Füzuli adına Əlyazmalar İnstitutu ilə birlikdə Nadir Mirzə Qacarın "Karnamə" (Qacar dövrünün xörəklərinə dair) risaləsini hazırlayıb çap etdirmişdik. Orada xörəklərin bəzilərinin sadəcə adı qeyd edilmiş və haqqında heç bir məlumat verilməmişdi. Bu kitab indiyə qədər yazılmış toplumlardan fərqlənir. Burada tam elmi tədqiqatlara əsaslanaraq unudulmuş, bişirilməsi çətin olan yeməklərin bərpası öz əksini tapmışdır. Maddi və mənəvi dəyərlərin bərpasında çətinliklər mətbəximizdə də mövcuddur. Bir xörəyin bərpası və xidmət personalına qatılması üçün üç ilə yaxın vaxt sərf olunur. Həm də unutmayaq ki, ərzaqların tərkibi də illər keçdikcə dəyişir.

Tahir Əmiraslanov vurğulayıb ki, kitab üç hissədən ibarətdir. Kitabın yeniliklərindən biri də yeməklərin restavrasiya edilməsidir. Bununla da dünya mətbəx mədəniyyəti tarixində ilk dəfə yemək dəsturlarının, reseptlərin bərpası baş verdi. Təbrizin valisi Nadir Mirzə Qacar və həyat yoldaşının 1875-ci ildə yazmağa başladığı, 1883-cü ildə bitirdikləri "Karnamə"də 203 xörək barədə məlumat verilir. Onların dəsturları barədə heç bir sənədin olmamasına baxmayaraq, 203 xörək yenidən bərpa edilib. Həmçinin hər xörəyə uyğun iki yeni müasir texnologiyalara uyğun hazırlanması resepti də təqdim edilib. Ümumiyyətlə, geniş oxucu kütləsi üçün hazırlanan bu vasitə milli mətbəximizin əvəzsizliyini nümayiş etdirir. Həm də belə məlumata malik nəşrlərimiz sərhədlərimizi aşmalı, Azərbaycan mətbəxinin ecazkarlığını dünyaya tanıtmalıdır.

Tədbirdə çıxış edən Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Teymur Əhmədov, Milli Məclisin deputatları Qənirə Paşayeva, Adil Əliyev, respublika Dövlət Turizm Agentliyinin, Milli Kulinariya Assosiasiyasının nümayəndələri ölkəmizin mədəniyyətinin təbliğində göstərdikləri xidmətə görə müəlliflərə minnətdarlıqlarını bildirdilər. Vurğulanıb ki, Azərbaycan mətbəxini öz adına çıxaran düşmənlərimizə bu kitab tutarlı cavabdır.

Onu da bildirək ki, kitabın müəllifləri T.Əmiraslanov, O.Əliyev, A.Şamidzadə, B.Məmmədova, A.Əmiraslanova və M.Quliyevdir. Gələcəkdə kitabın digər dillərə tərcüməsi nəzərdə tutulub.

Daha sonra iştirakçılara mətbəximizin nümunələri, həmçinin məlumat xarakterli bukletlər və kitablar təqdim edilib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## "Azərenerji" ASC elektrik enerjisi istehsalını artırıb




"Azərenerji" ASC arxada qalan fevral ayı ərzində 1.945 milyard kvts elektrik enerjisi istehsal edib. Bu isə ötən ilin fevral ayı ilə müqayisədə 24.2 milyon kvts çoxdur. Belə ki, ötən ilin fevral ayında 1.921 milyard kvts elektrik enerjisi istehsal edilmişdi.

Bu ilin fevral ayında istehsal edilən 1.945 milyard kvts elektrik enerjisindən 159.34 milyon kvts qonşu ölkələrə ixrac olunub.

***"Azərbaycan"***


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün dəftərxana və ofis ləvazimatlarının satın alınması, Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün printer və surətçıxarma aparatı katriclərinin satın alınması və Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binalarında kovrolit örtüyünün mexaniki üsulla sulu-kimyəvi təmizlənməsi xidmətinin satın alınması ilə bağlı kotirovka sorğuları başa çatmış və Satınalmalar komissiyasının 13 fevral 2019-cu il tarixli qərarına əsasən 1-ci məsələ üzrə "Ofis Aləmi" MMC, 2-ci məsələ üzrə "Aztoner" MMC, 3-cü məsələ üzrə isə "Flauer Klininq" MMC qalib elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən işçilərin könüllü tibbi sığorta təminatı üzrə xidmətlərin satın alınması ilə əlaqədar keçirilən kotirovka sorğusu başa çatmışdır.

Tender komissiyasının 22.02.2019-cu il tarixli qərarına əsasən "Paşa Sığorta" ASC kotirovka sorğusunun qalibi seçilmişdir.

Qalib şirkətlə 01.03.2019-cu il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

***Gədəbəy Rayon İcra Hakimiyyəti Gədəbəy rayonunda Novruz bayramı tədbirinin keçirilməsi işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.***

Maraqlanan təşkilatlar (022) 326-01-47 telefon nömrəsi ilə əlaqə saxlaya bilər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 11mart 2019-cu il saat 18:00-a kimi qəbul olunur.

**Ünvan: Gədəbəy rayonu, M.C.Paşayev küçəsi, 3.**

***Tender komissiyası***

**"Azərsu" ASC daxili vəsaiti hesabına "Azərsu" ASC-də istehlakçılara göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi, aparılan işlərdə operativlik, şəffaflıq və keyfiyyətə nəzarətin təmin olunması üçün sms məlumatlandırma sisteminin qurulması işlərinin satın alınması məqsədilə**

***kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431 47 67/2288) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 14 mart 2019-cu il saat 15:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC-nin Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında 15 mart 2019-cu il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

"AZƏRLOTEREYA" Açıq Səhmdar Cəmiyyəti

***kotirovka sorğusu elan edir***

**Kompüter və digər avadanlıqlarının kotirovkalar sorğusu üsulu ilə satın alınması.**

- PC Prosessor - 2 ədəd
- SSD 500 GB - 2 ədəd
- UPS - 1 ədəd

Təkliflər 2019-cu il martın 14-ü saat 12.00-dək qəbul edilir.

Əlaqələndirici şəxs: Zaur Canməmmədov.

Telefon: 514-47-01/02

**Ünvan: Bakı şəhəri, Təbriz küç., 79.**

***Tender komissiyası***


# Beynəlxalq aləm

## ABŞ Türkiyə ilə hərbi əməkdaşlığı məhdudlaşdıra bilər

Ankara Rusiya istehsalı olan S-400 zenit-raket sistemləri alsa, ABŞ Türkiyəyə F-35 qırıcı təyyarələri satmaqdan imtina edə bilər. Bu barədə jurnalistlərə ABŞ-ın Avropadakı qoşunlarının və NATO-nun Avropadakı birləşmiş silahlı qüvvələrinin baş komandanı, general Kertis Skaparotti məlumat vermişdir.



Skaparotti ABŞ Senatının silahlı qüvvələr komitəsinin iclası zamanı demişdir: "Mən israrla tövsiyə edirəm ki, biz Rusiya sistemləri, xüsusilə ən qabaqcıl texnologiya olan raket əleyhinə müdafiə sistemləri ilə işləyən müttəfiqlə F-35 sazişindən və birgə fəaliyyətdən imtina edək". Bundan əlavə, Türkiyə-Rusiya sazişi baş tutarsa, Vaşinqton Ankaraya 3,5 milyard dollar məbləğində "Patriot" raket kompleksləri satmaq təklifini geri çağıracaq.

Ötən ay Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirmişdir ki, Türkiyənin Rusiyadan S-400 zenit-raket kompleksləri alması "baş tutmuş sazişdir". Öz növbəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan vurğulamışdır ki, Ankara mövqeyini ABŞ Konqresində izah etməyə hazırdır. O ümidvar olduğunu bildirmişdir ki, Vaşinqton sərt mövqeyindən çəkilməyə razılıq verəcək.

## KXDR əhalisinin 43 faizi aclıqdan əziyyət çəkir



Keçən il KXDR-də əlverişsiz hava şəraiti, kənd təsərrüfatı torpaqlarının çatışmaması və qeyri-effektiv idarəetmə ucbatından məhsul 500 min ton azalaraq 4,95 milyon ton təşkil etmişdir. Bunun nəticəsində ərzaq və su qıtlığından əziyyət çəkən şimali koreyalıların sayı 10,9 milyon nəfərə çatmışdır. Bu, KXDR əhalisinin təxminən 43 faizini təşkil edir. Bu barədə BMT-nin hesabatında məlumat verilmişdir.

BMT-nin Şimali Koreya üzrə əlaqələndiricisi Tapan Mişra dünya birliyini KXDR-ə vacib humanitar yardım çatdırılması üçün vəsait toplamağa çağırmışdır. O qeyd etmişdir ki, ötən il yardımın maliyyələşdirilməsi cəmi 25 faiz səviyyəsində olmuşdur.

## Tramp Venesuelaya qarşı sanksiyaların müddətini uzatdı



ABŞ Prezidenti Donald Tramp 2015-ci il tarixli fərmanla Venesuelaya qarşı tətbiq edilmiş sanksiyaların müddətini uzatmışdır. Bu barədə Ağ evə istinadən "Röyter" agentliyi xəbər verir.

Trampın dediyinə görə, Venesuelada vəziyyət əvvəlki kimi ABŞ-ın milli təhlükəsizliyi üçün "qeyri-standart və fövqəladə təhdiddir". Ona görə də sanksiyalar qüvvədə qalacaq.

Xatırladaq ki, bu günlərdə ABŞ Maliyyə Nazirliyi ötən ayın 23-də ölkəyə xarici dövlətlərdən göndərilmiş humanitar yardımın buraxılmamasına görə məsuliyyət daşıyan altı venesuelalının adlarını sanksiya siyahısına əlavə etmişdir. Onların arasında Milli Qvardiyanın komandanı Riçard Lopes Varqas da var.


## B İ L D İ R İ Ş

***Qazax Rayon İcra Hakimiyyəti Qazax rayonunda məşğulluğun artırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində haqqı ödənilən ictimai işlərə cəlb edilmiş işçilərin xüsusi geyim, inventar və materiallarla təmin edilməsi məqsədilə geyim və inventarın satın alınması məqsədilə təkliflər sorğusu elan edir***

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Qazax şəhəri, Azadlıq küçəsi, 78 (Əlaqələndirici şəxs: Samir Nəriman oğlu Qurbanov, telefon: (022) 295-13-93) müraciət edə bilərlər.

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş təkliflər sorğusunu 13 mart 2019-cu il saat 17:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan təkliflər sorğusu baxılmadan geri qaytarılacaqdır.

Təkliflər sorğusu Qazax Rayon İcra Hakimiyyətinin tender komissiyası tərəfindən Qazax şəhəri, Azadlıq küçəsi, 78 ünvanında 14 mart 2019-cu il saat 11:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

**DÜZƏLİŞ**

Ağcabədi Rayon Kommunal Xidməti və Mənzil İstismarı İdarəsinin 01 mart 2019-cu il tarixdə dərc olunmuş açıq tender elanında tələb olunan sənədlərin qəbulu 10 aprel 2019-cu il saat 17:00-a , tender təklifi və bank zəmanətinin qəbulu isə 18 aprel 2019-cu il saat 17:00-a dəyişdirilmişdir.

*Tender komissiyası*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Tunelçilər Birliyinin sədri Şaiq Əfəndiyev və birliyin kollektivi Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Əfəndi İsmiyevə oğlu

**FƏRİD İSMİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8569
Sifariş 820
Qiyməti 40 qəpik